**PƏNAH GÖYÇƏ**

**V CİLD**



# MƏHƏBBƏT

**Bakı-2006**

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Pənah Göyçə*** *(Qurbanov Pənah Abdulla oğlu) 1940-cı il dekabr ayının 11-də Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur.*

*1948-ci ildə ailəsi ilə Gəncəyə köçmüş, orada orta məktəbi və H.Zərdabi adına Gəncə Pedaqoji institutunun kimya-biologiya fakültəsini (1963) bitirmişdir*

*1966-cı ildə indiki Azərbaycan Dövlət Neft Akademiyasının aspiranturasına daxil olmuş, bitirmiş və 1995-ci ilə kimi elmi-pedaqoji fəaliyyət göstərmişdir. Elmlər doktorudur.*

*1984-cü ildən poeziya ilə müntəzəm maraqlanmağa başlamışdır. İlk poetik toplusu «Göyçə gözüm işığı» 1991-ci ildə işıq üzü görmüşdür.*

*Hal-hazırda poetik axtarışlarla yanaşı, musiqi alətlərinin (saz, kamança, tar, qaval) təkmilləşdirilməsi üzərində işləyir.*

**PƏNAH GÖYÇƏ.** Əsərləri. (5 cilddə). I CİLD. Necə Unudum Səni. Bakı, “Borçalı”, 2005, 460 səh.

**E-mail: panahgoyche@mail.ru**

**(Arxa üz qabığında):**

***Özümdən bədgüman olmamışam ki,***
***Az verib bolabol almamışam ki…***
***Bir zaman həyata dönüb görəydim,***
***Şeriyyətə borclu qalmamışam ki?!***

Nəşri: Müsfiq BORÇALI
Redaktor: Rafael Ələsov
Korrektorlar: Rafael Ələsov
Kompüter yığıcısı: Əziz kərimov

***Bütün müəllif hüquqları Qanunla qorunur. Kitabın heç bir hissəsi müəllifin yazılı şəkildə verdiyi icazə olmadan çap oluna və ya hər hansı şəkildə istifadə edilə bilməz.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ÖN SÖZ ƏVƏZİ

Əziz dost!

Çox-çox xoşbəxtəm ki, səninlə beşinci görüş, yəni sonuncu görüş mənə nəsib oldu. Ona görə sonuncu deyirəm ki, poetik axtarışlara nöqtə qoymuşam. Altıncı cild olmayacaq. Yerdə qalan ömrü texniki sahədə qazandığım bəzi nailiyyətləri bəşəriyyətə çatdırmağa həsr etmək fikrindəyəm. Qoy ulu Tanrı hər bir xilqətə yaxşı işlərində kömək olsun...

Bəzi «müasir» şair və tənqidçilərdən tez-tez eşidirik ki, nə qədər güldən, bülbüldən bəhs etmək olar. Bu mövzu çoxdan tükənmişdir... Bədbəxtlər! Həyat göstərir ki, bu mövzu nəinki tükənir, hətta genişlənməkdə davam edir. Və mən əminəm ki, bu əbədidir. Hər bülbül öz nəğməsini oxuduğu kimi, hər bir şair də öz gül-bülbül şerini yazmağa cəhd edir və büna da nail olur. İnsanların, o balaca yaradıcıların cəhdi əbəs deyildir və sonlu ola bilməz. Nə qədər ki, həyat var, onlar öz işlərində yeni-yeni müvəffəqiyyətlər qazanacaqlar, ancaq, heç bir zaman Yaradanın səviyyəsinə çatmayacaqlar. Həyatın sonsuzluğu, mənası və gözəlliyi də bundadır. Mənim bir şerimdə artıq oxumusan:

**Könül, sözə təzə ruh ver,**
**Deyilməmiş söz nə gəzir?!**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər bir sözə saysız-hesabsız dəfə yeni ruh vermək, onu yeni mənada işlətmək mümkündür. Deməli, gül-bülbül mövzusu da tükənən deyil. Axı, hər bir şair öz hisslərinin ifadəsi ilə məşğuldur. Dünyada iki eyni buğda dəni yaranmadığı kimi, iki eyni hissli şair də mövcud ola bilməz, fərqli hiss və duyğularn fərqli də ifadəsi olacaqdır...

Bir neçə il bundan əvvəl Rusiya televiziyasının «Что хочет женшина» verilişlərinin birində Klara Novikova özü ağılda olan bir neçə tanınmış şəxslərlə məhəbbət mövzusu üzərində düşünüb-daşındılar. Gəldikləri nəticə bu oldu ki, sevgi dəbdən düşüb, daha ona inanan yoxdur və 21-ci əsrdə məhəbbət olmayacaq, o öz yerini seksə vermişdir. Yazıqlar!... Səməd Vurğunun «Komsomol» poemasını xatırladım:

**Dünən bir duyğusuz soruşdu məndən,**
**Nə çox məhəbbətdən dəm vurursan sən.**
**Hər şey ki, həyatda dəyişir, dönür,**
**Məhəbbət, sədaqət gülünc görünür.**
**Dedim ki, vəz etmə fəlsəfələrdən,**
**Alim paltarında gülməlisən sən.**
**Yaxşı bilirəm ki, təbiət dönür,**
**Varlıq hər baxışda yeni görünür.**
**Ancaq təbiətin öz qanunu var,**
**Meyvəni vaxtında tökür ağaclar...**

**... Eşqsiz yaşayan donuq bir insan,**
**İçini qurd yemiş boş bir ağacdır.**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**Əsirlər dolanır, dəyişir zaman,**
**Məhəbbət əbədi bir ehtiyacdır...**

**... Getsə bir qapıdan eşqin ayağı,**
**Saralar bağçası, tökülər bağı.**

və s. və s. Mən belə hesab edirəm ki, S.Vurğun «Komsomol»un bu hissəsində məhəbbət hissinin bəşər tarixində həmişə mövcud olan araşdırmalarını yeni zirvəyə qaldırmış, sanki ona nöqtə qoymuşdur. Ancaq «Hər şey ki həyatda dəyişir, dönür», deməli, bu barədə də yeni axtarışlar labüddür. Mən bu barədə tələbəlik illərindən, 60-cı illərdən başlayaraq həyatı dərk etmənin bir cəhəti kimi daim düşünmüşəm. 1984-cü ildən, necə deyərlər, peşəkar şairliyə başlayandan «Məhəbbət» adlı poema yazmaq, bu barədə bəşər fikrini bir pillə yüksəltmək arzusuna düşdüm. Lakin işə başlamaqdan sanki qorxur, onu daim təxirə salırdım. Beş il bundan əvvəl, nəhayət işə başladım. Bəlkə də ömrümdə ilk dəfə başladığım işi yarımçıq qoydum. 2005-ci ilin əvvəlində işə yenidən girişdim. Yaradana şükrlər olsun ki, pis-yaxşı onu tamamlaya bildim. Budur, o, sənin qarşındadır. İnsanı ümid yaşadır deyirlər, mən də ümidvaram...

Məndən sonra gəlib bu mövzunu öz dövrünün tələbləri səviyyəsinə qaldıracaq olan o şairə müvəffəqiyyətlər arzulayıram, axı həyat tükənən deyil, sonlu deyil.

Mən əminəm ki, Məcnuna «ay Allah kömək olmuş, sevgi, məhəbbət keçib gedəndir, ağlını vaxtında başına yığ,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

get adam kimi yaşa» deyənlər çox olub. Maraqlı burasıdır ki, belə fikirlər insanların əksəriyyətində müəyyən yaş dövründə formalaşır.

Səksəninci illərin sonları idi, «Göyçə gözüm işığı» kitabının çap prosesi gedirdi. O vaxta qədər, demək olar ki, mən çap olunmamışdım. Heç indi də dövri mətbuatla işim yoxdur. Neft Akademiyasının üzvi kimya kafedrasında işləyirdim. Fikirləşdim ki, kitabın reklamı üçün dövri mətbuatda bir neçə şer çap etdirim. İkinci mərtəbədə akademik Azad Mirzəcanzadə ilə təsadüfən qarşılaşdıq. Yüngül tanışlığımız var idi. Ona seçmə şerlərimdən bir neçəsini verdim. Fikirləşirdim ki, zövqlü, arif adamdı. Şerləri bəyənəcək, onların çapına kömək edəcək. Bir neçə gündən sonra yenə də təsadüfən qarşılaşdıq. O məni saxladı:

- Pənah müəllim, mən sizə məəttəl qalmışam. Olmayan bir şeydən, məhəbbətdən necə şer yazmaq olar? - Mən hədsiz dərəcədə məyus olsam da, vəziyyətdən çıxmaq üçün mızıldandım:

- Gənclər üçün nəzəri surətdə yazırıq... -

Mən onu qınamıram. Axı insanların çoxu yaşlaşanda belə düşünür. Mən isə yox:

**... Yüzdə də həyata bağlar insanı,**
**Ürək məhəbbətdən doyası deyil.**

Məhəbbət hissləri (yuxarıda qeyd etdiyim kimi böyük hərflə yazılan Yaradana və Həyata olan duyğular) insan yaşlaşdıqca müəyyən qədər dəyişir, əslində daha da



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dərinləşir, formalaşır, durulur. Cavanlarda əsasən onun ikinci cinsə olan hissəsi əsas yer tutursa, müdrikləşdikcə o öz yerini Yaradana, Həyata, Kainata olan məhəbbətə verir.

Əli Qurban Dastançının həyatının dəyişməsinin ildönümünə və 75 illiyinə həsr edilmiş xatirə gecəsində partiyalı poeziya, dissident poeziyası məsələlərinə toxunuldu. Onlar qarşı-qarşıya qoyuldu. Əslində isə xalis partiyalı poeziya və ya dissident poeziya ola bilməz. Poeziya varsa, o, yalnız həyati ola bilər. Müəyyən qədər partiyalı və ya dissident xarakteri daşıya bilər. Birdəfəlik başa düşmək lazımdır ki, sənətin gücü onun nədən danışmağında yox, necə danışmağındadır. Sübutsuz danışmağın əhəmiyyəti yoxdur; H.Cavidin bütün bəşəriyyətin qəddar düşməninə həsr etdiyi «İblis» əsəri yaşayır. (Əslində o əsər heç də şedevr deyildir. H.Cavid özünü də, iblisi də müəyyən qədər dolaşdırıb və bu ayrıca söhbətə mövzu ola bilər) N.Xəzri isə bəşəriyyətin fəxri olan Məhəmməd peyğəmbərə «Peyğəmbər» poeması həsr edib. Ancaq yaşayası deyil; əsərin ömrünü, dəyərini onun nədən danışmağı yox, necə danışmağı təyin edir.

S.Vurğunun «Stalin», «Rəhbərə salam», «Partiyamızdır» şerləri onun axırıncı akademik nəşrində yoxdur. Bu gələcəkdə də belə olsa çox pis. Vurğunun hər bir sətri, yuxarıda qeyd edilənlər də həyat hıqqındadır, insan haqqındadır və poeziya üçün müstəsna əhəmiyyətə malikdir. Biz ondan yaxşı hesab etdiyimiz obyekti tərifləməyi öyrənməliyik. Əgər S.Vurğunun yuxarıdakı əsərləri zərərli hesab edilib unudulmalıdırsa, onda gərək Firdovsinin «Şahnamə»si, Nizaminin «İskəndərnamə»si də



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

yararsız elan edilsin. Axı onlar insanlara xeyir deyil, zərər, əzab, ölüm gətirmiş fatehlər haqqında tərifnamədir.

Məndən tez-tez soruşurlar, Yazıçılar İttifaqının üzvüyəmmi? Onları necə başa salım ki, sovet dövründə xalq ruhunda yazanların əksəriyyətini nə öz sıralarına, nə də mətbuat səhifələrinə buraxmayan birlik mənim üçün deyil. O artıq bir şeydir, normal ölkələrdə yoxdur.

Səksəninci illərin ortaları idi. Həvəslə intensiv yazıb-pozurdum. Poeziyanın pərəstişkarı bir dostum var idi, Bəhlul Məhərrəmov. «Düşüncələr» adlı poemam təzəcə tamamlanmışdı. Bəhlul əl çəkmədi ki, bunu «Qobustan» jurnalına aparaq. Anar bunu dərhal çap edəcək. Anardan ağlım bir şey kəsməsə də dostumun üzündən keçə bilmədim, durub getdik Anarın hüzuruna. Anar birinci səhifəni yarısına qədər oxuyub məndən soruşdu ki, niyə azərbaycanca yazmırsınız? Cin vurub çıxdı təpəmə. Dedim ki, harası ermənicədi? Mətləbi uzatmıram, əziz dost, «Düşüncələr»in birinci səhifəsini diqqətlə oxu. Allah şahiddi ki, o, Anar necə oxuyubdusa, eləcə də çap olunub. Gör orada dil pozğunluğu varmı? Mənim əsəbiləşməyim ona da keçdi, əvvəl dil öyrənin, sonra da şer yazın dedi. Belə bir adamın rəhbərlik etdiyi bir qurum gərəkli bir şey olsa belə mən ora can atmazdım.

Xalqın hörmət etdiyi Əkrəm Əylisli bu yaxınlarda ANS TV-nin «Meydan» verilişində bu quruma öz münasibətini bildirərkən mənim də ürəyimdən xəbər verdi...

Bir neçə kəlmə Anar barədə; olduqca istedadlı, qibtə ediləsi qələmi var. Əfsus ki, şeytana xidmət edir. İki sübut



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gətirəcəyəm. «Beşmərtəbəli evin altıncı mərtəbəsi» əsəri, onun teatr və kino ifadəsi hamıya məlumdur. Qüdrətli Anar qələmi əxlaqsız Təhminəni bizə sevdirir. Ən təhlükəlisi isə odur ki, onu cəmiyyətimizin normal bir üzvü kimi ortaya qoyur. Bu isə çox ziyanlı və qorxuludur.

Gərək ki, səksəninci illərdə Anar altı illik zəhməti ilə «sübut» etdi ki, Dədə Qorqud Azərbaycana məxsusdur. Belə bir «müdrik» də «Manas»ı başqa bir tərəfə çəkdi. Sabah Koroğlu və ya Molla Nəsrəddinə sahib tapılacaq. Əslində isə hamı, bunların hamısının ümumtürk mənsubiyyətini, yeganə həqiqəti müdafiə etməlidir. Bu yaxınlarda Az TV-nin «Ailələr, talelər» verilişi ailə gününə həsr olunmuşdu. Dəvət olunan ailələrdən biri Anarın ailəsi idi. Anarın həyat yoldaşı qeyd etdi ki, Anar, ona üz tutan, kömək istəyən heç bir kəsdənköməyini əsirgəməyib. Səmimi deyil. Hətta mənə kömək etməyin yerini bilməyən bir şəxs kimlərə kömək edib?! Ədalət naminə deyim ki, Anarın öz həyat yoldaşına həsr etdiyi və o verilişdə səsləndirdiyi şeri pis deyildi. Əfsus ki, şairlik etsə yenə şeytana qulluq edəcəkdi...

*****

Əziz dost! Gəl indi də əzəli, əbədi olan bir sual haqqında düşünək: həyatın mənası, məqsədi nədir? Bu sual barədə bütün insanlar həyatının müəyyən dövründə düşünməli olur. Mütəfəkkirlər bu barədə çox düşünür, ona aydınlıq gətirməyə çalışır və mənə elə gəlir ki, kələfi daha da dolaşdırırlar. Mən də tələbəlik illərindən başlayaraq bu barədə həmişə düşünmüşəm. Mənə elə gəlir ki, nəhayət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

düşüncələrim durulmuş, saflaşmış və mən bu məsələnin əsil mahiyyətini tapa bilmişəm:

Həyatın mənası, məqsədi həyatı qorumaqdır. Həyatın ən ümdə xassəsi, vəzifəsi özünü təkrar etməkdir. Yəni həyat həyat doğmalıdır. Fərqi yoxdur ki, canlı olan bitgidir, heyvandır, yoxsa insan.

Yeni həyat doğmaq üçün canlı varlıq əvvəlcə özünü qorumalıdır. Yoxsa nəsil verə bilməz. Büna görə də yaşamaq eşqi, həyat eşqi canlıların ümdə xassəsidir. Axı o, özünü qorumalıdır ki, nəsil davam edə bilsin.

Orta hesabla bir metr boyu olan buğda bitkisi quraqlığa düşürsə bircə qarış boyla da toxum əmələ gətirməyi unutmur. Heyvanlar dişlə, dırnaqla özünü və törəməsini qoruyur. İnsan bir qədər də irəli gedir. Nəinki özünü və törəməsini, törəməsinin törəməsini də eyni eşqlə, həvəslə ərsəyə çatdırmağa çalışır.

Deyilənlərə bu məsələnin materializm nöqteyi-nəzərindən verilmiş izahı kimi baxmaq olar. Bu məsələyə dini nöqteyi-nəzərdən baxsaq həyat hər bir insan üçün sınaqdır və əbədi həyatı, cənnəti və ya cəhənnəmi qazanmaq üçün vasitədir. Maraqlı və ədalətli cəhət orasıdır ki, əbədiyyət qazanmaq üçün bütün insanların, şahın da, qulun da, güclünün də, gücsüzün də, varlının da, yoxsulun da imkanı eynidir...

*****

Əziz dost! Yəqin ki, yadındadır. İkinci cildin «Ön söz əvəzi»ndə sənə qəlp pullar seriyasından bir məsələnin haqqında düşünməyi xahiş etmişdim. Həll edə bilmisənsə, əhsən sənə! Bilməmisənsə, söz verdiyim kimi həmin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məsələnin 10 həllini sənə təqdim edirəm. Məsələni bir də yada salaq:

On iki puldan biri qəlpdir. Qəlp pul ya ağırdır, ya da yüngüldür. Üç dəfə qollu tərəziyə müraciət etməklə qəlp pulu ağır, ya yüngüllüyünü də təyin etməklə tapmaq lazımdır.

***Həlli:***

**I.** Tərəzinin hər gözünə dörd pul qoyub çəkirik. Əgər onlar bərabər çıxsa, bu göstərir ki, qəlp pul yerdə qalan dörd pulun arasındadır. O dörd puldan üçü tərəzinin bir gözünə qoyulur, o biri gözə isə saf olduğu sübut olunan səkkiz puldan üçü qoyulur. Bərabərlik alınsa, deməli qəlp pul yerdə qalan bir dənədir. Üçüncü çəkidə qəlp olmayan bir pulla həmin pul qarşılaşdırılır və ağır-yüngüllüyü təyin edilir. İkinci çəkidə bərabərlik alınmasa məlum olur ki, qəlp pul çəkilən üç pulun arasındadır, həm də onun ağır və yə yüngüllüyü təyin edilmiş olur. Üçüncü çəkidə, o pulların hər gözə biri qoyulur. Onlardan ağır və ya yüngül olanı qəlpdir. Onlar bərabər çıxsa qəlp pul yerdə qalandır.

Əgər birinci çəkidə bərabərlik alınmasa aydın olur ki, qəlp pul ya ağırdır ağır tərəfdədir, ya da yüngüldür və yüngül tərəfdədir.

**yyyy** **aaaa**

ikinci çəkidə tərəzinin gözləri belə yüklənir:

**aaay** **sssa**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**a** – ağır, **y** – yüngül, **s** – saf deməkdir. Tərəzi bərabərlik göstərərsə, deməli qəlp pul qıraqda qalan üç yüngül pulun arasındadır və təbii ki, yüngüldür. Hər gözə onlardan birini qoymaqla üçüncü çəkidə yüngül olan qəlp pul tapılır. Tərəzi bərabərlik göstərməsə

**sssa**
**aaay**

vəziyyəti göstərir ki, qəlp pul ağır tərəfdə üç ağır pulun arasındadır. Yenə üçüncü çəkidə hər gözə onlardan birini qoymaqla ağır olan qəlp pul tapılır.

**aaay**
**sssa**

vəziyyəti alınsa qəlp pulun ağır və sağ tərəfdə olduğu sübut olunur.

**II.** İkinci çəkidə tərəzi belə qurulur:

**aay aas**

Bərabərlik qəlp pulun kənarda qalan üç yüngül puldan biri olduğunu göstərir. Bu da əvvəl olduğu kimi ayırd edilir.

**aas**
**aay**

vəziyyəti qəlp pulun sol tərəfdəki iki ağır puldan biri olduğunu göstərir. Üçüncü çəkidə onların hərəsi bir tərəfə qoyulmaqla qəlp pul olan aşkar edilir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**aay**
**aas**

vəziyyəti qəlp pulun ağır olmaqla sağ tərəfdəki iki ağır puldan biri olduğunu və ya yüngül olmaqla sol tərəfdə olduğunu sübut edir. Üçüncü çəkidə sağdakı iki ağır üzləşdirilir və ağır qəlp pul tapılır. Onlar bərabər çıxsa qəlp pul sol tərəfdəki yüngüldür.

**III. ayy ays a.a.y**

Bərabərlik alınsa qəlp pul ya yerdə qalan iki ağırdan biri olub ağırdır, ya da yüngül olandır. Üçüncü çəkidə ağırlar qarşılaşdırılır, ağır olan qəlpdir. Bərabər olsalar, qəlp pul yüngül olandır.

**ays**
**ayy**

vəziyyəti qəlp pulun ya ağır olduğu üçün solda, ya da yüngül olduğu üçün sağda olduğunu göstərir. Ya ağırı, ya da yüngülü safla qarşılaşdırılmaqla məsələ həll olunur.

**ayy**
**ays**

vəziyyəti qəlp pulun ya yüngül olmaqla solda, ya ağır olmaqla sağda olduğunu göstərir. Üçüncü çəkidə soldakı iki yüngül qarşılaşdırılır və məsələ həll olunur.

**IV. yyaa sssy a.a.y.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bərabərlik qəlp pulun qıraqda qalan pulların arasında oluğunu göstərir ki, o da üçüncü halldə olduğu kimi üzə çıxarılır.

**yyaa** **sssy**

vəziyyəti qəlp pulun soldakı iki ağırdan biri, ya da sağdakı yüngül olduğunu üzə çıxarır. Soldakı iki ağır qarşılaşdırılmaqla məsələ həll olunur.

**yyaa**
**sssy**

vəziyyəti qəlp pulun sol tərəfdə yüngül pullardan biri olduğunu sübut edir ki, üçüncü çəkidə onlar qarşılaşdırılmaqla məsələ həll edilir.

**V. sayy asyy a.a.**

bərabərlik vəziyyəti qəlp pulun yerdə qalan iki ağırdan biri olmaqla ağır olduğunu göstərir və məsələ üçüncü çəkidə öz həllini tapır.

**sayy** **asyy**

vəziyyəti qəlp pulun soldakı ağır, ya da sağdakı iki yüngüldən biri olduğunu göstərir. Üçüncü çəkidə sağdakı iki yüngül qarşılaşdırılır və məsələ həll edilir.

**sayy**
**asyy**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

vəziyyəti isə əksinə, qəlp pulun ya soldakı iki yüngüldən birini, ya da sağdakı ağır olduğunu sübut edir. Üçüncü çəkidə soldakı iki yüngül pullar qarşılaşdırılır və məsələ həll edilir.

Göstərilən 5 üsulun hər birində ikinci çəkidə ağır və yüngüllərin vəziyyətini dəyişməklə, (məsələn, 1-ci variantdakı **aaay** **sssa** əvəzinə **yyya** **sssy** vəziyyətində) məsələnin daha 5 həllini üzə çıxarırıq. İlk baxışdan bu «izomerliyi» nəzərə almayanlar məsələnin 5 həllinin olduğunu düşünə bilərlər. Əslində bu düzgün yanaşma deyil. Təsəvvür edək ki, 100 nəfər bu məsələnin həlli ilə məşğuldur. Onlardan 10-u bizim göstərdiyimiz on yolla məsələni həll edirsə, «izomerlik» nəzərə alınmayacaq və onların hər biri qalib hesab ediləcəkdir.

Mənim üçün sevindirici haldır ki, artıq kitabımızın redaktoru Rafail Ələsov, şair Nizami Zöhrabinin oğlu Vüsal və eloğlum Əliyev Dadaş hərəsi məsələnin bir həllini tapmışlar. Məndə olan məlumata görə dünya üzrə qəlp pullar seriyası ilə məşğul olan riyaziyyatçılar bu məsələnin bircə həlli olduğunu düşünürlər.

*****

Dostum, gəl bir az da kainat haqqında düşünək; bütün ağıllı başların, sonsuzluğu və dərkedilməzliyi qarşısında əyildiyi kainat barədə.

Bizim qalaktikanın (diametri yüz min işıq ili, ulduzlarının sayı yüz milyard) təxminən beş milyard il bundan əvvəl ifrat böyümüş «Qara dəliy»in partlaması nəticəsində yarandığı sübut olunmuşdur. Kainatın sonsuz sayda qalaktikalara malik olduğu da şübhəsizdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«Qara dəlik» materiyanın ifrat dərəcədə sıxılmış xüsusi halıdır. Bu elə bir haldır ki, diametri bir milyon dörd yüz min kilometr olan Günəş o hala gətirilə bilsəydi, onun həcmi 0,3 $mm^3$ olar, yəni iynənin deşiyindən keçə bilərdi. Həcmi kubmetrlərlə ölçülən «Qara dəlik» partladıqda elə bir dəhşətli temperatur və təzyiq əmələ gəlir ki, o şəraitdə «Qara dəliy»in qəlpələrindən başqa əmələ gələn adi materiya yalnız hidrogen atomları halında olur. Əmələ gələn nəhəng qaz kütləsi ağlasığmaz sürətlə hər tərəfə yayılmağa başlayır. Ümumdünya cazibə qüvvəsi fəaliyyətə başladığından qaz kütləsi külli miqdarda mərkəz ətrafında toplaşmış və bizim günlərin yüz milyard ulduzunun təməlini qoymuşdur.

Kosmik fəzaya səpələnmiş hidrogen qazı heç də az olmasa da əmələ gələn ulduzlar bizim qalaktikanın əsas kütləsini təşkil edir. Qalaktikamızın ulduzları nəhəng Betelqeyzedən tutmuş cırtdan ulduzlara qədər ən müxtəlif ölçüyə malikdirlər. O, böyük partlayışdan bizim Günəş sisteminin də təməli qoyulmuş idi. O vaxt ən iri qaz kütləsi Günəşi, kiçikləri isə planetləri əmələ gətirmişdir. Kainatın hər yerində olduğu kimi, ümumdünya cazibə qanununun tələbi ilə xırda qaz kütlələri ən irinin, gələcək Günəşin ətrafında fırlanmağa məcbur oldu.

Hidrogendən ibarət olan o qaz kütlələrinin hamısında bu gün Günəşdə baş verən nüvə reaksiyaları başlanmış, hidrogendən əvvəlcə helium, sonra isə daha ağır elementlər əmələ gəlmişdir.

Planetlərdən kiçikdən böyüyə olmaqla növbə ilə o proses başa çatmış və onlar tədricən soyuyub bu günkü



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şəkilə düşmüşdülər. Günəşdə isə o proses hələ on milyard ilə qədər davam edəcəkdir. Böyük partlayışda aldığı ilkin genetik enerjinin və başqa qalaktikaların cəzb etmə qüvvəsinin təsiri ilə bizim qalaktika daim genişlənir. Bu proses, qalaktikaların genişlənməsi, onların ayrı-ayrı mərkəzlərdə cəmlənməsi prosesi ilə yanaşı gedir. Bu, ilkin partlayış zamanı əmələ gələn xırda «Qara dəlik» qəlpələrinin öz yolunda rast gəldiyi elektromaqnit dalğalırndan tutmuş, nəhəng ulduzlara qədər hər şeyi udması nəticəsində baş verir.

Bütün qalaktikalarda olan bu «Qara dəlik» qəlpələri sonsuzluq adlanan vaxt ərzində əvvəl öz qalaktikasının, sonra çatdığı başqa qalaktikaların ulduzlarını «dənləməklə» nə vaxtsa yenə ifrat boyümüş «Qara dəlik»lərə çevrilərək, öz növbəsində partlayacaq, növbəti qalaktikaları əmələ gətirəcəklər və göründüyü kimi ümumi kainatda hər şey dövrədədir...

Mənim gəldiyim nəticə budur ki, bütün kaintın ilkin ən xırda «kərpici» elektromaqnit dalğalarıdır. Onlar, məsələn, «Qara dəlik»lər tərəfindən udulduqda sıxılaraq «Qara dəlik»lərin tərkib hissəsi olan kvarklara çevrilir. Kvarklar hər bir elementin nüvəsini təşkil edən proton və neytronların mərkəzində üç-üç olmaqla yerləşir və sonsuz kiçik zərrə şəklindədir.

*****

Şübhə etmirəm ki, «canlılıq» materiyanın sonsuz xassələrindən biridir və kainatın istənilən nöqtəsində ona şərait yaranan kimi gecikmədən meydana gəlir. Bu, o deməkdir ki, bizim Günəş sistemi planetlərinin hər birində



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«canlılığ»a şərait yaranan kimi o, meydana gəlmişdir. Bu Yer kürəsindən əvvəl, Marsda baş vermiş, ondan əvvəl isə Günəşə görə daha uzaqda olan planetdə meydana gəlmişdi. Anamız Yer kürəsində təxminən bir mlilyard il bundan əvvəl «canlılığ»a şərait yaranmış və dərhal da materiya özünün bu xassəsini reallaşdırmış, ilk canlılar, birhüceyrəlilər meydana gəlmişdi. Sonrası isə məlumdur.

Bu deyilənlər Ulu Tanrını inkar etmir, yəni onun icazəsi ilə baş verdiyi təsəvvür olunur.

Kainatda hər şey sonsuzluq prinsipinə tabedir və deməli şəraitdən asılı olaraq (temperatur, təzyiq, atmosfer tərkibi və s.) müxtəlif canlılar meydana gəlir. Bu o deməkdir ki, altmış milyon il bundan əvvəl Yer üzərində dinozavrlar hökmran olmalı idi. O vaxt baş verən katakilizm nəticəsində onların həyatına son qoyuldu.

*****

Dostum, yəqin yadındadır. 2-ci cildin ön sözündə məni xarakterizə edən simvolun orta cərgəsindəki

**1111111247899**

rəqəmlərinin mənasını sənə açıqlayağıma söz vermişdim. Bu rəqəmlər Pifaqor tərəfindən əsası qoyulmuş rəqəmlər haqqında elmin nailiyyətlərindən birinin nəticəsidir.

Bu elmi təlimə görə hər bir insanın anadan olduğu gün, ay, il onun taleyini təyin edən əsas faktordur. İnsan ana bətnində olduğu müddətdə fiziki qurulma prosesindən keçməklə yanaşı, həm də onun mənəvi aləmi formalaşır. İnsanın mənəviyyatının necəliyi onun təvəllüdündə əks



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olunur. Mənim mənəviyyatımı xarakterizə edən rəqəmlər aşağıdakı hesablama ilə tapılmışdır:

Təvəllüdümün, 11.12.1940 rəqəmləri toplanılır, yəni, 1+1+1+2+1+9+4+0=19

Alınan 19 ədədinin rəqəmləri cəmlənir: 1+9=10

19 ədədindən 2 çıxılır, alınan 17 ədədinin rəqəmləri cəmlənir:

19-2=17; 1+7=8

nəhayət əlimizdə olan 11.12.1940; 19; 10; 17; 8 ədədlərinin sıfırlar atılmaqla eyni rəqəmlər yan-yana kiçikdən böyüyə sıralanır.

**1111111247899**

Aydındır ki, bütün insanlar ilin günlərinin sayı qədər, yəni, 365 qrupda cəmlənir. Ancaq nəzərə almalıyıq ki, insanın formalaşmasında nəinki günün, hətta saatların, səniyələrin təsiri vardır. Bir məsələni də qeyd etmək gərəkdir, belə ki, 365 günlük dövrülük Yer planetinə aiddir. İnsanın formalaşması isə kainata bağlıdır və orada heç bir dövrülükdən söhbət gedə bilməz. Məsələn, bu formalaşmaya ilin hansı heyvan üstündə təslim olmasından asılı olaraq 12 rəqəmi ilə ifadə olunan bir dövrülük də təsir edəcəkdir. Nəticədə dünyada iki eyni taleli insanın olmayacağını başa düşmək çətin deyildir.

Mənim mənəvi aləmimi yeddi ədəd bir və sonrakı 2; 4; 7; 8-lə iki ədəd 9 rəqəmləri təyin edir. Bircə onu qeyd etməyi lazım bilirəm ki, eyni rəqəmlərin çoxluğu bu və ya digər xüsusiyyətin daha qabarıq üzə çıxacağına dəlalət edir. Yeddi ədəd 1 rəqəmi kamilliyə zəmanət verir. Məsələn, M.F.Dostoyevskidə yeddi və V.Q.Belinskidə səkkiz ədəd 1



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rəqəmi olmuşdur. Bu barədə ətraflı məlumatı rəqəmlər haqqında elmdə (NOMEROLOQİYA) tapa bilərsən.

Beş cildliyin araya-ərsəyə gəlməsində mənə hər hansı cürə köməyi dəymiş bütün insanlara, xüsusən də həm mətn yığan, həm korrektor vəzifəsini yerinə yetirən, həm də redaktor kimi misilsiz zəhmətlərə qatlaşmış Ələsov Rafail İsrayıl oğluna, beş cildi maya dəyərinə çap etmiş «Borçalı» nəşriyyatının baş direktoru Çobanlı Müşfiq Mədəd oğluna, kitablarımın yayılmasında xeyli əziyyət və xərc çəkmiş «Azəriqazbank» Açıq Tipli Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədr müavini Əlizadə Tokay Tahir oğluna II–V cildlərin komyuter yığıcısı (rusdilli olduğu üçün daha artıq əziyyət çəkmiş və əfsuslar ki, diqqətsizlik ucundan II-IV cildlərdə adı və soyadı səhv getmiş) Kərimov Rüfət Əziz oğluna və kitabmlarımı aldığın üçün əziz dost, sənə ən dərin minnətdarlığımı bildirirəm!

Allah amanında, əziz dost! Hər hansı bir yaxşı səbəb üzündən sənin yenidən arzusu ilə, hələlik.

MÜƏLLIF



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MİNACAT

Ey yeganə Yaradan,
Ey ulu Pərvərdiyar!
Belə söyləyirlər ki,
Sənin minbir adın var.
Bu səhər varlığımı
Xoş bir duyğu çulğadı,-
Məhəbbət olmalıdı
Yaradanın ilk adı.
Olmasaydı qəlbində
Sonsuz sevgi, məhəbbət,
Belə zəngin, hüdudsuz
Olardımı təbiət!?
Saya gəlməz ulduzlar,
Göyə zinət Günəş, Ay,
Anamız Yer kürəsi, -
Kainat adlı saray,
Sənin məhəbbətindən
Gəlmədimi meydana?!
Tükənməz sevgin, eşqin
Başlanğıcdı cahana;
Əsrarəngiz dünyamız,
Aqillərə deyil sirr,
Sonsuz məhəbbətinin
Kiçik bir zərrəsidir.
O zərrədən yarandı
Bu qədər canlı varlıq,
Çulğadı yer üzünü
Həyat tək bəxtiyarlıq.
O zərrədən yarandı
Min-min ətirli çiçək,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biri-birindən zərif,
Biri-birindən göyçək.
O zərrədən yarandı
Qarlı, vüqarlı dağlar,
Minbir dərdin dərmanı
Durna gözlü bulaqlar.
O zərrədən yarandı
Yeraltı xəzinələr,
Hər biri ömrümüzə
İşıq ələr, nur ələr.
O durlu nemətləri,
Məgər saymaq olarmı,
Min-min illər barınsaq,
Bitərmi, azalarmı?!
O zərrədən doğulur
Hər gün nə qədər insan,
Yer üzünün şöhrəti,
Bu cahana şərəf, şan.
O zərrədən yaranıb,
İnsanlıq, şüur, idrak,
Sənə bağlı qalanda
Müqəddəsdi, pakdı, pak.
Şeytana yön çevirsə
Tutqunlaşır xəyalı,
Nifrətlə çulğalaşıb,
Olur cəhənnəm malı.
Şeytanla dostluq edən,
Nifrətlə yüklənən kəs,
Yalnız sökər, dağıdar,
Heç vaxt yarada bilməz.
Sənli olan hər kəsə
Pak eşqindən düşür pay,
Qəlbi, ruhu durulur,
Olur nurlu bir saray.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eşqindən pay alanlar
Çevrilir mələklərə,
Yer verir ürəyində
Müqəddəs diləklərə.
Eşqinin şəfəqinə
Boyanan hər bir insan.
O qədər ucalır ki,
Dönüb olur yaradan.
Çevrilir köməkçinə
Yer üzündə hər biri;
Daha da abadlaşır,
Azalır kəm-kəsiri.
Günəşdən tez oyanan
Üzü nurlu o bağban,
Yaratmaq eşqi ilə
Ömr eləyir hər zaman.
Daha da gözəlləşib
Bağındakı çiçək, gül,
Daha şaqraq oxuyur
Qoynunda şeyda bülbül.
Bu mühəndis eşqinlə
Qanad verib insana,
Sənə yaxın olmaqçın
Ucalır asimana.
O tərəfdə memarlar
Qurur rahat saraylar;
Daha mənalı keçsin
Qoynunda günlər, aylar.
Odur, orda başqası
Səhraya kanal çəkir,
Səhra cənnət olacaq,
Yoxdu burda özgə sirr.
Neçə köməkçin varsa
O qədər xoş əməl var,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Günlərimiz gələcək,
Bir-birindən bəxtiyar.
Sənin eşqin heç zaman
Bitib-tükənən deyil;
Odur ki, könlüm deyir
Həyat əbədidir, bil!

*****

Yerə, göyə, kainata
Şərəf-şansan, Yaradanım!
Səbəbkarsan bu həyata,
Canda cansan, Yaradanım!

Dilimdə xoş sözüm sənsən,
Görən iki gözüm sənsən.
Ürəyimdə közüm sənsən,-
Tək sultansan, Yaradanım!

Pənah Göyçə sənə heyran,
Bir zərrəndi candakı can.
Varlığımda hər gün, hər an
Axan qansan, Yaradanım!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# NƏT

Son dəfə qələmi alıram ələ;
Qarışıb könlümdə sevinc nisgilə.
Axı, hazırlanır beşinci kitab;
Mübarək adına sonuncu xitab
Durulub qəlbimdə səcdənə gəlir,
Qələmim sevinclə durub müntəzir.
Ey ulu Məhəmməd, ey müqəddəs Zat,
Ey adı cahanda ən sevimli ad!
Sənin doğulduğun mübarək gündən,
Aləmi çulğayan toydan, düyündən,
Yerdəki, göydəki o ehtişamdan,
Qızıl dan yerindən, xoşbəxt axşamdan,
İstərəm söz açım ürək dolusu,
Çevrilsin sözlərə könlün duyğusu.
On dörd əsrdir ki, nə qədər şair,
Qələm işlədibdi o günə dair.
Şəksiz, hər zamanın öz sözü vardır,
Bu mövzu həmişə bir ilk bahardır.
Asan ələ gəlmir ancaq niyyətim,
Çox zaman gecikmək olub qismətim;
Bu gün söz mülkünün dərilib barı,
Nizami Zöhrabi[1] seçib onları.
Qismət qane etsin gərək insanı,
Alıb uralayım yerdə qalanı.
Doğuldun cahana Günəşlə qoşa,
O gün qoşa Günəş verdi baş-başa.
Günəş sən Günəşi salamlayırdı,
Aləmə sevinclə şəfəq yayırdı.
Artmışdı cahanın nuru neçə qat,

[1] Nizami Zöhrabinin «Məkkədən doğan günəş» əsərinə işarədir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Füsunkar bir libas geymişdi həyat.
Səs-səsə vermişdi nəğməli quşlar,
Hər biri eşqini edirdi izhar.
Çəmənə gəlmişdi özgə təravət,
Nərgizlər, süsənlər sanki bir afət
Mehə könül verib rəqs edirdilər;
Hər tərəf füsunkar, hər gül təzə, tər.
Alışıb yanırdı lalə yanağı,
Bütün qönçələrin qaçmış dodağı
Deyirdi, möcüzə doğacağam mən,
Minbir rəngli idi o səhər çəmən.
Üzürdü səmada tək-tək buludlar,
Yerə məhəbbətlə baxırdı onlar,
Çiləndi onlardan sevinc yaşları,
Rafael o anı çəkəydi barı.
Yuyundu, darandı hər gül, hər çiçək,
Oldular daha da təzə-tər, qəşəng.
Sənə boylanırdı günəbaxanlar,
Varlıq yaşayırdı ən şirin anlar.
Cahan görməmişdi belə bir səhər,
Sevincdən məst idi yerlər və göylər.
Üfüqə enmişdi bir qövsi-qüzeh,
Minbir ətirliydi əsən sərin meh.
Yatmış gözəlliklər oyandı o gün,
Səadət rənginə boyandı o gün.
Enmişdi dünyaya əmin-amanlıq,
İtib yox olmuşdu pislik, yamanlıq.
Yox idi qovulan, yox idi əsir,
Qoşa dayanmışdı ceyran ilə şir.
Cahan yaşayırdı möcüzə bir gün,
Hər bir an gəlirdi daha da üstün.
Batmaq istəmirdi o axşam Günəş;
Tək qalmasın deyə yerdəki Atəş.
Doğuldu o axşam ondörd günlük Ay,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başında ulduzlar qurmuşdu halay.
Yerə məhəbbətlə baxırdı onlar,
Onların hər biri seçdi Səni yar.
Sehrlə, əfsunla doluydu hər yan,
O gün gecəyə də vuruldu cahan.

Səninlə cahana gəlibdi bahar,
Nəbilər nəbisi sənsən, Məhəmməd!
El sevinc, səadət, ədalət arar,
Onların cəminə tənsən, Məhəmməd!

Beyinlərdən çəni Sən siləcəksən,
Axı, möcüzənə yoxdu gələn tən.
Əbədiyyət adlı bir gələcəksən,
Həyatda ən sağlam dənsən, Məhəmməd!

Bir zaman vardı ki, komsomol idim,
Heçliyə yönəlmiş misgin yol idim.
Pənah, xəzan vurmuş sısqa kol idim,
Həyata qaytardın Sən, Sən, Məhəmməd!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GƏRAYLILAR



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## YARADANIM

Sənin sonsuz kəreminə
Şükür olsun, Yaradanım!
Qoy tuş gəlsin lənətlərə
Şeytan solsun, Yaradanım!

Bəşər dərk etsin özünü,
Açsın bəsirət gözünü.
Tutub mələklər izini,
Düz yol alsın, Yaradanım!

İnsan oğlu qoy nəhayət,
Yaxşılığı etsin adət.
Səni sevmək olsun niyyət,
Eşqə dolsun, Yaradanım!

Elə et ki, yazıq Pənah,
Eyləməsin daha günah.
Bəxş et ona nurlu sabah, -
Zəfər çalsın, Yaradanım!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BU CAN

Ya Rəbb, necə xəlq etmisən,
Belə təzə-tərdi bu can?!
Bütün elin sevincidi,
Dillərdə əzbərdi bu can.

Ara, axtar, cahanı gəz,
Yoxdu ona tay, ya əvəz.
Heç bir sərraf seçə bilməz
İncidi, gövhərdi bu can?!

Pənah üçün baş diləkdi,
Bu gün, sabah, gələcəkdi.
Ya huridi, ya məl追kdi,
Kim deyər bəşərdi bu can?!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# YAZ GƏLİR

***Rafail Ələsova***

Kərəminə şükür Tanrı,
Yenə yaz gəlir, yaz gəlir.
Daha çəkmir intizarı
Sinə, yaz gəlir, yaz gəlir.

Darıxıbdı bel, dəyraz, xış,
Həyat, sənə min-min alqış.
Kimə isə bəlkə də qış,
Mənə yaz gəlir, yaz gəlir.

Pənah Göyçə, gəl olma xam,
Özün yandır bəxtinə şam;
Mümkün deyil, indi ilham
Sönə, yaz gəlir, yaz gəlir.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ŞÜŞƏDƏNDİ

Adam var ki, götüyə tən,
Adam var ki, gülbədəndi.
Adam var ki, mələk kimi
Adam var ki, meşədəndi.

Ürək var ki, əriməz qar,
Ürək var ki, həmşəbahar!
Əntiq şeyin ustası var,
Sənətdəndi, peşədəndi.

Gül qoynuna girməsin xar,
Meydanını tanısın sar.
İnsaf edin, ey insanlar,
Pənah qəlbi şüşədəndi.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# CAN ATIRIQ

Məhəbbətdən yaranmışıq,
Məhəbbətə can atırıq.
Odur mayak, odur işıq, -
Səadətə can atırıq.

Duyğuların gözəlinə,
Arzuların əzəlinə,
İnsanlığın təməlinə,
Sədaqətə can atırıq.

Bilir Pənah, bilir cahan
Haqq yolunda qoymuşuq can.
Türk oğluyuq, hər bir zaman
Xoş niyyətə can atırıq.

**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QƏLBİMDƏSƏN

***Mahnı mətni***

Ay, gözəldən gözəl,
Eşqimdə tək, əzəl,
Hə de, insafa gəl,
Dağılsın duman, çən.

Mehə dönüb əsdim,
Görüşə tələsdim,
Əvvəl quru səsdim,
Olmuşam şaha tən.

Elimin ceyranı
Aşiqinəm, tanı.
Sənə bir tay hanı
Hurisən, mələksən.

Həyat gözəl olar,
Əğyar xəzəl olar,
Vüsal əzəl olar,
Mənə könül versən.

Xöşbəxt et Pənahı,
Açılsın sabahı,
Ay könlümün şahı
Bil ki qəlbimdəsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# KEÇİR

Bu da belə bir zamandı,
Cüvəllağı başa keçir,
Həqiqətin bağrı qandı,
Yalan qoşa-qoşa keçir.

Namərd mərdi salır dərdə,
Vurub yıxır, vurur bir də.
Tülkülər bəy olan yerdə
Şirin işi daşa keçir.

Var-dövləti olduqca çox
Sızıldayır yenə də tox.
Ürək deyən həqiqət yox
Dil söyləyən «yaşa» keçir.

Açılmamış sirri qat-qat,
Niyə geri dönür həyat?
Qurular qalır salamat
Od bir başa yaşa keçir.

Ay Pənah, yalan düzülməz,
Düzlər nəzilər, - üzülməz!
Dədə Qorqud, gəl özün gəz;
Bu məsəl də boşa keçir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GEDİR

***S.Vurğuna***

Aman Allah, yetişdi qış,
Ömür nə tez keçib gedir.
Zaman onu ovxarlanmış
Oraq kimi biçib gedir.

Kimi tapır şöhrət və zər,
Kimi alır qüssə, kədər.
Kimi xəyal, kimi zəhər,
Kimi şərbət içib gedir.

Adam da var, bu dünyada
Pərvanə tək yanır oda.
Ömür adlı tamaşada
Özü tale seçib gedir.

Beləri el həmdəmi,
Verir sevinc, qovur qəmi.
Köçəndə də Vurğun kimi
El qəlbinə köçüb gedir.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DÜNYA HƏLƏ KAMİL DEYİL

Dünya kamil deyil hələ,
Güclü əzir gücsüzləri;
Belə olub, gedir belə,
Milyon-milyon ildən bəri.

Yağılara versək aman,
Öz halımız olar yaman.
Əzməyincə, bil ki, bir an
Dinc dayanmaz o sərsəri.

Qanadımız sınasıdı,
El od tutub yanasıdı,
Həyat tamam donasıdı
Bircə addım dursaq geri.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ƏDALƏTƏ ÇATASIYAM

Arxayın ol, ana vətən,
Səni möhkəm tutasıyam.
Həyat eşqli qəlbimi mən
Bir ox edib atasıyam.

Min-min yağı yığılsa da,
Göydən güllə sağılsa da,
Dünya tamam dağılsa da
Ədalətə çatasıyam.

Bilsin aləm, bilsin ellər,
Gələsidi nurlu səhər.
Pənah, qurban getsəm əgər,
Xöşbəxt olub yatasıyam.




**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GƏLİR

Çulğalayır bizi duman,
Üstümüzə dəhşət gəlir.
Bir yırtıcı vəhşi heyvan,
Faşist adlı xislət gəlir.

Düşmənidi ədalətin,
Mayasıdı xəyanətin.
Xoşla başa salmaq çətin,
Kin-küdurət, nifrət gəlir.

Salasıdı dağa, düzə,
Pənah, aman yoxdu bizə;
Duymasaq ki qəlbimizə
Dözüm gəlir, qeyrət gəlir.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GÜNƏŞ DOĞASIDI

Hər geçənin gündüzü var,
Yenə Günəş doğasıdı;
Belə olub Haqdan qərar,
Qaranlığı boğasıdı.

Koroğlular gələsidi,
Yağılara güləsidi.
Yad yerini biləsidi,
Öz qınına sığasıdı.

Saçlarına düşsə də dən,
Pənah cavan qalıb qəlbən;
Qələm alıb o günlərdən
Minbir nəğmə sağasıdı.



**1111111247899**

**(11.12.1940)**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

## UNUDULMUR

Ayariflər, bu nə hikmət,
Ötən çağlar unudulmur.
Nə xöşbəxtlik, nə səadət,
Nə də dağlar unudulmur.

Ayrı düşdüm doğma yurddan,
O gün bağrım oldu şan-şan.
Çiçəkləri əlvan-əlvan
Uca dağlar unudulmur.

Vətən nədir, bilir xilqət,
O zaman ki, çəkir qürbət.
Anam Göyçə, sənə şöhrət
Buz bulaqlar unudulmur.

Bülbül sussa gül nə dinlər?..
El köçəndə yurdu inlər.
Nə qeyrətli qoç ərənlər,
Nə qorxaqlar unudulmur.

Ay Ələsgər, Alı, İman,
Sizi sevir bütün cahan!
Pənah Göyçə, heç bir zaman
Eşqi sağlar unudulmur!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## YAĞILARI QIRAQ

Yetişibdi qeyrət dəmi,
İşə düşsün silah, yaraq!
Vətən adlı anamızın
Keşiyində qalxıb duraq!

Cərgə-cərgə, qatar-qatar
Qaqqıldasın avtomatlar.
Nərildəsin polad atlar,
Yağıları qıraq, qıraq!

İşə düşsün qılınc, nizə,
Yer qalmayıb özgə sözə. –
Hər gün, hər an elimizə
Qələbədən versin soraq!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## TÖKÜLMƏ SAÇIM

Mən güzgüyə necə baxım,
Tökülmə saçım, tökülmə!
Yağıları necə yaxım,
Tökülmə saçım, tökülmə!

Şimşək kimi çaxammıram,
Sellər kimi axammıram,
Gözəllərə baxammıram,
Tökülmə saçım, tökülmə!

Sən Pənaha yağı olma,
Qış gəlməmiş vaxtsız solma.
Gəl karımı dərdə salma,
Tökülmə saçım, tökülmə!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## KÖÇƏSİDİ

Bu qaydadı, meyvə dərən
Yaxşısını seçəsidi.
Əgər zəmi yetişibsə
Sahibi var, biçəsidi.

Fani bilmə bu aləmi,
Necə tutsan odur çəmi.
Aşiq seçib dərdi, qəmi
Şərbət kimi içəsidi.

Gəzirsənsə düz ilqarı,
Axtar Pənah Atatarı[2].
Ömrü çoxdan olub yarı
Bu gün-sabah köçəsidi.



**1111111247899**

**(11.12.1940)**

[2] * Həm də ixtiraçılıqla məşğul olan Pənah Göyçənin tar üzərində apardığı elmi axtarışlar nəticəsində bu alətin səs imkanlarının artırılması, ömrünün uzadılması və müxtəlif zərbələrə qarşı davamlılığının güclənməsi ilə əlaqədar qazandığı nailiyyətlərinə işarədir.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# TARIM MƏNİM

Dədə Qorqud yadigarı,
Türk elinin iftixarı,
Simlilərin səbəbkarı,-
Şan-şöhrətim, varım mənim,
Tarım mənim!

Şahnazımsan, Segahımsan,
Həm sevincim, həm ahımsan.
Dünənimsən, sabahımsan,
Əbədi baharım mənim,
Tarım mənim!

Məhəbbətə səsləyənsən,
Sədaqətə səsləyənsən,
Səadətə səsləyənsən,
Əhdə düz ilqarım mənim,
Tanrım mənim!

Azad edək Qarabağı,
Öz payını alsın yağı.
Tərənnüm et o növrağı,
Qadir bəstəkarım mənim,
Tanrım mənim!

Sən Pənahın gərəyisən,
Halal duzu, çörəyisən.
Ruhu, canı, ürəyisən
Ay həmdəmim, yarım mənim,
Tanrım mənim,
Tanrım mənim!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÇAĞLA, KAMAN

Xoş diləklə, saf ülfətlə,
Çağla, kaman, çağla, kaman!
Məni eşqə, məhəbbətə,
Bağla, kaman, bağla, kaman!

Dindir ölməz nəğmələri,
Feyziyab et hər bəşəri.
Nadanları, nakəsləri
Dağla, kaman, dağla, kaman!

Səkkiz dərdin əlac tapdı,
Türklük idi, türk də yapdı.
Bir misilsiz inqilabdı,
Bunu yadda saxla, kaman!

Qəlbin təmiz, eşqin sağdır,
Bu sayaq da qalacaqdır.
Baş dərdinsə Qarabağdır,
Ağla, kaman, ağla, kaman!

Birdəfəlik qovdu çəni,
Pənah Göyçə qurdu səni.
Olmayıbdı, yox, erməni,
Ürəyindən oxla, kaman!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AY MƏNİM İLHAM PƏRİM

İlkimsən, birincimsən,
Şadlığım, sevincimsən,
Mirvarimsən, incimsən,
Nadir ləlim, gövhərim,
Ay mənim ilham pərim!

Gen dolanma, gəl bizə,
Hey dayanaq üz-üzə,
Qoy toxunsun diz-dizə,
Sənli gəlsin səhərim,
Ay mənim ilham pərim!

Sən ümdəsən, əzəlsən,
Hər gözəldən gözəlsən.
Bir gün görsəm xəzəlsən,
Sönər göydə ülkərim,
Ay mənim ilham pərim!

Əsla qayğılı gəzmə,
Püstə dodağı büzmə,
Məndən ülfəti üzmə,
Səndən sağılır zərim,
Ay mənim ilham pərim!

Qıyma dumanda azım.
Kökdən düşməsin sazım.
Gəlməsən necə yazım,
Yoxdu özgə dilbərim,
Ay mənim ilham pərim!

Gəl ki, eynim açılsın,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəm hasarı uçulsun,
Təbimdən nur saçılsın,
Artsın barım, bəhərim,
Ay mənim ilham pərim!

Sən Pənahın özüsən,
Ürəyisən, gözüsən,
Alovusan, közüsən.
Sənsiz heçlikdi yerim,
Ay mənim ilham pərim,
Ay mənim ilham pərim!



**1111111247899**
**(11.12.1940)**



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## YAZIQ

Çıxıb şehli çəmənə
Çiçək dərməyən, - yazıq.
Əlvan-əlvan güllərdən
Çələng hörməyən, - yazıq.

Bəxt yar olur insana,
Qonaq gəlir cahana;
Həyat adlı ümmana
Qorxub girməyən, - yazıq.

Ağıl ilə hesab çək,
Yanıb saflaşır ürək;
Tanrıya xoş gələn tək,
Ömür sürməyən, - yazıq.

Günəş kimi çılpağam,
Günəş qədər parlağam,
Göz önündə bir dağam,
Məni görməyən, - yazıq.

Ay Pənah, yetiş hoya,
Düşsən də oda, suya;
Elə gələn bəlaya
Sinə gərməyən, - yazıq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QONAQ

Əzəl gündən elimizdə
Ən əziz insandı qonaq.
Xoş diləkdi dilimizə,
Hər evdə sultandı qonaq.

Onunkudu şüx mütəkkə,
Yuxarı baş, dadlı tikə.
Toxunmasın bir təhlükə,-
Candan şirin candı qonaq.

Görəndə ki, qoşa gəlir,
Ürəyimiz cuşa gəlir.
Hər kim olsa xoşa gəlir,
Pənah, şərəf-şandı qonaq.



**1111111247899**

**(11.12.1940)**

**BU ÇEK**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər bir evdə söhbəti var,
Soxulmayıb hara bu çek?
Kim bilir nə xisləti var,
Ağdı, yoxsa qara, bu çek?!

Hamı ona göz yetirir,
Ya qazanır, ya itirir.
Birinə ağ gün gətirir
Yüz birinə qara bu çek.

Gizlindədi soyu, zatı,
Çox çətindi hesabatı.
Gör nə qədər məxluqatı,
Eyləyib avara bu çek.

Yaxşı olur, bir an olur,
Aylar ilə yaman olur.
Gah görürsən canan olur,
Gah dönür əğyara bu çek.

Hesabında hələ il var,
Məzhəkəsi çoxdu, bil, var.
Nadan olan, onu sil, var, -
Sürükləyir dara bu çek.

Hər kim ona canan olub,
Bax, ürəyi şan-şan olub.
Gün olub üç «şirvan» olub,
Bir gün çıxar hara, bu çek!

Pənah Göyçə söz qanana,
Yol qanana, iz qanana,
Xislətini düz qanana,
Dönər bir gün bara, bu çek!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VAY HALINA

Qanmaz hara, dərd hara,
Qananın vay halına.
Əzablı ərzi cənnət
Sananın vay halına.

El üçün ağlayanlar,
El deyir, gözdən olar.
O sayaq edib ah-zar
Yananın vay halına.

Boyun əyib qaç-qova,
Pənah qurmayıb yuva;
Qurdlar çıxıbdı ova
Dananın vay halına.





**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DEYİŞMƏ

**OĞLAN**

İcazə ver cənnətsayaq
Bağçanıza gəlim, ay qız.
O güllərin, çiçəklərin
Ətri nədir, bilim, ay qız.

**QIZ**

Sən aşıqsan, azma yolu,
Biz tərəfə gəlmə, oğlan.
Nə rəngdədi çiçəklərim
Haqqın yoxdu, bilmə, oğlan.

**OĞLAN**

Hüsnünə bəd baxan solsun,
Yaradan xoş nəzər salsın.
Qoy sevimcim sənin olsun,
Kədərini bölüm, ay qız.

**QIZ**

İsinməsən istisindən,
Gözdən olma tüstüsündən...
Ləzzətini çəkməsən tən,
Zülmünü də bölmə, oğlan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**OĞLAN**

Səni görcək qəlbim əsir,
Bu nə hikmət, de, bu nə sirr.
Heç olmasa icazə ver,
Kandarında ölüm, ay qız.

**QIZ**

Ömrü bica vermə bada,
Yar yolunda get ol fəda.
Çoxdu gözəl bu dünyada,
Vüsal gözlə, ölmə, oğlan.





**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QOŞMALAR



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MƏHƏBBƏT

Tanrı ziyasıdı, tanrı nurudu,
Hüdudsuz göylərdən enir məhəbbət.
O, Aydan arıdı, sudan durudu,
Təmiz ürəklərdə dinir məhəbbət.

Bir yanı vüsaldı, bir yanı hicran,
Onun bəhrəsidi hər qəmli dastan.
Gah sevinc gətirir, gah verir fəğan,
O aydın məhəbbət, o sirr məhəbbət.

Tufandan güclüdü, seldən güclüdü,
Arazdan güclüdü, Nildən güclüdü.
Onunla hər quzu fildən güclüdü,
Önünə nə çıxsa yenir məhəbbət.

Onunla yaşamaq şərəf-şan olur,
Onlu ötən ömür bir dastan olur.
Dünya gözümüzdə çıraqban olur,
Elə ki atını minir məhəbbət.

Ay Pənah, onu da bilirəm ki mən,
Gül də bülbül ilə gəlməlidir tən.
Nadan baxışından, yad nəfəsindən
Şam kimi titrəyib sönür məhəbbət.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MƏHƏBBƏT

Ərzin hər sirrinə yol tapan insan,
Bilmir ki, nə sayaq gəlir məhəbət.
Bir çiçəyə dönüb, çatanda zaman,
Daşın da köksünü dəlir məhəbbət.

Onsuz ürəkləri alır duman, çən,
Qaraca bir daşa dönüb olur tən,
Həyatın min cürə səadətindən
Hər kəsin payını bölür məhəbbət.

Onun camalından nur alır cahan,
Onun sayəsində dolanır dövran.
Belədir, belə də olacaq hər an,
Ay Pənah, kim deyir ölür məhəbbət?!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SÖNMƏYƏK

Eşqin göylərinə gəl qoşa uçaq,
Hey yüksələk, hey yüksələk, enməyək.
Ordan yer üzünə al şəfəq saçaq,
Hər gün daha nurlu olaq, sönməyək.

Həmdəm kəslər dayananda üz-üzə,
Şirinləşir, hey calanır söz-sözə.
Ömür boyu biz dayanaq göz-gözə,
Söz artıqdı, danışmayaq, dinməyək.

Sevda dedikləri vuranda başa
Nə kimliyə baxır, nə də ki yaşa.
Əgər ürəyimiz vurursa qoşa
Niyə bəxt atına birgə minməyək?

Sevən kəslər hər cəhətdən olsa tən
Sevda yolu tanımazdı duman, çən.
Geriyə yol - yol deyildir əzəldən,
Düz yol tutaq, başa gedək, dönməyək.

Pənah, sevda könül versə insana,
Gərək layiqincə alışa, yana.
Qarşı gedək qasırğaya, tufana,
Daldalanıb bir bucaqda sinməyək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MƏNİM

Eşq yolunda çətin sınam, əyiləm,
Göz tikməsin gül baxçama xar mənim.
Qaynasam da qarışası deyiləm,
Dolanmasın ətrafımda sar mənim.

Ömrün neçə tufanından keçmişəm,
Bəs deyincə zəhərindən içmişəm.
Xislətimdi, bir dəfəlik seçmişəm
Qeyrət mənim, namus mənim, ar mənim.

Köklənmişəm səadətin eşqinə,
Etibarın, məhəbbətin eşqinə.
Dəyanətin, sədaqətin eşqinə
Tükənməyən nəğmələrim var mənim.

Məcnun, Fərhad qoyubdu can bu yolda.
Nə çəkmədi Kərəm, Sənan bu yolda?
Qəbulumdu, olsun hər an bu yolda
Boran mənim, şaxta mənim, qar mənim.

Ömür boyu sorağında gəzmişəm,
Hicranında çalxanmışam, üzmüşəm.
Həsrətinə mərd-mərdanə dözmüşəm,
Anmasa da əhvalımı yar mənim.

Tarix boyu sınanıbdı, bilir el
Aşiqlərdə həmahəngdi könül, dil.
Ürəyimə köklənibdi elə bil
Tütək mənim, kaman mənim, tar mənim.
Eşq üstündə qurulubdu asiman,
Məhəbbətdən nurlanıbdı asiman.
Necə olsa yar yaşayan bu cahan
Pənah, gəlməz varlığıma dar mənim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ANAMIN

Odur qibləgahım, ziyarətgahım,
Günəşdən nurludu üzü anamın.
Dünənim, bu günüm, aydın sabahım,
İşıqlı dünyamdı özü anamın.
Şan-şöhrətim, adım, sanım onundu,
Damarımda axan qanım onundu.
Varlığım onundu, canım onundu;
Hər anımda vardır izi anamın.

Gümrah görmək üçün bizləri hər an
Kəsdi qətrə-qətrə iqtidarından.
Məni bu dünyanın hər azarından
Saxlayır duası, sözü anamın.

Yurdun bəd günündə bərəkət əkdi,
Araba yüklədi, kərənti çəkdi.
Bu günü çiynində daşıdı, tikdi,
Bir an qatlanmadı dizi anamın.

Pöhrələr artdıqca sağı-solunda
El nəbzi duyuram onun qolunda.
Bir qardaş itirib vətən yolunda
Yığılmır yolardan gözü anamın.

Ömrümü calaya bilsəm ömrünə
Sanardım ki, borclu qalmışam yenə.
Bir deyil, min ömür bəs edər mənə
Qəlbimə yığılan gözü anamın.
Anadı dünyanın baş vətəndaşı,
Ən uca zirvədən ucadı başı.
Pənaham, arzumdu, görüm ki yaşı,
Gümrahlıqla keçib yüzü anamın.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# BİR DƏFƏ

Ay Pənahın sevdiciyi, bəri bax,
Hicranı qəlbimdən silim bir dəfə.
Bircə yol da gəl yaxından yandır, yax,
Sevinim bir dəfə, gülüm bir dəfə.

Gülüş rövnəq verir hər bir insana,
Sən güləndə nur çilənir cahana.
Baxışların meh gətirsin bu yana,
Yan keçsin könlümdən zülüm bir dəfə.

Aşiq olan dünya malı istəməz,
Hicrandan, həsrətdən doymuşam deməz.
Bir «gəl» söylə, dəhanında şəkər əz,
Vallah bircə dəfə, gülüm, bir dəfə.

Oyan bəxtim, ömür boyu yuxlama,
Məni yardan belə uzaq saxlama.
Ay sevimlim, sən də dayan, oxlama,
Oxşasın əlini əlim bir dəfə.

Xəyallar  yaşadır vurğun olanı,
Şirin arzuların axırı hanı?!
Öpüb oxşamağa tər şamamanı,
Sizin baxçanıza gəlim bir dəfə.
Ürəyim dözümü arzudan alır,
Vüsal bir xəyaldı, xəyal da qalır.
Demə ki, «iştahan yaman çoxalır»,
Qoy əmsin dilini dilim bir dəfə.
Könlümü verəndən sən tək afətə,
Əbədi yetmişəm mən səadətə.
Ruhum ölməz olar, düşər cənnətə
Tapsam kəndarında ölüm bir dəfə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GÖZƏLLƏŞDİRİB

Nəyə bənzəyərdi sənsiz bu cahan?!
Gəlişin dünyanı gözəlləşdirib!
Yəqin ki yerində sayardı zaman,
Gülüşün hər yanı gözəlləşdirib!

İnsan olmaq üçün sinədə gərək
Yurd salsın saf arzu, müqəddəs dilək.
Gözlər şəfəq saçır sevirsə ürək,
Məhəbbət insanı gözəlləşdirib!

Mənə elə gəlir, hər sökülən dan
Qızarmaq öyrənir yanaqlarından.
Çiçəklər rəng umur dodaqlarından,
Varlığın hər yanı gözəlləşdirib!

Gecəli, gündüzlü sənlisə xəyal
Necə yaxın düşər könlümə məlal?!
Hüsnündən nurlanıb göydəki Hilal
Bütün kəhkəşanı gözəlləşdirib!

Necə deyim şəfəq salma heç yana;
Pənah istər həm də baxasan ona.
Həsrətindən dən çilənir saçıma,
Bir ağ yüz qaranı gözəlləşdirib!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## NƏ VAR

Məhəbbətsiz ömür can çəkişməsi,
Yar yolunda qurban olmağa nə var?!
Gərək ürək isindirsin hər kəsi,
Öz-özünə işıq salmağa nə var?!

Kim qorudu eşqi, andı yaşadı,
Sənan öz dinini dandı, yaşadı,
Kərəm alovlara yandı, yaşadı,
Dərd çəkib, saralıb solmağa nə var?!

Həyatda düzlüyü seçənlər ərdi,
Acılı, şirinli içənlər ərdi!
Daşlı yollarından keçənlər ərdi,
Şirin xəyallara dalmağa nə var?!

Soruşmaq asandı, «həqiqət hanı?»
Hünərin var yarat, bəzə dünyanı.
Loğman əməyiylə duydu dünyanı,
Diplomla «kamala» dolmağa nə var?!

Gündə bir sevdaya düşürsə ürək
Arzular saxtadı, saf deyil dilək.
Pənah, hicranı da duyasan gərək,
Vüsalla qol-boyun olmağa nə var?!



**1111111247899**

**(11.12.1940)**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# OLUR, OLSUN

Məhəbbətdən payım, «Səməndər kimi
Əbədi odlara «yan» olur, olsun.
Könül rübabımın inləsin simi,
Ürəyimdən sızan qan olur, olsun.

Təbiətin qüdrətinə min alqış,
Sevən qəlbə yazmayıbdı xəzan, qış.
Ehsan et uzaqdan gizli bir baxış
O da ki, razıyam, an olur, olsun.

Elə ki, mehriban gözlərin gülər,
Bütün kainata al şəfəq çilər.
Mənim alacağım quru vədələr,
Verəcəyim şirin can olur, olsun.

Hicrandı Pənahın payı, qisməti;
Özü diləyibdi bu səadəti.
Nəğmələrə dönsün qoy məhəbbəti
O da sənə şöhrət-şan olur, olsun.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BİLDİM

Vətən ürəyimdi, vətən canımdı, -
Vətəndən uzaqda qalanda bildim.
Dost kimdi, nəçidi, - hicran bitəndə,
Qolumu boynuna salanda bildim!

Bağban əzizləyər hər əkdiyini,
Quş da sığallayır öz tikdiyini.
Atamın, anamın nə çəkdiyini,
Oğul-qız payımı alanda bildim.

Fəsillər dolanır, tamamlanır il,
Cahanda heç bir şey səbəbsiz deyil!
Qəlbin duyduğunu izhar edir dil,
Bunu Pənah Göyçə olanda bildim.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BİLMİRƏM

Bu ağır zəmanə, bu qanlı fələk,
Niyə mənnən getmir yola bilmirəm.
Can dediyim mənə sırıyır kələk,
Sağa baxım, yoxsa, sola bilmirəm.

Dünyanın çiyninə olmamışam yük.
Böyüklə böyüyəm, kiçiklə kiçik.
Qananlar yanında başım olub dik,
Qanmaz ilə qanmaz ola bilmirəm.

İnsandı cahana şöhrət də, şan da,
Odur dünyasına sultan da, xan da.
Ay Pənah, ağ günə əli çatanda,
O niyə yönəlib dala, bilmirəm.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BƏXT

Ömür birdi, yazı, yayı yatmısan,
Heç olmasa payızında oyan, bəxt!
Elə bu gün, söküləndə qızıl dan,
Mənim ilə yar yolunda dayan, bəxt!

O sallanıb xəyal kimi gələndə,
Yer üzündən hər möhnəti siləndə,
Ala gözlər oğrun baxıb güləndə
Şöləsindən al şəfəqə boyan, bəxt!

Məhəbbətdən uzaqdısa əgər can
Min yaşasa – yaşamadı bircə an.
Şöhrətdən də, sərvətdən də gen dayan,
Deməsinlər, vecsiz işə uyan, bəxt!

Leylini an, Məcnunu sal yadına,
Çələng hörək məhəbbətin adına.
Qoşa yanaq bu sevdanın oduna
Onsuz hanı bu dünyanı duyan, bəxt!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QIZLAR

Onlarla döyünür hər duyan ürək,
Eşqə, səadətə binadı qızlar.
Bu gün yer üzündə ən zərif çiçək,
Sabahsa müqəddəs anadı qızlar.

Onlara göz qoyub baxıram hərdən,
Həyalı üzünü qaldırmaz yerdən.
On dörddə gül kimi açıldı birdən,
On beşdə telini sanadı qızlar.

Onlara vurğunluq yaşadır eli;
Hər biri Leylidən daha qəmzəli.
Eşqini gizlədib demədi, «bəli»,
Məcnunam deyəni sınadı qızlar.

Yenə çiçək kimi yayılın düzə,
Sizlərə baxdıqca nur gəlir gözə.
Dünən bir duyğusuz söz atdı sizə,
Ürəyimin başı qanadı, qızlar!

Siz gəzən yerlərə mən necə gəlim?
Yaş ötüb, sizlərdən üzülüb əlim.
Birinizdən ötrü çırpındı könlüm,
Ağlım ürəyimi qınadı, qızlar!)

Onlardı məkkəsi şerin, sənətin,
Onlarsız yaratmaq çətindi, çətin.
Pənah, tək sənin yox, bütün xilqətin
Könlünün gölündə sonadı qızlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DÜŞÜR

Bir qaydadı, asan deyil ucalıq;
Zirvələrə şaxta, boran, çən düşür.
Əhli-dili tez haqlayır qocalıq,
Cavan ikən saçlarına dən düşür.

Həsrətinlə yenə qəlbim silədi;
Nə vaxt könlüm bir özgə şey dilədi?
Məhəbbətdə çoxdan qayda belədi –
Candan sevən sevdiyindən gen düşür.

Pənah, niyə ətəkdəsən hələ sən?
Tufandımı hər kükrəyən, hər əsən?
Bəs ədalət hara baxır görəsən,
Xar gül ilə qucaqlaşıb tən düşür?!



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DÜŞÜB

Vurğun yaranmışam nurlu Günəşə,
Qismətimə duman düşüb, çən düşüb.
Sən də saldın həsrət adlı atəşə,
Qəbulumdu, sevinc, kədər tən düşüb.

Hicran yazdın, dedin «sevda bil nədi»;
Lap ömürlük olsun, gülüm, il nədi?!
Duymayana tikan nədi, gül nədi,
Görürsən laləli bir çəmən düşüb.

Bir atalar sözü yetişir dada;
Bal çox olsa qətran dadar dünyada.
Sevirəm dostları həddən ziyada,
O səbəbdən onlar məndən gen düşüb.

Vüsal nəğməsini çalmasan da sən,
Bircə yol mehmanım olmasan da sən,
Məni heç eyninə almasan da sən
Şükr olsun ki, qismətimə sən düşüb.

Pənah, çağla, səsin çatsın hər yana,
Həmdəm olsun məhəbbəti duyana.
Sən ki, təzə göz açırsan cahana,
Nədən belə saçlarına dən düşüb?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## KÖZƏ DÜŞDÜ

Olub keçənləri xəyala daldım,
Ürək közə düşdü, dil közə düşdü.
Bir anın içində solub saraldım,
Elə bil ki çiçək, gül közə düşdü.

Könlümü açandan o sərvinaza
Bütün fəsillərim çevrilib yaza.
Bu eşqi söylədim sədəfli saza,
Kükrədi, çağladı, tel közə düşdü.

Sevda yollarının açılmır donu,
Əcəl, yaxın gəlmə görməsəm onu.
Həsrətin, hicranın olmazmı sonu?!
Həftə közə düşdü, il közə düşdü.

İnanma ki Kərəm mənim tək yana;
Varlığım çevrilib aha, amana.
Könlümün gölündən uçubdu sona,
Tezliklə quruyar, göl közə düşdü.

Hicranın ömrünə calanır hər an,
Gecələr naləmdən yatmayır cahan.
«Qoy ahın dağlara», dedi bir qanan
Dağlar alovlandı, çöl közə düşdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÜRƏYİM

Ömür boyu fəxr etmişdim səninlə,
İncimişəm bu gün səndən, ürəyim!
Ana vətən nalə çəkir, bir dinlə,
Niyə dolanırsan gendən, ürəyim!

Mərmi olub atılmırsan, bəs niyə?!
Məşəl kimi çatılmırsan, bəs niyə?!
Dərmana da qatılmırsan, bəs niyə?!
Niyə ayrı düşdün məndən, ürəyim?

Nə gündədi bu gün Şuşa, düşün, qan.
Xocalıya matəm saxla, ol talan.
Nə durmusan, dayanmısan, alış, yan,
Silkin bu dumandan, çəndən, ürəyim,
Ay qara bir daşa tay, tən, ürəyim!



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DAHA ŞİRİN

Könül rübabının zili, bəmi var,
Zil mənim həyatım, bəm daha şirin.
Sevən ürəklərdə qoşa yaşayır,
Sevinc öz yerində, qəm daha şirin.

Kimin qanadıdır ülvi arzular
Gec-tez həyatına gələcək bahar.
Məni bu cahana bağlayır dostlar,
Təkinə qurbanam, cəm daha şirin.

Baxma, qızıl gülün vəslinə yetdi,
Xar nadan doğuldu, elə də getdi.
Həsrətin könlümü nəğməkar etdi,
Mən necə deyim ki, dəm daha şirin?!

Müqəddəs bir odla qovrulur sinə,
Qovma, qoy səcdəndə dayanım yenə.
Dilin nə söyləsə əzizdi mənə;
«Toxunma», qanundu, «əm», daha şirin.

Pənah axtarmadı dövləti, varı,
Dilədi sevgini, əhdi, ilqarı.
Hər nə başladısa yarımçıq, yarı,
Bütöv əziz olar, kəm daha şirin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ƏLƏSGƏR OLDU

Neçə ki, dünya var təzədi, tərdi,
Zamandan bac aldı Aşıq Ələsgər!
Amalı bəşərdi, eşqi bəşərdi,
Pisliklə öc oldu Aşıq Ələsgər!

Azmanlara layiq bir ömür sürdü,
İlhamı alınmaz qalalar qurdu.
Nə məktəb tanıdı, nə kitab gördü,
Fəhmiylə ucaldı Aşıq Ələsgər!

Qoşma şeriyyətdə bir kainatdı,
Onunla çoxları ad-sana çatdı.
Pənah, neçələri yazdı, yaratdı,
Ancaq ki, tac aldı Aşıq Ələsgər!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BAXIM, BAXMAYIM

Adın çiçək adı, özün yanar şam,
Canımı oduna yaxım, yaxmayım?!
Gendən-gen olsa da, hər səhər-axşam,
Keçdiyin yollara çıxım, çıxmayım?!

Pərvanə əzəldən yazılıb oda,
Aşiq də gərəkdi bol həsrət uda.
Qızmar yay günündə dönüb buluda
Sizin tərəflərə yağım, yağmayım?!

Açıb qızıl lalə, nurlanıb çəmən;
Elə bil yenidən doğulmuşam mən.
Bircə baxışından, bir gülüşündən
Yüz həyat nəğməsi sağım, sağmayım?!

Məhəbbət qaç-qovdu əzəldən bəri,
Biri aradıqca qaçır digəri.
Ümiddir yaşadan bütün bəşəri,
Sabaha ümidlə baxım, baxmayım?!

Əsdi varlığıma sərin bir külək,
Hisslərim duruldu dağ çeşməsi tək.
Oyandı qəlbimdə ülvi bir dilək,
Təkliyin evini yıxım, yıxmayım?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## YAR YARINI ANMASA

Dostun yoxdu, dostun olmursa qonaq,
Unudulur yar yarını anmasa.
Geci-tezi batıb gedər hər bulaq,
Daim yer üstündən qidalanmasa.

Ömür boyu nəğməkarı qalardım,
Məskənimi kəndarında salardım.
Qurban desə özüm qurban olardım
Canan lovğalanıb ədalanmasa.

Ayıl Pənah, kim nə bilir, bəlkə sən
O könüldən silinəsi bir izsən.
Demək, hələ yar yanında əzizsən,
Təqsirin üzünə sadalanmasa.



**1111111247899**
**(11.12.1940)**

# GƏLMİŞƏM

Könlüm sənin hər əmrinə baş əyir,
Sanma səfa istəməyə gəlmişəm.
Yalançı aşiqlər vüsal diləyir,
Mənsə cəfa istəməyə gəlmişəm.

İstərəm ki, eşq ucundan qocalım,
Bu həyatdan, bu dövrandan bac alım,
Kərəm yanan oda yanım ucalım,
Budur şəfa, istəməyə gəlmişəm.

Dedin Pənah, ömrün zay olacaqdır,
Ömürlük bir hicran pay olacaqdır,
Hər anın əzabdan ay olacaqdır;
Əhdə vəfa istəməyə gəlmişəm.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# VAR

Bir bulağam çağlayıram durmadan,
Bir dağam ki, il uzunu qarım var.
Bir yamacam çiçəkləri al-əlvan,
Bir ağacam budağımda barım var.

Bir rübabam nəğməlidi tellərim,
Bir diyaram bəhrəlidi çöllərim,
Bir çəmənəm al-əlvandı güllərim,
Xəzansız, günəşli bir baharım var.

Dan söküldü, karvan qalxıb yeridi,
İşlə qələm, daha qeyrət yeridi.
Duyğularım göz yaşından durudu,
Sinəm dolu şirin arzularım var.

Ürəyin yanmasa başın ucalmaz,
Elin sevdiyindən zaman bac almaz.
Başım ağarsa da qəlbim qocalmaz,
Şeriyyət adlanan nazlı yarım var.

Pənah bəsdi, səmalardan yerə en,
Şirin düşün, şirin yaşa, şirin din.
El gözəli, sən də məndən gəzmə gen,
Sevib sevilməyə ixtiyarım var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# VƏTƏNİMƏ, ELİMƏ

Qoy var olsun vətənimiz, elimiz,
Hər bəşəri öz yerinə qoyandı.
Qoy var olsun musiqili dilmiz,
Adi sözü nəğmə kimi əyandı.

El sərrafdı, seçir, sevir hikməti,
Qəlp sözü yaxına buraxmır qəti.
Yamanlara aşıb-daşır nifrəti,
Yaxşılara qiymət qoyub sayandı.

Şöhrət tapır, qəhrəmanlıq, qətiyyət,
Şirin nəğmə, gözəl şe'r, sədaqət.
Bir ürəkdə çiçək açsa xoş niyyət,
Deyilməmiş el qəlbinə əyandı.

Vətən verib şe'r yazan əl mənə,
Bayatılar öyrədibdi dil mənə.
Bir şəfqətli nəzər saldı el mənə
Ruhum, qəlbim al şəfəqə boyandı.

Eli duy ki, ömür versin eşqinə;
Duyğusuzun əməli nə, eşqi nə?!
Ana yurdun bir gülünün eşqinə
Duyğularım uyğusundan oyandı.

Kamil əsər yaranarmı bir anda?!
Nəğmə gərək əvvəl qaynasın qanda.
Pənah, o kəs xöşbəxtdi ki cahanda
Ellər onu, o da eli duyandı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GEDİR

Toxuna bilərmi insan insana,
Nallanası haqdan nallanır gedir.
Sahibinə təpik atan ulaqlar
Tutulur, döyülür, çullanır gedir.

Kim öz hayındadı bu keşmə-keşdə,
Başı kef çəkməkdə, barmağı işdə.
Birinci deyildir bu «yüksəlişdə»;
Vicdanı satanlar pullanır gedir.

Lap taxta çıxsa da ər olmaz gəda,
Nakəsdən, namərddən yoxdu xoş səda.
Çox zatı qırıqlar, hələ dünyada,
Elin hesabına yallanır gedir.

Halal tikə nədi, tanımırsa can,
Səksəkə içində ömr edir hər an.
Düz olan çəkinmir haqq divanından
Arxayın-arxayın yollanır gedir.

Həyat yaranmayıb ötərgi bir səs,
Gec-tez hər əmələ yetişir əvəz.
Gündüz firon olub taxta çıxan kəs
Gecə dırnağından sallanır gedir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AZƏRİ

Neçə əsrdi ki, belə yatırsan,
Silkin bu yuxudan, oyan, Azəri!
Qayıtsın əvvəlki şöhrət, şərəf, şan,
Saxla tənəzzülü, dayan, Azəri!

Düşmən çox namərddi, bunu yaxşı bil.
Namərdlə döyüşmək heç asan deyil.
İstəyi budur ki, yox olsun bu el,
Sənə olmalıdır əyan, Azəri!

Səadət yaraşır insan oğluna,
Alisən, yüksəksən, layiqsən buna.
Ancaq qələbəylə çatırlar ona,
Zəfər şö'ləsinə boyan, Azəri!

Birləşməyən eldə iqtidar olmaz;
Yad alar, əlində ixtiyar olmaz.
Sayğısız gəzənə tale yar olmaz,
Bunu həyat edir bəyan, Azəri!

Vuruşdu, döyüşdü həyat hər zaman,
Orda uduzanlar məhv olur o an.
Sənə layiq olan zirvədə dayan,
Baş əysin önündə cahan, Azəri!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GƏRƏK

Azad olan kimi düşübdü bəndə,
Vətən əyilməsin, dayansın gərək.
Bundan bədi yoxdu, belə bir gündə
Nəbilər, Həzilər oyansın gərək.

Sərsəm xəyallara düşübdü yağı,
Nahaqlıq götürməz vətən torpağı.
Hansı daşa dəysə düşmən ayağı,
Onun öz qanıyla boyansın gərək.

Türk oğlu bir daha qazansın şöhrət,
Dünya əməlinə eyləsin heyrət.
Kimin varlığında oyansa qeyrət,
El üçün şam kimi, o, yansın gərək.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ONU

Düşmən evimizə dava salıbdı,
Onun öz evinə keçirək onu.
Dəmirdən, poladdan ucaltsa qala
Koroğlu zərbiylə uçuraq onu.

Bizdədi dəyanət, bizdədi hünər,
Bizimdi qələbə, bizimdi zəfər.
Yağı hücumdadı, əlində zəhər,
Haqdı ki, özünə içirək onu.

Oyaq ola bilməz namərdin baxtı,
Uçuraq başına qurduğu taxtı.
Tülküdən, çaqqaldan daha qorxaqdı,
Qovaq, ölənəcən qaçıraq onu.

Hər kim bələd deyil, «vurğun»du ona,
Çağırıb aparsın, yığsın qoynuna.
Bacarsa od vurar bütün cahana,
Hələ çınqı ikən keçirək onu.

Allaha əyandı, işimiz haqdı,
Qoy cahan bilsin ki, yağı nahaqdı.
Eldən qovulası üzlü qonaqdı,
Qafqaz deyiləndən köçürək onu.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# MƏNİM

Qaçma alçaq yağı, di duruş gətir.
Oyanıbdı yatmış qeyrətim mənim.
Belə olmalıydı, yoxdu burda sirr,
Babana bəllidi cür'ətim mənim.

Nadanlıq, namərdlik tutub gözünü,
Odlara salmısan özün özünü.
Niyə döndərmisən Haqdan üzünü,-
Hədsizdi, sonsuzdu heyrətim mənim.

Tutub kəsməliyəm uzun əlini,
Bir də böhtan deyən naqis dilini.
Tezliklə sındırım gərək belini,
Tufandan güclüdür nifrətim mənim.

Qəfəs tanımayan azad bir quşam,
Haqdan, ədalətdən təməl almışam.
Koroğlu olmuşam, Babək olmuşam,
Min illərdən gəlir şöhrətim mənim.

Cana can deyibdi bu el, bu torpaq,
Qana qan alıbdı, tarixlərə bax.
Ay Pənah, həmişə belə olacaq,
Dəyişən deyildir xislətim mənim.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# İNTİQAM

*Xocalı faciəsinə*

Erməni faşizmi qalxıb ayağa,
Şişib yoğunlayib yaman, intiqam!
Elə zülm eləyib ana torpağa,
Donubdu dəhşətdən cahan, intiqam!

Kimliyi faş oldu bütün cahana;
Qoy utansın ona süd verən ana.
Qadınlar, qocalar qalsın bir yana
Verməyib körpəyə aman, intiqam!

Odur, qan içində yatır bir pəri,
Dikilib göylərə ala gözləri.
Əsla bağışlamaz tarix bizləri,
Yerdə qalar olsa bu qan, intiqam!

Bir gündə töküldü min-min nahaq qan,
Ayaqlar altına düşdü şərəf, şan.
Dağlar da, daşlar da deyir ki, bu an,
Türk oğlu, intiqam, insan, intiqam!

Ay Pənah, qələm al, el dərdini yaz;
Bu yara heç zaman qaysaq bağlamaz.
Yoxsa gəlməyəcək yurdumuza yaz,
Yoxsa dayanacaq zaman, intiqam!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# YAXIN GƏL

Ay ellər gözəli, sular sonası,
Məni gendən-genə süzmə, yaxın gəl!
Nadir zəbərcətsən, tanı zərgəri;
Ondan gen dolanıb gəzmə, yaxın gəl!

Kəbəmdi, Məkkəmdi xalın, yanağın,
Mərmərin timsalı sinən, buxağın...
Bir cüt busə umsa səndən dodağım,
Yaqut dodağını büzmə, yaxın gəl!

Sanma əzizlənib saxlanmışam mən,
Bəsə-bəs deyincə dağlanmışam mən.
Həsrət oxlarıyla oxlanmışam mən,
Sən də müjganları düzmə, yaxın gəl!

Həyat belədir ki, ay nazlı nigar,
İnsanın insana ehtiyacı var.
Gözəl duyğulardan uzaqdı əğyar,
O qədirbilməzə dözmə, yaxın gəl!

Səni bu həyata bəxş edən ana,
Bilirmi, od salıb bütün cahana?!
Qıyma Pənah Göyçə alışıb yana,
O vurğun ürəyi üzmə, yaxın gəl!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# TAPILMAZ

Qızlar bulağından su içən pədi,
Sənə vurulmayan insan tapılmaz,
Şirin vusalından əl üzənləri,
Yaxalar o dərd ki, dərman tapılmaz.

Nə qədər gözəldi bu sənli dünya,
Laləli, nərgizli, süsənli dünya.
Görən bilirmi ki, həm mənli dünya,
Birdə onda belə dövran tapılmaz?!

Axı məhəbbətlə gözəldi həyat,
Onunla əbədi, əzəldi həyat.
Sevgisiz solğundu, xəzəldi həyat,
Ondan daha gözəl bir an tapılmaz.

Ömrümə, günümə bahar gətirdin,
Könlümdə eşq adlı çiçək bitirdin.
Bəxt quşunu qoru, uçdu, itirdin,
Bir də ələ gəlməz, canan, tapılmaz.

Pənahı hicranla çəkmə dara sən,
Bu dərdlə göndərmə onu gora sən,
Bir gün qocalarsan, baxsan hara sən,
Səndən məhəbbəti uman tapılmaz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DEYİL

Tona bircə misqal haram qarışsa,
Demək mənim deyil, çörəyim deyil.
Safdı duyğularım, onlara yad kəs
Övladım olsa da, dirəyim deyil.

Elsiz və vətənsiz kim ucalıb, kim? -
Onlara köklənib könlümdə hər sim.
Bircə yol vətənsiz döyünsə qəlbim,
Demək xain çıxıb, ürəyim deyil.

Canımdan, qanımdan əzəldir vətən,
Pənah Göyçə, onsuz heçəm, yoxam mən.
Bütün duyğularım gəlir Göyçədən,
Onsuz olan bir şey, gərəyim deyil.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# KEÇİBDİ

Əfsus, deməliyəm ay Sənəm xanım,
Bitdi şer, sənət, məndən keçibdi.
Könlümün bağına daha qar yağır,
Dumandan keçibdi, çəndən keçibdi.

Bilməm necə ötdü gənclik, görmədim,
Gül-çiçək yığmadım, çələng hörmədim.
«Oxxay» deyib yar bağına girmədim,
Bir də gördüm hər şey gendən keçibdi.

Fələyin zülmündən əsla aman yox,
Pənah yaşamadı qayğısız an, yox.
Axirət deyilən varmı, güman yox,
İmandan keçibdi, dindən keçibdi.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SƏNSƏN, YOXSA MƏN

Ömürlük bir eşqə sağlıq deyərdik;
Dil desin, vəfasız sənsən, yoxsa mən?!
Minbir çiçəyindən çələng geyərdik,
Çöl desin, vəfasız sənsən, yoxsa mən?!

Deyərdik, şahid ol, ey coşğun dəniz,
Nə qədər həyat var, ayrılmarıq biz.
Könül bağçamızda cüt əkdiyimiz
Gül desin, vəfasız sənsən, yoxsa mən?!

Xəzan çulğayıb baxçanı, bağı,
Belə məşəqqətə düşməsin yağı.
Həsrətin, hicranın at oynatdığı
İl desin, vəfasız sənsən, yoxsa mən?!

Kimlər bada getdi, kimlər yarıdı,
Deməzdim fələyin ixtiyarıdı,
Hər başa varan eşq elin varıdı,
El desin, vəfasız sənsən, yoxsa mən?!

Kimdən eşidildi, «gəlmə» kəlməsi,-
Ay Pənah, aram ol, eyləmə bəhsi.
Hara çatasıdı bulağın səsi,
Sel desin, vəfasız sənsən, yoxsa mən?!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# NİŞAN ÜZÜYÜ

Sellər kimi coşan saf eşqinizə,
Birinci şahiddi nişan üzüyü,
Bir zaman, qocalıq üz versə sizə,
Görək ki, vahiddi nişan üzüyü.

Sədaqət, etibar onun qaşıdır,
Ürək sirdaşıdı, qəlb sirdaşıdır,
Sevgini yaşadır, eşqi yaşadır,
Elə bil maqnitdi nişan üzüyü.

İki özgə canı vahid can eylər,
İki yad tayfanı mehriban eylər.
Ay Pənah, xöşbəxtlik ərmağan eylər,
Loğmandı, zahiddi nişan üzüyü.



**1111111247899**

**(11.12.1940)**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# İNSAN

Böyük Yaradanın yoluyla getsə,
O zaman ən azı mələkdi insan.
Əqlinə, qəlbinə şeytan yol etsə
Deמək, özü boyda kələkdi insan.

Haram əməlinlə, qeybətinlə sən,
Gəl olma iblisin alçağına tən;
Axı hər xilqəti insan eyləyən,
Saf ürək, xoş arzu, diləkdi, insan!

Dinlə ululları, eşit Pənahı,
Onda gözün görər nurlu sabahı.
Gec-tez əyan edir safı, günahı,
Bu dövran xəlbirdi, ələkdi, insan!



**111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## TƏZƏLƏNİR

Yenə Novruz gəlir vətən mülkünə,
Duyğu təzələnir, qan təzələnir.
Özgə bir eşq ilə çırpınır sinə,
Təpədən dırnağa can təzələnir.

Elə bil düzlərə açılır xalı,
Dünya seçim edir yaşılı, alı,
Görürsən, cənnətlik edir əhvalı,
Zaman təzələnir, an təzələnir.

Novruza bir daha vurulur Pənah,
Özgə cür yaşamaq günahdır, günah.
Elə bil azalır əzab, aman, ah,
Üfüq təzələnir, dan təzələnir.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BƏNZƏYİR

Bir gözəl yaşayır xəyallarımda,
Ay Qumru, bir suyu sənə bənzəyir.
Bu qətiyyən deyil ixtiyarımda,
İstəməsəm belə yenə bənzəyir.

O da sənin kimi alma yanaqdı,
Zil qara gözlüdü, türfə dodaqdı.
Sanki buxağında həmin buxaqdı,
Kim görsə deyərdi sinə bənzəyir.

Daim onun kimi gülür gözlərin,
Sözləri tək axır şəkər sözlərin.
Sinəmə basdığın yanar közlərin
Onunku tək çətin sönə, bənzəyir.

Sən də alasısan yazıq canımı,
Sən də tökəsisən qızıl qanımı.
Xoşbəxt edərsənmi bircə anımı,
Dərdim çatasıdı minə, bənzəyir.

Hicransız keçmədi bircə saatı,
Sınmazmı Pənahın qolu, qanadı?
Aşiqlərin bəxti, günü, həyatı,
Bir-birinə dönə-dönə bənzəyir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DOYMARAM

Min il dursam səcdəsində, yenə də,
Qara teldən, əsmər üzdən doymaram.
Peykanları bənd alsa da sinədə,
Çatma qaşdan, şəhla gözdən doymaram.

Hər kimin ki, ürəyində sevgi var,
Varlığında çiçək açır ilk bahar.
Gətirsə də hicran, həsrət, ahu-zar,
Bu müqəddəs yoldan, izdən doymaram.

Eşq ömrümə payızında baxsa da,
Eynim yaşı çağlasa da, axsa da,
Varlığımı yandırsa da, yaxsa da
O alovdan, elə közdən doymaram.

Mənim tarım, sazım, sözüm vətəndi,
Vuran qəlbim, görən gözüm vətəndi.
Vətən mənəm, mənim özüm vətəndi,
Qarlı dağdan, barlı düzdən doymaram.

Ey Pənahı dinləyənlər, hər zaman
Eşqinizlə ürəyimdə coşub qan.
Ömür boyu şer desəm durmadan
Yorulmaram, nə də sizdən doymaram.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜBARƏK OLSUN

Bu gün bu məclisdə bir al lalə var,
Elə lalə yoxdu Gəncə düzündə.
İsmət, abır-həya, sonsuz etibar
Ömürlük yazılıb onun üzündə.

Bir bülbül dolanır onun başına,
Şirin duyğularla alışıb yanıb.
Qoy var olsun ona süd verən ana,
Bu elə, vətənə oğul yaranıb.

Necə yaraşırlar söyləyir hər kəs,
Şeydə bülbül gülə yaraşan kimi.
Onları fələk də ayıra bilməz,
Həmahəng köklənib qəlblərin simi.

Qoy sevinsin dostlar, qəhr olsun yağı,
Hər belə toy ilə fəxr edirəm mən.
Təzə bar gətirir ellərin bağı,
Bir pillə yüksəlir anamız vətən.

Eşqlə, məhəbbətlə əkilən güllər
Tufanlar görsə də, çətin ki solsun.
Odur ki, ürəklə söyləyir ellər,
Bu toy, bu məhəbbət mübarək olsun.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# TƏCNİSLƏR



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QUMRUDAN

Ana vətən, səndə min-min gözəl var,
Ancaq təkdi, ola bilməz Qumrudan.
Bir tükünə dəyməz heç cür sərvət, var,
Şirin gülür, şirin dinir qumrudan.

Lap insafsız tanınma sən elə, gəl,
Bir dərdim var, ona dərman elə, gəl;
Bizə tərəf gülə-gülə elə gəl,
Qoy sökülsün varlığıma, Qumru, dan.

Sevgi gərək məşəqqətdən uc ala,
Pənah Göyçə, oda qalan ucal, a!
Sanma aşiq vüsal ilə ucala,
Sən də onu yaxın qoyma, Qumru, dan!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QARALAR MƏNİ

Bar-bəhrəli ötüb keçir yaş aram,
Nakəslərə qalsa qaralar məni.
Aqillərin ürəyində yaşaram,
Nadanlar hər yerdə qaralar məni.

Sən tək gözəl hanı dünya üzündə;
Möcüzədi buxağın da, üzün də.
O nə dürrdü qoşa-qoşa üzündə,
Dara çəkir xalı qaralar məni.

Xəstə ha desin ki «armud, yetiş di»,
Vədə çatar, görərsən ki yetişdi.
Pənah, ömrün qışı nə tez yetişdi,
Yəqin bu gün-sabah qar alar məni.



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BEŞLİKLƏR



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# XOŞ GƏLİBSİNİZ

Min ətir qoxuyur bu gün çöl, çəmən,
Bülbül şərqisini oxuyur şən-şən,
Sanki bina olur dünya təzədən;
Üfiqlər aydındı, göylər ləkəsiz,
Bu gözəl məclisə xoş gəlibsiniz.

Bu gün xınalanıb əllər təzə, tər,
Hər yan bəzənibdi – güllər təzə-tər,
Cana can deyilir, dillər təzə-tər,
Hamı deyib gülür, qəmsiz, qüssəsiz;
Siz də qoşulmağa xoş gəlibsiniz.

Bu gün qovuşacaq Günəş ilə Ay,
Bu gün qurulacaq büllür bir saray,
Bu gün iki könül olub taybatay
Sonsuz səadətə qovuşur şəksiz;
«Amin» söyləməyə xoş gəlibsiniz.

Bəy vüqarlı, mətin, şir tək, aslan tək,
Gəlin ağ libasda sanki bir mələk,
Onlara bağlanır hər arzu, dilək,
Səadət diləyək bu gənclərə biz;
Belə bir istəklə xoş gəlibsiniz.

Yaxşı yeyib-için, əhval düzəlsin,
Müğənnilər coşsun, ilhama gəlsin,
Alqış sədaları ərşə bülənsin,
Qalsın ürəklərdə silinməz bir iz;
Xoş buyurbsunuz, xoş gəlibsiniz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜXTƏLİF ŞEİRLƏR



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SONBAHAR EŞQİM

Qarşımda oturub gözəl bir sona;
Qadir Yaradanın kamil əsəri.
Daim maddım-maddım baxıram ona;
Biganə anlamaz bu ülvi sirri.

Yüzlərlə nöqsansız gözəl görmüşəm,
Hərəsi bir cürə cəzb edir məni.
Ancaq azad, məğrur ömür sürmüşəm,
Bu günsə qabarmır könlüm yelkəni.

Elə bil iradəm deyildir mənim,
Dönmüşəm önündə müti bir qula.
Ürəyim əqlimə kəsilib qənim,
Çəkir varlığımı ağır bir yola.

İndi anlayıram vurulmaq nədir,
Ömrümün bu yazıq sonbaharında.
«Oxxay» söyləməmiş ürəyimcə bir,
Yəqin donasıyam hicran qarında.

Onun günahı yox, hardan biləcək,
Ən ülvi məhəbbət dolanır başda.
Çətin ki eynimin yaşın siləcək;
Yaman kövrək olur ürək bu yaşda.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DİLƏNÇİ

Buludlu, çiskinli bir payız günü
Soyuq daş səkidə əyləşib yenə.
Hərdən bir cingilti alır qəlbini,
Bəlkə də şükr edir hələ bu günə.

Necə rəngarəngdi hər şey cahanda;
Biri ömür boyu qalxıb ucalır.
Ağıl necə kəssin, bizim zamanda,
O biri bu qədər enib alçalır.

Adam var, min ildi köçüb gedibdi,
Nə qədər həyat var qalacaq adı.
Bu sağkən adını batil edibdi,
«Dilənçi» çağırır qohumu, yadı.

Adam var, işıqdı əməlləriylə
Bəşəri çatdırıb şöhrətə, şana,
Bu yıxıb evini öz əlləriylə,
Əksiklik gətirib öz övladına.

Elə adam var ki, sözü, söhbəti
Şirin nəğmə kimi dillərdə gəzir.
Bununsa şikayət olub adəti,
Eşidən hər kəsin qəlbini əzir.

Adam var, dövləti beş ömrə çatar,
Ceyranlar bəslənir güllü bağında.
Bunun yarı uçuq bir daxması var,
Olan əyni-başı göz qabağında.

Adam var, bəşərin dərdini çəkir,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir əsr qabağa baxır gözləri.
Bunu düşündürən çörək dərdidir
İşıqlı dünyaya gələndən bəri.

(Yemək, geymək üçün yaşayanların
Halına ürəkdən acıyıram mən.
Belə bir istəklə çünki onların
Heç bir fərqi yoxdu dəngəzənlərdən.

Həyata eyni cür gəlir insanlar;
Hamının köksündə döyünür ürək.
Hərənin nədəsə bacarığı var,
Özünü vaxtında tapasan gərək.

Daim dəyişsə də rəngini cahan,
Hər kəsin həyatda öz yeri vardır.
Zəhmət eşqi ilə durularsa qan,
Hər yerdə insanın ömrü bahardır).

O, yelə verəndə odlu gəncliyi
Niyə düşünmədi gələn sabahı?
Ömrün qürubunda yoxdu dincliyi,
Taledə, dövranda görür günahı.

Ona yaxşı-yaxşı baxsın cavanlar,
Görk olsun onlara səfil həyatı.
Heç kimə hədiyyə edilmir bahar,
İşindən doğulur müqəddəratı.

İnsanı insanlıq mərtəbəsinə
Halal zəhmət, əmək qaldırır, yalnız.
Qoy qatsın səsini elin səsinə,
Həyata atılan hər oğul, hər qız!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GÖRÜŞ

Dünən səhər sənlə mən,
Guya ki, təsadüfən
Yenə gəldik üz-üzə,
Xeyli baxdıq göz-gözə.
«Nə var, nə yox, niyə sən
Çoxdandı görünmürsən?»
Mənə elə gəlir ki,
Bir də allah bilir ki,
Belə adi sözlərlə
Söhbət eyləsək də biz,
Tamam ayrı mövzuda
Danışdı gözlərimiz.

Hardan qopdu bilmirəm,
Quzu kəsim küləyə,
Sayəsində yetişdim
Ən müqəddəs diləyə.
Qəflətən yaylığını
Sənin çiynindən aldı,
Sandım öpdü, oxşadı,
Astaca yerə saldı.
Bunu qənimət bildik,
Hər ikimiz əyildik.
Elə ki, bir anlığa
Əllərimiz toxundu,
Şerə, sözə sığmayan
İncə sirrlər oxundu.

Səndən soruşdum o an:
- Söylə, kimsən sən mənə?-
Bir şey anlamaq üçün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hey baxırdım mən sənə.
Cavabı həkk olsa da
Yanan yanaqlarında,
Ancaq gözüm qalmışdı
Susan dodaqlarında.
Onlar hər şeydən əzəl,
Onlar gözəldən gözəl...
Nə demək istəyirəm
Duyar sevdalı könül.
Axı nəyə bənzədim –
Yoxdu elə çiçək, gül.

Yüz ömrüm olsa yenə
Gözləyərdim, taki sən
Həyatdan daha şirin
Bir sözü söyləyəsən...
O sözü söyləsə də
Gözlərin, barmaqların,
Heyhat, hesab edilmir
Deməsə dodaqların.



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# KÜLƏKLƏ QOŞA

Oyanıbsan o başdan
Həzin-həzin əsirsən.
Dincəlməyirsən bir an,
Söylə, kimi gəzirsən?
Mənim ürəyim kimi
Narahatsan, ey külək.
Yəqin gedib həmdəmin,
Onu tapmaqdı dilək.
Özgə bir dərd bu qədər
Narahatlıq gətirməz.
Sevinci, səadəti
Belə qovub itirməz.
«Hanı, haradı?» - deyə
Baş çəkirsən bağlara,
Enirsən dərələrə,
Üz tutursan dağlara.

Dost dostuna tən gərək,
Tənik səninlə biz də;
Çıxıb qoşa dolanaq
Yolda, cığırda, izdə.
Kim axıtsa inci tər
Tale olar ona yar.
Biganələr itirər,
Vəfalılar qazanar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# PROMETEY ÖMRÜ

**... Tarix sevənləri gözündə saxlar**
**S.Vurğun**

***Bəşərin xilası naminə,***
***sözün əsl mənasında,***
***şam kimi əriyən***
***ÇARLZ HAYDERƏ***

Həyat nə deməkdir?
Budur qısası;
Onu qorumaqdır onun mənası.
Odur ki, cahanda canlı nə ki var,
Uzun ömr etməyə daim can atar.
İstər bitki olsun, istərsə heyvan,
Ya da canlıların zirvəsi insan,
Hər gün daha yaxşı yaşamaq istər;
Bu qızıl qaydadan doğulub bəşər.
Sanma həyat sakit irəli gedir,
Onun baş qanunu mübarizədir.
Təbiət amansız töküb tədbiri,
Biri məhv olmaqla yaşayıb biri.
Hər dəfə sıradan çıxıb zəiflər,
Kamillər, güclülər qazanıb zəfər.
Həyat deyiləni beləcə hər an,
Təbii seçmədir qurub yaradan.
İnsan da cahanın bir hissəsi tək,
Könlündə doğsa da bir özgə istək
Milyon illər boyu yaşadı belə;
Gücü çatan kəsi elədi kölə.
Belədi qaydası köhnə dünyanın, -
Qənimi yaranıb insan insanın.
Zülmətdən işığa gedir kainat,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Min-min illər əvvəl, odur ki həyat,
Gətirdi dünyaya özgə kəsləri.
Tək-tək olsalar da o vaxtdan bəri
Özgə bir nəzərlə baxıb cahana
Dedilər, qardaşdı insan insana.
Onların cismində yarandı İNSAN.
Həyata, cahana oldu şərəf, şan.
O gündən sayları artdı günbəgün,
Nəhayət, sayca da olurlar üstün.
Birlik, bərabərlik bir adət olur,
Hər kəsin nəsibi səadət olur.
İndi aramızda elələri var,
Bundan daha yüksək amalla yaşar.
Gərir sinəsini hər təhlükəyə,
Özgəsi qurtulub yaşasın deyə.
Neçə ki həyat var, əfsanə deyil,
Qafur Məmmədovu yaşadacaq el.
Rahib də yaşadı beləcə bir an.
Odur əsil insan, odur qəhrəman!
Mində bir doğulur belə igid ər,
Zəngin mədəndə də tək-təkdir gövhər.
Hər yetən haraya gələsi deyil,
Özgənin yerinə öləsi deyil.
Yaxşı insan doğmaq istər hər ana,
Quldur da verirlər bəzən cahana...

Qəlbimdə  yaşayan o insanların,
Dönməz, əfsanəvi qəhrəmanların
Səs verib eşqinə candan, ürəkdən
Bütün varlığımla baş əyirəm mən.
Məndən inciməsin xatirələri,
Belə düşünürdüm nə vaxtdan bəri:
Onlar böyükdülər, şübhə yox buna,
Qəlbən vurğundular insan oğluna.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O böyük igidlik, bəlkə də elə,
Ani qığılcımdan yaranır belə?
İnsanı qəhrəman edir bircə an,
Qəhrəman yaşamaq deyildir asan.
Həyata dönsələr görəsən yenə,
Bir də gərərlərmi ölümə sinə?

Nəhayət, bu günlər cavab tapdım mən,
Böyük bir insanın saf əməlindən.
Qətrə-qətrə yanır o böyük hünər,
Taki uyğusundan oyansın bəşər.
Sən ey Çarlz Hayder, ey böyük insan!
Günəş tək təmizdir səndəki vicdan.
Bildim ki, ellərə vurğun olan kəs,
Eşqində yarımçıq yarana bilməz!
Belə bir rəşadət, belə bir hünər,
Hələ tarix boyu görməyib bəşər.
Bax, bütün planet deyir ki sənə,
Eşq olsun, eşq olsun, eşq olsun yenə!
Bəzən açıq-aşkar səhv etsək də biz,
Qədirbilən olub insan nəslimiz.
Spartak asıldı bir quldur kimi,
Dolaşır cahanı indi nur kimi.
Dabandan soyuldu şair Nəsimi,
Hər duyan ürəyin inləyir simi.
Cordano Bruno tonqalda yandı,
Sonralar şöhrəti ərşə dayandı.
Belədir, belə də olacaq hökmən;
Bütün varlığımla inanıram mən,
O Lafayet Parkda, bir zaman sənin,
Göyə baş çəkəcək böyük heykəlin!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ƏLVİDA SƏKSƏN YEDDİ

Səksən yeddi, həyatımdan
Şimşək kimi çaxıb keçdin.
İl kimi yox, ay kimi yox,
Bir an kimi axıb keçdin.
Səksən yeddi, sən keçincə
Saçlarımda artsa da dən,
Bil ki, sənin bir günündən,
Bir anından doymadım mən.
Çünki ömür səadətlə
Silələnib başdan başa,
Çünki həyat təməlindən
Yaranıbdı bir tamaşa.
Ürəyimdə öz yerini
Möhkəmlədib hicran, həsrət,
Həyatıma məna verib,
Qoy bol olsun o səadət...



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# YAXIN VƏ UZAQ SƏADƏT

***K-ya***

Dostluğa çevrildi adi tanışlıq,
Sonra da bir vurdu ürəklərimiz.
Bir sual önündə çaşıb qalmışıq;
İndi necə olsun, necə edək biz?

Ağıl qəti verir burda qərarı;
Hər şey qalmalıdı əvvəlki kimi.
Ürək üsyan edir, «İnsaf et barı,
Bu heç dözüləsi bir həsrətdimi?»

Səadət eşqiylə vurdu qəlbimiz,
Onun sorağında yaşadıq yalnız.
İllər boyu onu izləsək də biz,
Barını dərməyə yoxdu haqqımız.

«Məgər səadətə haqqım yox bir an?»
Soruşdun o günü, müşgüldü cavab.
Elə ömr eləmək deyildir asan,
Həm şiş təzə qalsın, həm bişsin kabab.

Dünya bu sualı eşidir hər an,
Görünür həyatda belədi adət.
Bizim ömrümüzə, gəlsə nə zaman,
Belə gəlməliydi, belə səadət.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# QAYITSAN

Elə bil milyon ildi
Ayrılmışıq yenə biz.
Hicran, həsrət bu dəfə
Ağ eylədi şübhəsiz.
Sənli xatirələr də
Yetişməyir köməyə.
Həmdəmim bülbül belə
Susub, bilmirəm niyə.
Gülüm, könlüm kiriyər,
Çağlayar damarda qan,
Nə vaxt geri qayıtsan.

Qərib-qərib dolaşır
Kəhkəşanda ulduzlar.
Ellər gözəli Ayın
Rəngində sarılıq var.
Şirin nəğmələrindən
Ayrı düşübdü dəniz.
Günəş batıb o gündən
Bir də doğarmı sənsiz?
Aləmi nur bürüyər,
Çimər şəfəqdə hər yan
Nə vaxt geri qayıtsan.

Gördüyün gözəllikdən
Qalmayıbdı bircə iz.
Gizlənib bənövşələr,
Solub, sarslıb nərgiz.
Hər tərəf uyğudadı,
Sanki donubdu həyat.
Əzizim, başdan-başa
Buza dönsə kainat,
Bircə anda əriyər,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gülə bələnər cahan
Nə vaxt geri qayıtsan.

## NƏ LAZIMDI BƏS SƏNƏ

Günəş də, Ay da batıb,
Bütün aşiqlər yatıb.
Mürgü döyür ulduzlar,
Dünyada canlı nə var
Şirin bir uyğudadı.
Həmdəm edib fəryadı
Gözləyirəm mən yenə;
Nə lazımdı bəs sənə?!

Ən şirin sözüm də sən,
Gecəm, gündüzüm də sən.
Şahiddi şeyda bülbül,
Keşikdəyik, yatır gül.
Bir oyan bax, gözəl yar,
Qəlbimdəki arzular
Nurdan daha təmizdi.
Hicranın da əzizdi;
Alışıb yanır sinə,
Nə lazımdı bəs sənə?!

Hərənin öz yarı var,
Qoşa yaranır onlar.
Sənsən könlümə həmdəm,
Xöşbəxtəm, tapmışam mən.
Gəl, sənindi varlığım,
Bütün bəxtiyarlığım.
İnsaf et, söylə mənə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə lazımdı bəs sənə?!
Nə lazımdı bəs sənə?!

## XƏYALINLA YAŞARAM

Yenə uçdu göyə səyyar xəyalım,
Eşq adlı duyğulara yar xəyalım.
Göz önündə, budu, hüsnün dayanıb;
Yuxudan varlığın indi oyanıb.
Qönçə tək şehlənibdi gül dodağın,
Lalə misal alışıbdı yanağın.
Bir mələk varsa cahanda o da sən,
Bəs nədən canımı saldın oda sən?
Neçə ki, varlığımda çarpır ürək,
Özgə bir sevda deyil mənə gərək.
Duracaqdır göz önündə xəyalın,
Olacaq hər nədən ümdə xəyalın.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# VƏFASIZ DEMƏ

Axı nə baş verdi, nə oldu sənə?
Yenə göz qaldırıb baxmırsan mənə.
Küsüb barışmağı sevir hər gözəl,
Sən adət etmisən, bir insafa gəl!
Düzdü, küsməyin də öz ləzzəti var;
Hər dəfə məhəbbət birə beş artar.
Elə ki, ortaya gəlir barışıq,
Çulğayır cahanı mavi bir işıq.
Bu dəfə dağılıb getmir duman, çən.
Anlamıram, nədən narazısan sən?
Nəğməkar qəlbimi batırma qəmə,
Ona nə desən də, vəfasız demə!

Neçə ki, səhərlər doğur al Günəş,
Neçə ki, cahana paylayır atəş,
Neçə ki, azaddı başsız küləklər,
Neçə ki, doğulur ülvi diləklər,
Neçə ki, eşq ilə açır qızıl gül,
Neçə ki, oxuyur sevdalı bülbül,
Neçə ki, sayrışır göydə ulduzlar,
Neçə ki, dünyada nazlı bahar var
Eşqinlə vuracaq mənim ürəyim,
Vəfasız bir ürək deyil gərəyim!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# BİR ÖMÜR AZ DEYİLMİ

Çoxdandır ki, könlümdə
Bir bəşəri sual var;
Nə qədər yaşayardıq
Bizdə olsa ixtiyar?!

Ədəbiyyət alıbsa
İlk təkandan bu cahan,
Onun müqabilində
Ömür nədir, - bircə an!

Bir ömür də az deyil,
Çox şey yaratmaq olar.
Hər hansı bir sahədə
Zirvəyə çatmaq olar.

Neçə bahar görürük,
Neçə qış yaşayırıq.
Həm sevinci, həm qəmi
Ürəkdə daşıyırıq.

Bircə ildə dərk edər
Aqil olan cahanı.
Min ömür yaşasa da
Nadan duymaz dünyanı.

Ona görə cahana
Bir dəfə gəlirik biz;
Yaradan öz işini
Bilir, bilir şübhəsiz!

Ancaq etirazım var
Bu yerdə təbiətə;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir ömür bəs edərmi
Sevgiyə, məhəbbətə?!

Neçə ömür mən səni
Axtarardım, gəzərdim.
Bundan nə yorulardım,
Nə küsər, nə bezərdim.

Bir ömür sığışmazdı
Sevincim yerə, göyə;
Gülüm, bayram edərdim
Səni tapmışam deyə.

Bir ömür də mən sənin
Arxan ilə gəzərdim.
Hər əzab, əziyyətə
Sevinc ilə dözərdim.

Min bir ömür səninlə
Dostluq etsəydim yenə,
Sonra fikrən hər anı
Yaşardım dönə-dönə.

Neçə ömür yanardım
Ayrılığın oduna.
Sənə inam bu yerdə
Yetişərdi dadıma.

Düzdü, bizi hər anı
Dönə-dönə yandırır,
Ancaq ayrılıq, hicran
Eşqi alovlandırır.
Ondan sonra bilirik
Eşq nədi, sevda nədi.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ayrılıqsız məhəbbət
Quru bir əfsanədi!

Son tanımaz, hədd bilməz
Eşqə əsir bir ürək.
Mən sonuncu ömrümün
Axırında, ey mələk
Qoy olsun, bircə günlük
Sənin vəslinə yetim.
Dünyada heç bir eşqi
Gülüm, qalmasın yetim!



**1111111247899**
**(11.12.1940)**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# QINAMA MƏNİ

Gülər üz, əzəldən bilirəm ki mən,
Açıq ürəklilik nişanəsidir.
Eləsi olan yer bilməz duman, çən,
Günəş tək yaxını, yadı isidir.

Duyuram səndəki səmimiyyəti,
Bilirəm təmizsən bir mələk kimi.
Şübhələr qəlbimi didməyir qəti,
Şahnaza köklüdü qəlbimin simi.

Bununla yanaşı istərdim ki mən,
Tək mənim üstümə işıq salasan.
Nə ehtiyac duysan bəşəriyyətdən
Onu təkcə məndən, məndən alasan.

İnsan təbiəti nə qəribədi?!
Axı nə haqqım var düşünüm belə?
Heç icazəm yoxdu, bəli, belədi
Ki, sənin adını gətirim dilə.

Həm də gör nələri düşünürəm mən;
Bax, bu gün qəflətən itirsən məni,
Gülüm, yoxluğumu hiss eləyib sən
Bircə gün qəm-qüssə çəkərsən yəni?!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# SEVDİM, İXTİYARIM YOX

Mən necə həsrət ilə
Gözləmişdim bu günü,
Ki, açacaq könlümdən
Bir ömürlük düyünü.
Gündüz əlimdə çıraq
Aramışdım mən səni.
Yorulub usanmadan
Gözləmişdim sevgini.
Bir həmdəmin eşqinə
Möhtac olan hər ürək,
İstəyinə çatmamış
Bir an dincəlməyəcək.
Sənə qədər könlümdən
Ucalmayıb toy səsi,
Yaxına buraxmayıb,
İstəməyib heç kəsi.
«Sevmə!», deyə bilərəm,
Belə də olmalıdı.
«Sev!», demək mümkün deyil
O özü gəlməlidi.
Əzəl gündən özümə
Könlüm kəsilib qənim.
Sevdim səni, sevməyə
İxtiyarım yox mənim.
Demək yoxsan həyatda,
Könlümün xəyalısan.
Axı, Ələsgər demiş,
Özgənin maralısan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SƏNİ SEÇƏRDİM

***Mahnı mətni***

Dünən biz üz-üzə dayanan kimi,
Zaman da, məkan da düşdü dolaşıq.
Şahnaza kökləndi qəlbimin simi,
Dörd yanı bürüdü mavi bir işıq.

**Nəqarət**

Gülüm, sənin yolunda alovlardan keçərdim,
Dərya yolumu kəssə bir nəfəsə içərdim,
Min ömrüm olsa min yol səni seçərdim.

Elə bil cahanda qaldıq ikimiz,
Min illik bir yolun yolçusu kimi.
Bir xeyli həmahəng vurdu qəlbimiz,
Özgə bir aləmə apardı məni.

**Nəqarət**



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# NƏSƏ QALIBDI

Dünən biz üz-üzə dayanan kimi,
Zaman da, məkan da düşdü dolaşıq.
Şahnaza kökləndi qəlbimin simi,
Dörd yanı bürüdü mavi bir işıq.

İtdi aradakı uçurum illər,
Könlüm çiçəkləmiş bir fidan oldu.
Alnımda qırışlar ütüləndilər,
Dünya başdan başa gülüstan oldu.

Elə bil cahanda qaldıq ikimiz,
Min illik bir yolun yolçusu kimi.
O anlar həmahəng vurdu qəlbimiz,
Özgə bir aləmə apardı məni.

Əridi könlümün buzu bir anda,
Sənin o şəfqətli baxışlarından.
Duydum ki ədalət qalıb cahanda;
Mənə bəxş elədin elə şirin an.

Bu gün o sahilə qaytarıb səni,
Deyəsən dünyada nəsə olubdu.
Nəsə ürəyimdən isidir məni,
Dünəndən könlümdə nəsə qalıbdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# HƏSRƏTİN DƏ ƏZİZDİ

Daha bir il keçdi, görmədim onu –
Bu sevda yarası qaysaqlanmadı.
Taki belə olsun həyat uzunu,
Bilərəm ki, ömrüm bica yanmadı.

Azğın qasırğa tək gəldi ayrılıq,
Əğyara qoşulub güldü ayrılıq.
Vüsalı o sayaq sildi ayrılıq
Zərif külləkləri heç oyanmadı.

El bilir ki, baxmır yaşa məhəbbət,
Safdısa toxunur daşa məhəbbət.
Əzəldən yaranır qoşa məhəbbət;
Deməsinlər yarım məni anmadı.

Məni oğrun-oğrun süzdü gözəllər,
Dövrəmdə qu kimi süzdü gözəllər,
Piyaləmə şərbət süzdü gözəllər,
Könlüm bircə an da onu danmadı.

Olub keçənləri andı Pənahı,
Onu da səadət sandı Pənahı,
Həsrətdən od tutub yandı Pənahı
Bu şirin əzabdan heç usanmadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GECƏ

*Sərhədlərimizi qoruyan*
*mərd oğullarımıza*

Yenə uzanıb gedir
Xain, xoflu bir gecə,
Ölümlə əlbir olan
Başdan başa sirr gecə.
Üç gündə iki igid
Bada gedibdi burda,
Ölüm bayram eləyir,
Həyat qalıbdı darda.
Bu gün odlar yurdunun
Oğlu qarovuldadı,
Möhkəm dayanıb, axı,
Elin gözü yoldadı.
Həyat eşqi məşəl tək
Gur yansa da canında,
Bir anlığa qorxu da
Hərdən gəzir qanında.
Hər dəfə də qələbə
Çalır xain qorxuya,
Əsəbləri gərilib,
Meydan yoxdu yuxuya,
Hər ağacdan, hər koldan
Rövşən olsa da halı,
Hər biri gözlərində
Görünür müəmmalı.
Duyğuları elə bil
İtiləşib neçə qat,
Ayağa çəkilibdi
Əlindəki avtomat.
Yəqin milçək də uçsa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səsini alasıdı,
Düşmən cin olsa belə
Yerində qalasıdı.
Birdən hansı duyğusa
Geri dön deyir ona,
Bircə an da geciksə
Yəqin batardı qana.
Görür üç addımlıqda
Tünd geyimli bir nəfər,
Artıq qalxıb havaya,
İndi enəcək xəncər.
Bizim kəkliklər kimi
Qaqqıldayır avtomat,
Ölüm yerə sərilir,
Salamat qalır həyat.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AH VƏTƏN, VƏTƏN

Körpəydim, evimizdi
Mənə bütün bu cahan;
Göyçədə, Ağkilsədə
Ömr edirdik o zaman.
Yaşayış xeyli çətin,
İqlimi də sərt idi,
Qış orda qış deyildi
Bir çəkilməz dərd idi.
Düz altı ay mal-qoyun
Eşik üzü görməzdi,
İnsan can çürüdərdi,
Əsla dövran sürməzdi.
Yaz, payız aylarında
Palçığa bələnərdik,
Bir il gəlib keçincə
Ələkdən ələnərdik.
Yayda külək əsərdi
Səhərdən axşamadək,
Orda nə gün görmüşük,
Özün götür hesab çək!

Ev damı deyilərdi
O vaxt bizim mənzilə,
Ortasında təndiri,
Bacası da bir gilə.
Ömür boyu qaranlıq,
Qışda soyuq olardı.
Heç özüm də bilmirəm
Onda nə hikmət vardı;
Hərdən anam qonşuya
Söhbət üçün gedəndə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ətəyindən yapışıb
Yoldaş olardım mən də.
Bir saat oturmamış
Darıxardım ev üçün.
Nağıllardan bildiyim
Saraylardan da üstün
Sanırdım o daxmanı, –
İlk yuva ömür boyu
Cəlb eləyir insanı.

İş elə gətirdi ki,
Gəncəyə köçdük ordan;
Ömrümdə, həyatımda
Başladı özgə dövran.
Əvvəlkindən çox rahat
Yaşasaq da orda biz,
Tez-tez yada düşürdü
Göyçə adlı elimiz.

Gənclik keçdi Gəncədə,
Doğmalaşdı o yerlər,
Hər yeni şəraitə
Az-çox öyrəşir bəşər.
Günlər ötdü, ortaya
Köç etmək gəldi yenə,
Göyçə qədər Gəncə də
İndi əzizdi mənə.

Xeyli vaxtdı Bakıdı
Elim, yurdum, məskənim,
Göyçə qədər Bakı da
İndi mənimdir, mənim.
Təmiz havaya, suya
Çoxdan həsrət olmuşam;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Görən niyə bağlanıb
Buralarda qalmışam?
Aylarla qonaq qaldım
Neçə-neçə ölkədə,
Bakıdan üstündülər
Çox cəhətdən bəlkə də.
Ancaq, Bakı, deyəndə
Yarpaq kimi əsmişəm,
Harda olsam qoynuna
Dönməyə tələsmişəm.
Uzaq bir planetə
Qonaq getsəm nəhayət,
Ora hər bir mənada
Olsa da əsil cənnət,
Bütün kəsirləriylə
Çəkəsidi məni Yer;
Vətən belə mö'cüzə,
Vətən bax belə bir sirr...



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MÜBARƏK

Bu gün o qoşa cavan
Bəxtiyardı, bəxtiyar.
Gözünüz aydın olsun
Ay atalar, analar!
Bu an, bu saat, bu gün
Mübarəkdi, mübarək!
Bu məclis, bu toy-düyün
Mübarəkdi, mübarək!

Hakim olub məclisə
Özgə eşq, özgə həvəs.
Bu axşam burda hər şey
Müqəddəsdi, müqəddəs!
Sehirli bir şəfəqlə
Yanan şamlar mübarək!
Şirin şərbətlə dolu
Gümüş camlar mübarək!

Bir gəlinə baxın siz,
Açıb qızıl gül kimi.
Oğlan xoş ləhcəlidi
Nəğməkar bülbül kimi.
Onları birləşdirən
Eşq, məhəbbət mübarək!
Bu sevda, bu ittifaq,
Bu sədaqət mübarək!

Ulduzlar halay vurub,
Sərin-sərin meh əsir.
Kaman yandırıb yaxır,
Tar elə bil tələsir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ay bəy, ay təzə gəlin,
Daima qoşa gəlin!
Qəlbinizdə bəslənən,
Hər bir arzu mübarək;
Açılsın çiçək kimi,
Gətirsin bar, mübarək!

Eşq olsun sənə, Vətən,
Bir az da artdı gücün.
Sənin bir sütunun da
Odur, tikildi bu gün.
Dostlar, gəlin bu axşam
Arzulardan don geyək;
Bu eşqə, bu sevgiyə
Mübarək olsun deyək!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# UĞURLAR OLA

Nə tez qanadlandın, ay səksən altı,
Sanki dünən səni qarşılamışdıq.
Yeni il gözləyir göylərin altı,
Düşüb könüllərə hüsnündən işıq.

Könlümün rübabı ilhamla dinir,
Həyat hər üzünə xoşdu, dadlıdı.
Bəd günün hər anı bir ilə dönür,
Xoş çağlar həmişə quş qanadlıdı.

Sülh ili yazıldı tarixdə adın,
Bu amal uğrunda çox şey etmisən.
Tam gül açmasa da arzun, muradın,
Qovğasız, qırğınsız başa yetmisən.

Gül açsın, bar versin qoy bu niyyətin,
Dünya başdan-başa sevinclə dolsun,
Ən baş arzusudu bəşəriyyətin;
Səksən yeddi daha uğurlu olsun!



**1111111247899**

**(11.12.1940)**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# RÜBAİLƏR



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Anam bir gözümdü, yarım bir gözüm,
Onlardı dilimdə ən şirin sözüm; -
Birini birinə qurban demərəm,
Çünki hər birinə qurbanam özüm.

Nizamilər yetiribdi bu torpaq!
Koroğlular bitiribdi bu torpaq!
Elə yaşa, ellər baxıb deməsin, -
Səni niyə gətiribdi bu torpaq?

Yenə hicran, həsrət tuğyana gəldi,
Vüsala ümidi kökündən sildi.
Ey könül, artacaq yanğın birə min,
Gözün aydın olsun, işin düzəldi.

Bax belə olubdu aşiq hər zaman;
Hicran il-il alıb, vüsalsa an-an.
Hələ heç hicranı dərk etməmişəm,
Fələk deyir, - yığış, qurtardı dövran.

Məcnunlar vüsalı seçəsi deyil,
Alıb şərbətini içəsi deyil.
Daim yanasıdı eşqin oduna;
Ölüm körpüsündən keçəsi deyil.

Gecənin dalınca gəlmirmi səhər?
Tufan ötən kimi gülmürmü göylər?
Əgər bir bədbəxtlik üz versə sənə,
Döz, bil ki, dalınca xöşbəxtlik gələr.

Özümüzü həmişə hesab edərək təmiz,
Layəqətli bir sirdaş arzulayır qəlbimiz.
Qəlbən gözəl bir çirkin göz önündə dursa da,
Naməlum bir gözələ vuruluruq amma biz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə etmək, budu qayda, kim olsaq da özümüz,
Gözəllər ətrafında dolanır hər sözümüz.
Unuduruq, - ikiqat gözəl yaranır tək-tək;
Hər gözəldə gözəl də ürək görür gözümüz.

Göz tutan hər gözəli hazırıq tale sanaq,
Qəlbən kimdi, bilmədən, dinməz alışaq yanaq.
Harda qalır bəs ağıl, hara baxır ədalət,
Çirkin mələk qəlblisə, istəmirik inanaq.

Canın sağsa, işlərin taraz gedirsə əgər,
Həyata nikbin baxmaq əsla deyildir hünər.
Oğul odu fələyin sərt üzünə dayansın,
Fəlakətdə, əzabda nikbin qalmalıdır ər.

Mən sənsiz gün nədi, anları saydım,
Axır dönüb gəldin, gözlərim aydın.
Fələyin cövrünə necə dözərdim,
Ey ilham pərisi, sən olmasaydın?!

Girli dayın varsa həyatda, demək,
Çox şey almaq olar, çəkmədən əmək.
Sənətdə əbədi yer tutmaq üçün,
Heç kəsdən, heç yerdən gözləmə kömək!

Sənət dərya, mən balıq;
Ah, bu necə ucalıq?!
Zirvə hələ görünmür,
Gəlib çatdı qocalıq.

Neçə aşırımdan keçəsiyəm mən,
Neçə buz bulaqdan içəsiyəm mən.
Bütün arzularım başa gəlməmiş
Çətin ki, dünyadan köçəsiyəm mən.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bəzən ziyarətdi, bəzən ticarət,
Bəzən xoş ülfətdi, bəzən siyasət;
Salama özgə don geydirənlərin
Üzündə yaltaqlıq, qəlbində nifrət...

Deyirlər kinlidi, qaradı gecə,
Ancaq bir mətləb var incədən incə;
İnsanlığın barı, ölməz əsərlər,
Gecənin qoynunda yaranır məncə.

Ey təbib, heç dərdə tapılmaz çara,
Dayaq deyildirsə əgər yar yara.
Hər əsən küləyə ram olur tək kol,
Tufan bata bilmir qoşa çinara.

Çoxlarının qəlbi yalana yardı,
Demək, həqiqətin meydanı dardı;
O da çox tapılan olsaydı əgər
Qiymətdən düşərdi, ucuzlaşardı.

Özgə bir yol yoxdur, yaxşı-yaxşı bax,
Sabah bütün xalqlar qardaş olacaq.
Deməli tezliklə bizim Xan Araz
Sevinc yaşlarından coşub daşacaq.

Dünyanı gəzmədim havayı yerə,
Yüz bulaq xoşladım, yüz dağ, yüz dərə.
Harada olsam da, səyyar xəyalım
Dərhal uçub döndü bizim ellərə.

«Dünya necə gəlib, elə gedəcək»,-
Əvvəl belə idi, yaxşı hesab çək!
Zəncirə vurmasaq bəd əməlləri
Onu bircə anda viran edəcək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir səbəb olmasa dillər ağlamaz,
Bülbüllər ağlamaz, güllər ağlamaz.
Özünə görə də dərdi olsa da,
Ellər dözümlüdür, ellər ağlamaz.

Gəncliyimdən açıq gözlə mən baxıram cahana,
Bilirəm ki, kainatdı beşik hər bir insana.
Ancaq yenə doğma vətən, doğma oba, doğma yurd
Maqnit kimi çəkir məni, yolum düşsə ha yana.

Hər baş əymək hörmət saxlamaq deyil,
Bəzən hönkürmək də ağlamaq deyil.
Gen gündə baş çəkmək rütbəli kəsə,
Çox vaxt ticarətdi, yoxlamaq deyil.

Hər sevda məhəbbət deyildir hələ,
Ürəyi ney kimi sızlatsa belə.
Sevda var, bir şirin xatirə qalır,
Sevda var, ömürlük dönür nisgilə.

Kainatda  hər şey dövr eləyir, bil!
Təkrardı hökmüran, özgə şey deyil.
Təkrar var, baş verir ən kiçik anda,
Təkrar var, istəyir milyard-milyard il.

Könül, sanma daim ucalacaqsan,
Hara yön çevirsən bac alacaqsan.
Yaz, yarat, fürsəti buraxma əldən,
Növbən tez çatacaq, qocalacaqsan.

Yaz his olunmazdı güllər gəlməsə,
Leysanlar yağmasa, sellər gəlməsə.
Həyat deyiləni dərk eləməzdik,
Ömrü biçib tökən illər gəlməsə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəbbət pərvəriş tapır sinədə,
İnsan səadətə çatır sinədə.
Bu necə əfsundu, bu necə sirrdi,
Murdar əməllər də yatır sinədə.

Üşümürəm qışda, əssə də Xəzri,
Gün tək isidirəm olduğum yeri,
Əvvəl adi idim, olmuşam belə,
Sən mənim qəlbimə köçəndən bəri.

Günəş, səxavəti dönsə də selə,
Əvəz ummayıbdı hələ bir gilə.
İnsanlar da ona bənzəsin gərək,
Eşqiylə nur saçsın obaya, elə.

Ey könül, seyr elə çiçəyi, gülü;
Onlarla bəzənir qızların teli.
İndi də tikanın görkəminə bax,
Heyvanlar da ondan dayanır uzaq.

Ürək silsə pasını
Sərhəd, məsafə bilməz.
Çəpərin mənasını
Ürəklərdə yenə gəz.

Könül, əgər pərvanə tək
Vurulmasan o şama,
Fərqi yoxdu, lap yüz ömür,
Yaşa, ya da yaşama.

Ömür nədi, an təki
Yaşayırıq onu biz.
Eşq olsun o kəsə ki,
Aşiq kimi qoyur iz.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ömür qısa olsa da,
Ətrafına yaxşı bax,
Şərəflə yaşayanlar
Elə çox deyil ancaq.

Yerdən, göydən, özümdən
Əzizsənsə mənə sən,
Heç cür ola bilməz ki,
Yad görünüm sənə mən.

Qəbulumdu nə desən,
Hətta gözlə söyləsən.
Bir ömür gözləmişəm,
Gözləyərəm yenə mən.

Səadəti axtar, izlə,
Bir gün gələr, deyə, gözlə.
Gündüz işlə, gecələr yat;
Bu da həyat...

Şirin sözlə, əgər, ansa yarı yar,
Ruhu, könlü, cismi, canı yarıyar.
Sən də, gülüm, bir acı söz deyincə,
Xəncər götür, ürəyimi yarı yar.

İnsan yaranmazdı olmasa zəhmət,
Qəlbində yerini salmasa zəhmət.
Əflatun da olsan, əlin boş qalar,
Daim aralıqda olmasa zəhmət.

İllərlə çalışır səyyah olan kəs,
Yoxsa zirvələri fəth edə bilməz.
Sənətdə zirvəyə yüksəlmək üçün
Çox vaxt bütün ömür eləməyir bəs.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Asan ələ gəlmir samballı zəfər,
Üç ilə, beş ilə yetişərmi ər?!
Bir an ürəkləri almaq naminə
Əlli il musiqi çalmağa dəyər.

Bu günəcən iki ömür almayıbdı bir bəşər,
Nə yaxşıya qismət olub, nə də onu tapıb şər.
Öz işini yaxşı qurub həyat adlı o ustad,
Hər hansı ad almaq üçün bir ömür də bəs edər!

Bir vaxt Xəyyam söylədi ki, şərab ruha qanaddı,
Guya ömrün mənasıdı, səadətdi, həyatdı.
Ancaq özü piyalədən uzaq gəzdi hər zaman,
İnsanlığa şöhrət olan rübailər yaratdı.

Min illərdi insan bilir xeyir nədi, şər nədi,
Zəhər nədi, dərman nədi, dəmir nədi, zər nədi.
Bəs bu qədər nadan, namərd hardan gəlir cahana;
Qoca dünya, söylə görək, səndəki bu sirr nədi?

Ürəklər nəyəsə daim can atır;
O qaymaq xoşlayır, bu bala batır.
Hər şeydən qiymətli bir nemət də var,
Şirin söz hamının qəlbinə yatır.

O əsmər üzlüdü, qara tellidi,
Bu qoşa xallıdı, şümşad əllidi...
Min cürə gözəl var dünyada, ancaq,
Elin sevimlisi şirin dillidi.

Kiminin aldığı cah-cəlal olur,
Kiminin qisməti qüli-qal olur.
Biri uşaq qalır yüz yaşında da,
Biri cavanlıqdan ağsaqqal olur.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dil-dil ötdün, ruhum, qəlbim göynədi,
Dedim, Allah, bu əfsundu, ya nədi?
Danışmadın, o da sənə yaraşdı,
Sükutun da bir sehirli nəğmədi.

Səni görüb xöşbəxt oldum, yar, amma
Saymaz ötüb xəncər vurdun yarama.
Özün söylə, insafdımı, anbaan
Sevil, ancaq sevən kəsə yarama?!

Min illər üz tutsaq da, göydən cavab olmayıb,
Ordan zənbildə sovqat hələ heç kəs almayıb.
Öz ağlından bar dərən, öz gücünə güvənən,
Ən çətin ayaqda da çıxıb, darda qalmayıb.

Ürəklər arasında nə qədər ki, körpü var,
Neçə yol küssə yenə sevgililər barışar.
Qiyməti bilinməsə, gec-tez uçar o körpü,
Gülüş tikana dönər, «can» sözündən qar yağar.

Min illərdi ömr edir insan oğlu cahanda,
Ancaq, əsil insan tək yaşamayıb bir an da.
İnsanlığın baharı yer üzünə gələcək,
Axırıncı silahı muzey təhvil alanda.

Gülüm, bil ki, belə uzun çəkməsəydi bu hicran,
Gecə-gündüz atəşində yanmasaydı əgər can,
Həyat nədi, sevda nədi anlamazdıq qətiyyən;
Onda niyə ondan qaçır, vüsal diləyir insan?

Əğyar güldü, sən ağladın, sındı kaman, susdu saz,
Səbirli ol, yaman günün olasıdı ömrü az.
Ellər bilir, əzəl gündən bir qaydadı cahanda,
Qış boranlı, qarlı gecə, daha nurlu gəlir yaz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilirdim ki, harda isə sən də məni gəzirsən,
Görüşdük o zaman ki, saçlarıma düşüb dən.
Ömrümün son günündə tapsaydım əgər səni,
Bil ki, razı qalardım taleyimdən yenə mən.

Könül həsrət girdabına düşsə bircə an,
Ruhumuza darlıq edir geniş asiman.
O da var ki, daha nurlu olur eşqimiz,
Aralığa hər gəldikcə ayrılıq, hicran

Orda vay-şüvəndi, burda toy-büsat,
Təzadla doludu qoca kainat.
Şər olmasa xeyir dönərdi heçə,
Təzaddan doğulub anamız həyat.

Kainat milyard illər gecə-gündüz çalışdı,
Şüur adlı bir çıraq nəhayət ki, alışdı.
Bir zaman qocalanda, yetişəndə son günü,
Şüurdan alacaqdır cahan təzə ömrünü.

Əlil olsam çağrışın dərhal yeridər məni,
Yuxuma gəlməyin də, gülüm, kiridər məni.
Səni bir də görməsəm, köç etmərəm dünyadan,
Zəfər quyusu belə, sanma, çürüdər məni.

Tədbirlinin anası əli qoynunda qalmaz,
Çarəsiz dərd nə gəzir, əgər düşünsən bir az.
Gərəkdirsə çıxarmaq quyudan ağır daşı,
Dəliləri o yerə yaxın buraxmaq olmaz.

İnsan oğlu, idraka qiymət qoy, yaxşı tanı,
Sonsuz olub, sonsuzdu onun hər cür imkanı.
Onunla bu dünyanı göyə sovurar, həm də,
Min cür qura bilərsən səadətli dövranı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə gözəldir təbiət, al geyinmiş o çəmən;
Hər baxışda yenidən vurularam ona mən.
Kainat imkan verməz insan nəsli kəsilsin,
Yoxsa, kim söhbət açar onun gözəlliyindən.

İnsan oğlu, təbiət aciz qalıb önündə,
Qəflətdən oyan, bil ki, fərqi var bir günün də.
Sən məhv etməyə deyil, yaşatmağa yarandın,
Onu xilas elə ki, yaşayasan özün də.

Adəmdən bəriyə talan dünyadı,
Gözümüz önündə solan dünyadı.
İnsan, belə getsə gəldi-gedərsən,
Dünya da viranə qalan dünyadı.

Rast gəlmişik belə biz,
Əsla deyil səbəbsiz;
Min yol yaransaq, min yol
Tapışardıq, şübhəsiz!

Baxma tutur dünyanı yeriş edincə bahar,
Bircə yarpaq da sınsa, könlüm fəqan qoparar.
Dağları da qoruyaq, düşməsin bircə daşı,
O şey ki, yaranıbdı, yaşamağa haqqı var.

Dünyanın taleyinə cavabdehik biz indi,
Unutmayaq ki, tikmək sökməkdən çox çətindi.
Gözəldi, - deyə cumub qamarlama dünyanı,
Əslində o bizim yox, gələn nəsillərindi.

Səni haraylasalar, çalış çatasan dada,
Sevinc payla, gülüş al, kim möhtacdı fəryada?
İllər quş qanadlıdı, bəri başdan fikirləş,
Köçüb gedəndə səndən nə qalacaq dünyada?!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bircə bənövşənin də həyatda öz yeri var,
Düşünmə ki, bitəcək bir də gələndə bahar.
Hərə bir yarpaq qırsa, solar bütöv bir meşə,
Hərə bir gül bitirsə, dünya laləzar olar.

Təbiət bir dənədi, gör nə qədər çoxuq biz;
Hərə bir dəfə keçsə çəməndən qalarmı iz?
Demə damcı nədir ki, yaxşı düşünsən əgər,
Yığılsa göl yaranar, axsa quruyar dəniz.

Əzəldən yer üzündə nə cür insan desən var,
O, şöhrət, mənsab gəzir, bu sərvətə olub yar.
Əsil səadət yoxdu onların heç birində,
Çalış ki, ürəyində tükənməsin arzular.

Həsrətin qəlbimdə közdü, nə xeyri?
Min belə əzaba dözdü nə xeyri?
Qəlbindən qəlbimə yoxsa əgər yol,
Dilin söyləsə də, «düzdü», nə xeyri?!

Bir vaxt cüt çəkildi adınla adım,
Oldun bu dünyada qolum, qanadım.
Ürəkdən ürəyə yol var deyərdin,
İndi niyə çatmır sənə fəryadım?!

Heyran eyləyibdi bax bu sirr məni,
Gəl sən ondan agah eylə bir məni;
Aqillərdən öyrənirəm həyatı,
Nadanlar, paxıllar işlədir məni...

Getmə, insaf eylə, dayan cavanlıq,
Arzumu gözümdə qoyan cavanlıq!
Qocalıq çağından bütün keçərdim,
Əgər geri dönsə bir an cavanlıq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ünsiyyət et səni tənqid edənlə,
Bibərdən də acı sözünü dinlə.
Ondan zərər deyil, xeyir görərsən,
Dostundu, sanma ki, düşməndi sənlə.

Pənah, bil ki, tərif yatırır səni,
Mənəm-mənəmliyə çatırır səni.
Qızıl bir qayığa qoyub astaca,
Aparıb dərində batırır səni.

Layiqli mövqe tutmaq əsla deyildir asan,
Gərək halal zəhmətə qatlaşıb ucalasan.
Günəş tək nurlu məqsəd olmalıdır dayağın,
Allahlıq istə, bəlkə, peyğəmbərlik alasan.

Xeyirlə şər qoşadı, əzəl gündən, hər yanda,
Görünür ki, qoşa da qalacaqdır cahanda.
Məhəbbət dilə düşüb ədəbilik qazanır,
Ona ayrılıq, hicran, həsrət özül olanda.

Həsrət uzun çəkir, belədir adət,
Çiçək ömürlüdür ancaq səadət.
Vüsal dəmlərində gün ana dönür,
Ayrılıqda hər an il olur fəqət.

İşıq var, zülmət var, ağ var, qara var;
Həyat yaranandan çarpışır onlar.
Yaşamaq istəsən əgər dünyada,
Onların birinə olmalısan yar.

Tarix boyu didişmək olsa da ona adət,
Özgə bir yol qalmayıb, gərək birləşsin xilqət.
Axı qan qardaşıyıq, bir atanın oğluyuq,
Fərqi yox kim haqlıdı, Darvin, yoxsa Məhəmməd.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər nə qədər öyrənsək, yenə sirri yeddi qat;
Sonsuzluq təməlində qurulubdu kainat.
Kim nə zaman gəlibdi bu cahana, fərqi yox,
Şirin olub, şirindi, şirin olacaq həyat.

Nə yazdımsa bir «şair» dedi, - min yol deyilib, -
Hardan bilsin görməmiş, nar nə təhər yeyilib?!
Qızıl gülə əbədi deyiləcək, - gözəldi, -
Milyon cür papaq olub, ancaq bir cür geyilib.

Məhəbbətsiz can olmaz,
Günəşsiz cahan olmaz,
Gərək yazım, yaradım,
Şairsiz zaman olmaz!

Çox sevsən də insanı,
Öz yerini bil, tanı.
Dünya belə qurulub,
Sənə yer verən hanı?!

Aşiqin gözündə dünya al geyər,
Quru səhralar da ona gəl deyər.
Vüsal əvəzsizdi, bir hicran günü
Sevdasız yaşanan min ilə dəyər.

Saxta yaşaya bilməz bilinsə ki, saxtadı,
Yalanın da alnına yazılmayıbdı adı.
Daha səliqəlidi qəlp pullar adi puldan,
Şəkərə qatılır ki, itsin zəhərin dadı.

Gözəllik deyilənə borcludu bəşəriyyət,
Onun meyvələridi vüsal, hicran, məhəbbət.
Yarım gözəl olmasa vurulmazdım dəli tək,
Odlu nəğmələrim də doğulmazdı nəhayət.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözəllik əsiriyəm deyə danlama məni,
O deyilsə, həyata nədir bağlayan səni?
Sevməzdin qızıl gülü, əgər gözəl olmasa,
Çiçəkli olmasaydı gəzərdinmi çəməni?!

Heç zaman düşünmə ki, çirkin yaranmışam mən;
Əməlidi insanın hüsnünü təyin edən.
Ətrafına yaxşı bax, ola bilsin bax bu an,
Kiminsə nəzərində dünya gözəlisən sən.

Hökm etməyə tələsmə, unutma ki, bircə an,
Nisbilik üzərində qərar tutub bu cahan.
Səni gözəl görəni qoru iki gözün tək,
Çirkin sayan kimsədən uzaq dayan hər zaman.

Düşmənlər bir kənara, bəxtim kəsildi qənim;
Belə gecikərdimi yoxsa könül həmdəmim.
Qocalıq zəiflikdi, dözmərəm gücsüzlüyə,
İlahi, gecikməsin taki ölümüm mənim.

İnsan ömrü yaşamaq əsla deyildir asan;
Kimsə isinsin deyə alışasan, yanasan.
Şahin kimi yaşasan beşcə gün də bəs edər,
Dəyməz, quzğun tək yüz il artıqla dolanasan.

İnsan, silkin, oyan, gözlərini sil,
Həyat möcüzədi, qiymətini bil!
Kainatda hər şey dövr edir ancaq,
O, bir atom belə itirən deyil.

Nə zamansa tərəqqi yüksək olubdu, şəksiz,
Dünyaya yaxşı baxsan, tapacaqsan neçə iz.
Ağılsız bir addıma qurban gedibdi onlar,
Bilə-bilə o səhvi gərəkdi etməyək biz.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsan oğlu, hər yerdə qələbələr çalmısan,
Sən bütün kainata şəraf, şöhrət olmusan.
Həm də bəd əməllərin həddini aşdığından,
Onların qarşısında əsir olub qalmisan.

Qüdrətlisən, kamilsən, ağıllısan, amma sən
Bəs nədəndi nəfsinə bir bu qədər əsirsən?
Öz əlinlə özünə qazırsan dibsiz quyu,
Oturduğun budağı nə ağılla kəsirsən?

Aydın gün, aylı gecə, çəmən, çiçək, duman, çən –
Gözlərim nə görürsə heyran kəsilirəm mən.
Bu boyda kainatın yox özündən xəbəri,
Onun hər bir üzünü tək insandır dərk edən!

Vüsal yar edir yadı,
Budur həyatın dadı.
Hicran da səadətdi,
Tuş etsə də fəryadı.

Bilirəm cahan nədi,
Cin nədi, şeytan nədi.
Hər əmələ qul olur,
Bilmədim insan nədi.

Hicranın işi bitsin,
Bütün dünyadan itsin.
Nəzərdən salsan məni,
Günəş necə isitsin?!

Gendən baxmaqla sənə
Nur süzülür qəlbimə.
Gülüm, sən olan yerdə
Günəş nə lazım mənə?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Daha görüşməyə gəlməyəcəksən,
Bu eşqi mənimlə bölməyəcəksən.
Köçüb bu obadan getmisən, ancaq,
Ürəyimdən köçə bilməyəcəksən.

Sevib sevilməsən ölüsən demək,
Bir tərəfli sevda alarmı kömək?
Əgər qarşılıqlı olsa məhəbbət,
Daş üstə gül açar hər arzu, dilək.

Hüsnündü cahanda mənim Günəşim,
Bəri bax, açılsın sabahım mənim.
Ah çəksəm göylərin sönər atəşi,
Qalsın ürəyimdə qoy ahım mənim.

Palıd boy atarmı işıq almasa,
Kökünü torpağa dərin salmasa?
Bunun mində biri ola bilməzdim
Atamın xisləti kömək olmasa.

Tufanlar içindən yol salacaqsan,
Əgər əməlində tam ola bilsən.
Elinə, yurduna nur saçacaqsan,
Öz evində yanan şam ola bilsən.

Dünyamız göylərə tutub üzünü,
Ondan nur alardı tarix uzunu.
İndi şəhərlərin gecələrindən,
Ödəyir borcunu, qaytarır onu.

Dinləyən zövq alır nəğmələrimdən.
Sənin yanındasa tutulur dilim.
Məni elə aciz, fərsiz bilmə sən,
Sevda  dünyasında qaydadı, gülüm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilmirsən ağlayır, bilmirsən gülür,
Haldan-hala düşür sevəndə ürək.
Kədər, əzab, hicran bola-bol gəlir,
Olsun, biganəlik nəyimə gərək?!

Kim dünyada bir iz qoya bilmədi,
Min il ömr eləsin, mənası nədi?
Həyat da, ölüm də, varlıq deməkdi;
Biri müvəqqəti, biri əbədi!

Sərt baxdın üzümə, gülüm bir anda,
Yaz qışa çevrildi sanki cahanda.
El məni duymasa dözərdim yenə,
Ancaq necə dözüm sən duymayanda?!

Əzizlə yüz parça olan dünyanı,
Başını bəlaya salan dünyanı.
Azadlıq nə şeydi, bilmək istəsən,
Qoşul buludlara dolan dünyanı.

Sevgidi Günəşi sərgərdan salan,
Gəzir fəzaları, dincəlmir bir an.
Gör onun nə böyük bir eşqi var ki,
Qaynar göz yaşları axır durmadan?!

Buludlar çaxnaşdı, göylər hönkürdü,
Çöllərə səpilən incidi, dürdü?!
Görəsən onlar da sevgilisini,
Təzəcə itirdi, ya indi gördü?

Gətirdin ömrümə çiçəkli bir yaz,
Dindi varlığımda şirin bir avaz.
Gen gün də, dar gün də həmdəm istəyir,
Onsuz keçən günlər ömür sayılmaz.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Yola ki çıxmısan, dizini gözlə,
Yerində din, danış, sözünü gözlə.
İstidən, tərifdən ölən olmayıb,
Soyuqdan, tənqiddən özünü gözlə.

Dedin, «Sənsizliyə dözməyir ürək,
Hər gün bircə anlıq üzünü görək».
Qəlbində surətim varsa, bax ona,
Yoxdusa, özümü görmək nə gərək?!

Sadiq könlüm düz yolunu azarmı,
Özgə odla alışarmı, qızarmı?!
Bu qədər ki, qəlbən sənə bağlıyam,
Tale səni özgəsinə yazarmı?

Camalı gözəllər Günəş tək yanır,
Hər bəşər onları axtarır, anır.
Qəlbin gözəlliyi görünmür ancaq;
Həyat deyiləndə ədalətə bax?!

Bircə anlıq otağından çıxsana?
Həsrətinlə az yandırıb, yaxsana?
Bu zamanda sevgi yoxdu, deyirsən;
Bir diqqətlə gözlərimə baxsana.

Ömürdən bir anı hədərə vermə,
Yaxanı qəzavü-qədərə vermə.
Dövran necə tutsan elə gedəcək,
Könlündə meydanı kədərə vermə.

Yaxşılıq zirvədi, enəsi deyil,
O bir Günəşdir ki, sönəsi deyil.
Cəsarət meydanda təklənə bilməz,
Ürək öz eşqindən dönəsi deyil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İlham ki var, hər  nazına dözürəm,
Gecə, gündüz qulluğunda hazıram.
Bəzən olur, çağlayıram bulaq tək,
Bəzən olur, hecalayıb yazıram.

Hər cürə nemətə anadı zəhmət,
Şöhrətə, ad-sana binadı zəhmət.
Bir insani pillə yüksələ bilməz
Kimin xislətindən yanadı zəhmət.

Eşqsiz bir ürək şad ola bilməz,
Onda bircə qətrə od ola bilməz.
Hər kimə məhəbbət salsa xoş nəzər
Səadət ömrünə yad ola bilməz!

Qoruya bilməzsən adı, vüqarı,
Halal qazanmasan şöhrəti, varı.
Tarix yaşadarmı, bəşər anarmı
Özgə hesabına yaşayanları?!

Gəzdim dost diyarı, çaldı qəlbimi,
Ürəkdən danışdım, ürəkdən güldüm.
Ancaq qucağına qayıdan kimi,
Ey vətən, el demiş, imana gəldim.

Sonacan içmişəm eşq adlı camı,
Odur mənə verən sönməz ilhamı.
Köçürük desələr, əgər, bir zaman,
Əvvəl götürərdim eşqə inamı.

Beşcə addım o yanda partlasa top mərmisi,
Əsər etməz könlümə, sanki qulağı kardı.
Əsrlər arxasından gəldi Məcnunun səsi,
Könlümün dünyasında san ki, tufan qopardı.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Sevib sevilməyirsə, ürək bir parça ətdi,
Bir tərəfli vurulmaq məhəbbətdə adətdi.
Belə halda səadət yarımçıqdı dünyada,
Sevib sevilsə könül, bir əvəzsiz sərvətdi.

Bütün xilqət sevsə səni, cəmisi mən qədər sevməz.
Çoxu vüsala meyl edər, həsrət, hicran, kədər sevməz.
Biganələr yetişsə də, şirin yarın vüsalına,
Yar yolunda məşəqqəti, sanar yersiz, hədər, sevməz.

Bir qaydadı, cavan ikən, can atırıq uzağa,
Ancaq gec-tez xəzan gəlir, hər baxçaya, hər bağa.
Bilirik ki, imkan qədər yaratmadıq cahanda,
Utanırıq, bel bükülür, gözlər enir torpağa.

İcazə ver sevgilim, hərdən adını anım,
İşıqlı eyvanına qaranlıqdan boylanım.
Sevincini tək yaşa, mənim payım da sənin,
Kədərinin oduna alışım, təkcə yanım.

Heç olmasa xəyalın bir yol dindirsin məni,
Xülyalardan qoparıb yerə endirsin məni.
Elə alovlanmışam həsrətinin oduna,
Ümman da kara gəlməz, çətin söndürsün məni.

Bu həyatın anasıdı, hər varlığı yer doğur,
Tülkü-çaqqal balalayır, amma aslan bir doğur.
Hər nə qədər öyrənsək də yarımçığıq, yarımçıq,
Kainatda xasiyyətdi, tükənməyən sirr doğur.

Eşq deyilən saf vicdanın işidi,
Onu tapmaq bircə anın işidi.
Əgər bir gün yollarımız yad olsa,
Tale demə bir şeytanın işidi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Necə olub ixtiyarım almısan?
Gör bir kimi sən qəfəsə salmısan.
Xəyalındı köçüb gedən bu eldən,
Özün burda, ürəyimdə qalmısan.

Fələk deyilənin puçdu ilqarı,
O, kimin sonacan olubdu yarı?
Güvənmə şöhrətə, dövlətə, vara;
Bəzən öz balında qərq olur arı.

Çox zaman görürsən, bilmədən niyə,
Ümidlə baxırıq biz gələcəyə.
Necə sevinirdik bura gələndə,
Daha da xöşbəxtik gedirik deyə.

Nə qədər yaşasa həyatda insan,
Ya xeyrə, ya şərə əsirdi hər an.
Bağışlanar, kimsə xeyir görməsə,
Taki heç kim səndən çəkməsin ziyan.

Yerində, vaxtında gəldin cahana,
Şöhrət oldun ona, şan oldun ona.
İnsan, elə dolan, qoy həyat səni
Peşiman olmasın yaratdığına.

Kimsəyə yamanlıq eyləmə əbəs,
Nə var-dövlət axtar, nə də şöhrət gəz.
Yaxşı, ya da pis ad qazancdı bizə,
Kimsə ayrı bir şey apara bilməz.

Canan naz eyləsə, naza könül ver,
Çəmənə, çiçəyə, yaza könül ver.
Ömür ki bircədi, qəmdən uzaq gəz,
Kamana könül ver, saza könül ver.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsan ulduzları tora salacaq,
Hələ çox sirrlərə vaqif olacaq.
Ancaq Allah qədər güclənsə belə,
Dünya haradandı – bu sirr qalacaq.

Kişi doğulmasa, bilir ki xilqət,
Heç bir kəsi kişi etməyib sərvət.
Kişilik və sərvət birləşsə əgər,
Eləsinin başı göylərə dəyər.

Sərvətin sahibi namərdsə əgər,
Bəşərə düşməndi, zəhərdi, zəhər.
Kişinin əlində toplansa ancaq,
Elin hər dərdinə dərman olacaq.

Ən baha nemətin qızıldır adı,
Kim fani dünyada ona uymadı?
Əli çatmayanlar söydü doyunca,
Əli yetişənlər əsla doymadı.

Mən yaxşı yazdıqca, sən bir işə bax,
Tənqidçilər daha bərk sıxır ancaq.
Təbaşir təzyiqdən mərmərə dönür,
Bərk sıxsan kömürü almaz olacaq.

Həsrət, əzab sevən qəlbin yolçusu;
Onsuz saflaşarmı hissi, duyğusu.
Çarpışıb, vuruşub sərt qayalarla
Ümmana yetişir, azad olur su.

Hər yerdə, hər zaman düz danışıb mən
Beş dost qazanmışam, minlərlə düşmən.
Düz göstərən güzgü, diqqət elə bir,
Sevincdən daha çox qüssə gətirir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Min il də torpaqda qalsa əgər zər,
Nə bir pas götürər, nə də əksilər.
Ondan milyon dəfə qiymətli canlar
Tezliklə çürüyüb torpağa dönər.

Həyat deyilən şey kimə xoş deyil,
Şirindi şərbəti, kim sərxoş deyil?
Təpədən dırnağa sirli kainat
Hikmətlə doludu, duysan, boş deyil.

Sönməz həyat eşqi – insan xisləti,
Göylərə qaldıran odur xilqəti.
Bu boyda cahana «fanidi» demə,
Heçliyə dönməyə tələsmə qəti.

İnsan deyilənə bir diqqətlə bax,
Onun hər əməli adətdi, ancaq.
Həyat gör-götürdü, məlumdu bu da;
Kim olsan övladın ötə olacaq.

Təbiət düşüncə verib insana
Onunla şah etdi bütün cahana.
Kəskin seçilirsə ağ ilə qara
Pisliklər nə sayaq gəlir meydana?

Ömür dedikləri gəlib keçəcək,
İstər kədər daşı, istərsə kef çək.
İnsanlığa layiq olmaq istəsən,
Hər şeyin həddini biləsən gərək.

Bəxt dediyin nədi, quru bir səda,
Yalnız halal zəhmət yetişir dada.
Yorğa olsa belə qonşunun atı,
Ona ümid olan qalar piyada.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kim eşq əsiridi səsləyir onu,
Tale ulduzu tək izləyir onu.
(Eşqə inanmıram deyənlər belə,
Əslində həsrətlə gözləyir onu).

Vəfa var gözəlin mində birində,
Aydındı mənası, gəzmə dərində;
Dağın zirvəsində qalır gözümüz,
Yaşamaq mümkündü ətəklərində.

Yaş ki, yarı oldu tez keçir illər,
Göz açıb yummamış ötür fəsillər;
Zirvəyə zillətlə qaldırılan daş,
Ordan bircə anda aşağı enər.

Dilimin əzbəri oldun bir zaman,
Adınla yuxudan oyandı hər yan.
Bir yolluq qəlbimə köçəndən bəri
Daha eşitməyib o sözü cahan.

Gəlirsən yenidən doğuluram mən,
Dünyadan köçürəm hər gedəndə sən.
Nə qədər təzadlı yaranıb cahan,
Getməsən yenidən necə gələsən?!

Deyirlər ki eşqə meyil salmayım,
Keçdiyin yollarda düşüb qalmayım.
Sən Leylidən qəmzəlisən min dəfə:
Mən necə Məcnundan betər olmayım?

Halımı görənlər danlayır məni;
Məcnunların dövrü keçibdi yəni.
Ancaq əhvalıma gülənlər ki var,
Məndən bəd olardı görsəydi səni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hansı bir əməli eyləsə adət,
Gec-tez bəhrəsini görəcək xilqət.
Eşqin meyvələri, əzəldən bəri,
Hicrandı, həsrətdi, bir də əziyyət.

Həyat deyilənin açıqdı nərdi,
Bəzən uduzdurur namərdə mərdi.
Yaşamaq heç zaman olmayıb asan,
Özünə görədi hər kəsin dərdi.

Gənclikdə zəfərlər çal, bəs deyincə,
Həyatdan kamını al, bəs deyincə.
Ömrün zimistanı yetişən zaman
Şirin xəyallara dal, bəs deyincə.

Aşiq məhəbbətdən doymuşam deməz,
Ona nahaq yerə uymuşam, deməz.
Nadan düşünər ki, bilir hər şeyi,
Aqil, bu dünyanı duymuşam, deməz.

Əgər ağır durub otursa bir kəs
Hər yetən yerindən oynada bilməz.
Nə qədər yüngüldü, buludlara bax,
Mehin də əlində olur oyuncaq.

Odlu bir ürəklə dolan dünyanı,
Yüz məna daşısın ömrün hər anı.
Elə ki qovuşdun əbədiyyətə
Bir də bu cahana qayıtmaq hanı?

Görən göz olsa da, duyan ürəkdi,
Demək, sevgi varsa canan qəşəngdi.
Eşqi zərrə qədər olan bir kəsin
Dözümü göylərdən dərin gərəkdi.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Basılar döyüşçü, qeyrət olmasa,
Qəlbində düşmənə nifrət olmasa.
Heç də qürrələnmə, güclüyəm deyə,
O bir ucdan dönüb nemət olmasa.

Zəhmət hər insana don ola bilər,
Qayğıyla bir dönüb on ola bilər.
«Bu günün işini sabaha qoyma»,
Hər an həyatında son ola bilər.

Eşqin sorağında gəzən mənəm, mən.
Dibsiz göylərində süzən mənəm, mən.
Nə görüş, nə vüsal deyil təmənnam,
Hicrana, həsrətə dözən mənəm, mən.

Azəri elinə vətəndaşam mən,
Demək ədalətə bir qardaşam mən.
Sənin xoş gününə kəc baxan kəsin
Başına düşəsi, vətən, daşam mən.

Qışda gül açmaqla yaz olmasa da,
O gül bahardakı min gülə dəyər.
Bir gül saralmaqla yaz solmasa da,
Gərək hər çiçəyi qorusun bəşər.

Hamı dörd göz ilə göz qoyur sənə,
Onsuz da gözəlsən, bəzənmə yenə.
Ceyranın buynuzu, durnanın teli,
Çox vaxt səbəb olur fəlakətinə.

Həyat təkrar sevmir, hər insan təkdi,
Kim necə görünsə səbəb ürəkdi.
Çirkin iş çirkinə yaraşmır belə,
Gözəl hər cəhətdən gözəl gərəkdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kimsə bilə-bilə edirsə qəza,
Ona irad tutmaq nəyə gərəkdi?
Belə insanlara ən böyük cəza
Sinəsində olan naqis ürəkdi.

Min illər boyunca deyərdi insan,
Dağılacaq bizim əməldən cahan.
Əfsus, artıq ona qadir olmuşuq,
Kifayət eyləyər buna bircə an.

Bədbəxt yaranmayıb dünyada heç kəs,
Mütləq xöşbəxti də axtarma əbəs.
Heç kəs deməsin ki, qəm payım çoxdu,
Dirilikdən böyük səadət yoxdu.

Həyat xəyal deyil, gerçəkdi, gerçək;
Yerində qüssələn, yerində kef çək.
Ən böyük səadət səninlədi, bil,
Neçə ki, sinəndə döyünür ürək.

Doğuldun – xöşbəxtlik üz verdi sənə,
Qoy həyat eşqiylə qabarsın sinə.
Milyon il torpağın altında yatmaq
Dəyməz bircə anın diriliyinə.

Cahan əbədidi, belə qalacaq,
Heç kəsdən asılı deyildir, ancaq
Desən həqiqətdi, həqiqətdi o,
Fanidi söyləsən, fani olacaq.

Dünyanın zinəti, həyatın nuru,
Ellərin gözüsən gənclik, a gənclik!
Əməlin, amalın sulardan duru,
Yaddır varlığına sükunət, dinclik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ürəyə qısqanclıq tapsa əgər yol
Səadət itəcək, buna əmin ol;
Burda da qoşadı xeyir ilə şər,
Yalnız sevən kəslər qısqana bilər.

Göylər ağlamasa göllər dolarmı?
Yanmasan ətrafın işıq alarmı?
Ölümlə bitməsə hər ömrün sonu
Yaşamaq bu qədər şirin olarmı?

Məcnunlar, Kərəmlər yarına yetmir,
Dönür əfsanəyə, izsiz də itmir.
Sonu səhər olur hər bir gecənin,
Ancaq əsil hicran vüsalla bitmir.

Axır söz həyatda dəyanətindi,
Şərəflə ömr edir, kim ki mətindi.
Heç vaxt «yaşamaqdan bezmişəm» demə,
Axı, köçüb getmək daha çətindi.

Qoşul bülbüllərə çöldə, çəməndə,
Üzmə ürəyini kədərdə, qəmdə.
Qoy ömrün hər günü toy-bayram olsun,
Çünkü köçəcəksən, istəməsən də.

Dedilər «özünə get peşə axtar,
Məhəbbətdən təzə nə demək olar?»
Dedim ki, «təkrardan uzaqdı cahan,
Hər şeyda bülbülün öz nəğməsi var.»

Bütün ömür boyu gəzir hər xilqət,
Sağlam can, xöşbəxtlik, bir də səadət.
Ancaq ki, bəşəri insan eyləyən,
Olubdu hər zaman sevgi, məhəbbət.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ömür var ki uca keçir,
Ömür də var bica keçir.
Nə qədərdi, əsas deyil,
Əsas odu, necə keçir.

Sevmək insana adət,
Onsuz yoxdu səadət.
Həyat min dona girir,
Dəyişməzdi məhəbbət.

Öz tayını axtar göz,
Onsuz bu dünya qəfəs.
Günəş isitməyəni
İsidir doğma nəfəs.

Hər an dəyişsə də kainat, ancaq,
Məhəbbət, sədaqət belə qalacaq.
Demək şe'rlərim, durduqca cahan,
Sevən ürəklərə həmdəm olacaq.



**1111111247899**

**(11.12.1940)**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# İTHAFLAR



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# USTAD

***Elm aləmində bələdçim, böyük alim, gözəl insan, əsil müəllim Məmməd Mirzə oğlu Mövsümzadənin 100 illik yubileyi münasibətilə***

Dünan Nailə xanım[1]
Zəng etdiyi zamanda,
Xəyalım qırx il geri
Səfər etdi bir anda.
Gördüm imtahandayam,
Qəbul edən sən idin,
O anda nəzərimdə
Yaradanla tən idin.
Əliməmməd Şabanovla[2]
Məndən razı qaldınız,
Ədalət simvolu tək
Gözümdə ucaldınız.
O sayaq könlümdə
Yeriniz durub qoşa,
İlahi, ömür nə tez
Gəlib yetişib başa.
Üçümüz elm yolunda
Külüng vurduq yanbayan,
Zəfər ilə ötürdü
Ömrümüzdən hər bir an.
Sən zamanın nəbzini
"Tutanlardan" deyildin.
Nə şöhrətə can verdin,

[1] Məmməd müəllimin yetirmələrindən biri, hal-hazırda Neft Akademiyasının elimi-pedaqoji əməkdaşı
[2] Məmməd Müəllimin yetirməsi, hal-hazırda Neft Akademiyasının professoru



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə də firqəyə girdin.
Ləyaqətlə doğrultdun
Sən müəllim adını,
Şan-şöhrətə çatdırdın
Nəslini, soyadını.
Səndən elm, ürfan, həm də
İnsanlıq öyrənirdik.
Odur ki, yaşayırıq
Alnı açıq, başı dik.
Sən doğrultdun adını
O dolaşıq zamanda,
Özgə cür olmur,
Varsa əsilzadəlik qanda.
Adın peyğəmbər adı,
Məsləkcə islam idin,
Tanıdın halallığı,
Haram tikə yemədin.

Hələ cavan yaşından
Atanı etdin əvəz.
Altı bacın var idi,
Bunu bilir ki, hər kəs,
Böyütdün, təhsil verdin,
Çatdırdın səadətə;
Eşq olsun qəlbindəki
Tükənməz dəyanətə!

Ulu Tanrıdan sənə
Tükənməz rəhmət olsun,
O müqəddəs ruhunun
Qoy yeri cənnət olsun.
Belə deyir hər bir an
Nəvə-nəticələrin,
Bir də hesaba gəlməz



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Sadiq yetirmələrin.

Dünya hardan gəlib, gedir haraya,
Bəlkə sən xəbərdar olmusan, Ustad?!
Axı, çoxlarının həyat yoluna
Günəş kimi işıq salmısan, Ustad!

Sənin əbədi şöhrət, şərəf, şan,
Qədirbilənləri unutmur, İnsan.
Sevən ürəklərdə yaşayacaqsan,
Bu sayaq qələbə çalmısan, Ustad!

Bu qızıl qaydadır, nədir niyyətin,
Ona uyğun olur axır qismətin;
Pənah əmindir ki, gözəl cənnətin
Qoynunda yerini almısan, Ustad!



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# HABİL

***Bütün dövrlərin ən qüdrətli musiqiçisinə, Habil Kamana***

Ulu Tanrım, şükür sənə,
Yenə kaman çalır Habil.
Bircə anda hakim olur,
Hopub qanda qalır Habil.

İnlədikcə muğam asta
Cana gəlir ağır xəstə,
Yamanlıqla durub qəsdə,
Fələkdən bac alır Habil.

Bəxtiyardı doğan ana,
Alqış ona, rəhmət ona.
Günəş kimi bu cahana
Bol-bol işıq salır Habil.

Gəzişdikcə pərdə-pərdə
Məlhəm qoyur neçə dərdə.
Heykəlləşir ürəklərdə,
Əbədilik olur Habil.

Ona qoşul, onunla yan,
Pənah, bunu səadət san.
Bəşər oğlu, silkin, oyan,
Gör hara ucalır Habil!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*****

Sən çaldıqca hər duyan can,
Qovuşur bahara, Habil!
Möcüzələr yaradırsan,
Alqış sənə, ura, Habil!

Yenə yumubdu gözünü,
Yenə unudub özünü,
Çalır qəlbinin sözünü,
Sanki yetib yara Habil!

Tanrım hifz eləsin səni,
Unutdurdun dərdi, qəmi.
O ilahi çalğın məni
Gör ucaldıb hara, Habil

O sədalar, sirrli səslər,
Səadətə bizi səsələr;
Şeytana aldanan kəslər,
Çəkilirlər dara, Habil!

Pənah üçün xəzan ötdü
Tər çiçəklər, güllər bitdi;
Bu qarışıq zaman bitdi,
Cənnət oldu bura, Habil!



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BILMƏZ

***Bütün dövrlərin ən qüdrətli***
***sazzəni aşıq Ədalət Nəsibova***

Dünya solar, Ədalətin
Sənət bağı sola bilməz.
Heç fələk də qara sazı
Onun kimi çala bilməz.

Qulaq versən ona bir an,
Durulur qan, saflaşır can.
Tək yaradıb onu dövran,
İkincisi gələ bilməz.

Hər çalğısı bir özgə sirr,
Yoxdu nöqsan, gəzmə kəsir...
Pənah Göyçə əsiridir,
Özgə cür də ola bilməz.

## ƏDALƏT

Odur, qara sazı basdı döşünə,
Yandırıb yaxacaq yenə Ədalət.
Bu, Allah sədası, Yaradan nuru,
Söylə, necə düşdü sənə, Ədalət?!

Elə ki, mizrabın tellərdə gəzir,
Dağlar da, daşlar da çəkməyir hənir.
Sənə qulaq assa ən qansız kafir,
Bağlanar imana, dinə, Ədalət!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pənah Göyçə neçə illərdən bəri,
Qoxlayır Göyçədən əsən yelləri...
Xoşbəxt gələcəyə səslə elləri,
Qoyma həyat eşqi sönə, Ədalət!

## ƏDALƏTIN

Bu cahana tək gəlibdi,
Tayı hanı Ədalətin?!
«Ruhani»si əfsunlayır
Hər insanı Ədalətin.
Yer üzünü fəth eləyib
Adı, sanı Ədalətin.
Qadir Allah, sağlam olsun
Daim canı Ədalətin;
Yüz yaşasın, tükənməsin
Bu imkanı Ədalətin.

Şükür sənə, Yaradanım,
Xoş anında yaratmısan,
Bu dünyada, bu ölkədə,
Bu zamanda yaratmısan.
Belə qüdrət, belə şöhrət,
Belə şanda yaratmısan,
O xislətdə, o sifətdə,
Elə canda yaratmısan;
Qoy bəzəsin bəxt ulduzu
Kəhkəşanı Ədalətin.

Təkdi sənət aləmində,
O üzükdə nadir qaşdı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İfasına bənzər yoxdu,
Saz çalmaqda təkdi, başdı.
Hər kəs onu duyumayırsa
Köksündəki qara daşdı.
Meydanına çıxan hanı,
Çıxmamışdan dönüb qaçdı.
Duyanlarla cərgələnib
Dörd bir yanı Ədalətin.

O çalanda qızılgüllər
Özgə cürə ətir saçır,
Xəzan almış budaqlar da
Cana gəlib çiçək açır.
Məclisinə şeytan gəlməz,
Baş götürüb nifrət qaçır.
Xoş arzular qanadında
İnsan oğlu quş tək uçur.
Pənah Göyçə, ömrə dəyər
Hər bir anı Ədalətin.

## ÇALA, ÇALA

Ədalət sehrindən çıxmaq olarmı?!
Elə istəyirsən o çala, çala.
Kimi kaman sevir, kimi ney sevir,
Kimi deyir könlüm o çala, çala.

Qara sazdı bu gün mənə yar adı,
Bəlkə mənim baş dərdimə yaradı.
Bir həsrətdə qəlbim tamam yaradı,
Eyləyib bağrımı, o, çala-çala.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ay Ədalət, yetsin səsim sənə di,
Həsrət çəkir Pənah neçə sənədi.
Qardaş, artıq ümid təkcə sənədi,
Məlhəm qoy yarama, o, çal a, çal a!

## ƏDALƏT

Dədə Qorqud dünyasından yadigardı Ədalət,
Saz deyəndə bircə dənə sənətkardı Ədalət.
Nə qədər ki, dünya durur var olacaq həyatda,
Şaxta vurmaz, xəzan bilməz bir bahardı Ədalət.

Əbədiyyət qazanıbdı mizrabından «Kərəmi».
Təzə, əlvan don geyibdi «Göyçəgülü», «Dilqəmi».
Ona könül verənlərin yox kədəri, yox qəmi,
Hər bir sənət vurğununa dostdu, yardı Ədalət.

Ən ali bir dilək ilə üz tutubdu cahana,
Car çəkir ki, qardaş olsun gərək insan insana.
Pənah Göyçə, daha böyük uğur dilə sən ona,
Bu torpağa, bu millətə iftixardı Ədalət.

## ƏDALƏTIN SAZI

Qışın ortasında boylanır bahar,
Daha məğrur olur vüqarlı dağlar.
Kəsir zümzüməni ayna bulaqlar,
Əfsunla, sehrlə dolur bu cahan,
Ədalətin sazı dillənən zaman.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bayram paltarı geyir təbiət,
Özünü dərk edir bəlalı xilqət.
Sevgi qalib çıxır, yox olur nifrət,
Ömürdən sayılmır ötən hər bir an,
Ədalətin sazı çağlayan zaman.

Pənah, mehir salır ona qızılgül,
Odur ki, yarışa atılır bülbül.
Möhnətdən sıyrılır nisgilli könül,
Cənnətməkan olur hər duyğulu can,
Ədalətin sazı dillənən zaman,
Ədalətin sazı çağlayan zaman.

## ƏDALƏTIN

Tanrı özü nur çiləyib camalına Ədalətin,
Əllərinə, dillərinə, kamalına Ədalətin.

Haqqa əziz, ellərə də əziz olur hər bir zaman,
Qara sazla qovuşuruq vüsalına Ədalətin.

O çalanda göz yumulur, uçur özgə bir aləmə,
Ya Rəbb, bu vaxt nələr gəlir xəyalına Ədalətin?!

Dönüb rəssam olasıyam geci-tezi, ay aqillər,
Mən o qədər vurğunam ki, bu halına Ədalətin.

Gecə-gündüz duaçıyam, gen dolansın ondan qəza,
Yüz il ömür yazsın Tanrım iqbalına Ədalətin.

Bu torpağa, bu millətə belə dahi bəxş elyəib,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Köksüm dolu sevgim vardır mahalına Ədalətin.

Onun nadir ifasında cavabdan çox sual vardır,
Pənah Göyçə, cavab axtar sualına Ədalətin.

## ƏLƏSGƏR

***Göyçəli Aşıq Ələsgərə***

Şer dünyasında, eşq göylərində,
Qartal qanadını gərdi Ələsgər.
Dayaz tanımadı, gəzdi dərində,
Meydana şir kimi girdi Ələsgər.

Səksən il Qafqazda çaldı, oxudu,
Ellər gözəlinə çələng toxudu.
Sənət bağçasında çiçək çox idi,
Hər dəfə qızılgül dərdi Ələsgər.

Gövhər xırdaladı, inci daşıdı,
Əbədiyyət oldu onun yaşıdı.
Təcnis üzüyünün almaz qaşıdı,
Təkdi, yeganədi, birdi Ələsgər.

Təhsil almamışdı, müəllim idi,
Ondan öyrənirik şeriyyət nədi.
Bunu zaman dedi, bütün el dedi,
Başdan ayağacan sirdi Ələsgər.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə də qibləgah gözəllər oldu,
Pənah önlərində bir qara quldu.
Hər ürəyə axdı, hər elə doldu,
Əbədi təzədi, tərdi Ələsgər.

## SEYİD

***Seyid Şuşinskinin anadan olmasının 115-illiyinə.***

Vaxt vardı cahanı silkələyirdi,
Muğam aləmində bir idi, Seyid.
Sənətsevərlərin qibləgahıydı,
Kəbəydi, Məkkəydi, - pir idi Seyid.

Bir qartal qıyıydı, tərlan səsiydi,
Rastın, Heyratının təntənəsiydi.
Bütün türk elinin möcüzəsiydi,
Həm həqiqət, həm də sirr idi Seyid.

Dünya kəşf edəcək hələ bizləri,
Seyidlər tanıdır elə bizləri.
Əbədi salıbdı dilə bizləri,
Pənah Göyçə, inci, durr idi Seyid.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## KİMİ

***Əziz qardaşım Əli Qurban***
***Dastançıya dünyasını dəyişərkən***

Yetmiş altı illik ömür payını,
Yaşadın ər kimi, keçdin ər kimi.
Nə əziyyət verdin, nə əzab çəkdin,
Köçdün haqq evinə peyğəmbər kimi.

Kömək umanların çatdın hoyuna,
Şirinlik gətirdin elin toyuna!
Ellər gözəlinin baxıb boyuna
Qoşma, qəzəl dedin inci, zər kimi.

Bir sənət tonqalı yandı canında,
Coşdu ürəyində, axdı qanında,
Şer dünyasının kəhkəşanında
Ədəbiyyat aldın bir ülkər kimi.

## QARDAŞ

Sən evdən yox, eldən köçdün,
Əfsanəyə döndün, qardaş!
Günəş kimi işıq saçdın
Bir şam kimi söndün, qardaş!

Hər xoş işdə əzəl oldun,
Qoşma oldun, qəzəl oldun,
El dilində, gözəl oldun,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəbbətlə dindin, qardaş!

Bənövşəydin hər baharda,
Nur seliydin olsan harda.
Qartal idin səmalarda,
Niyə birdən endin, qardaş!

## OLACAQSAN

Gəldi-gedər deyilsən sən,
Oldun, varsan, olacaqsan.
Qədir bilən ürəklərdə
Yuva qurdun, qalacaqsan.

Ozan, aşıq səni hələ
Oxuyacaq, çəkib zilə.
Bir qaydadı indən belə
Əsil qiymət alacaqsan.

Çatacaqsan şərəf-şana,
Zağlı qılınc sığmaz qına.
Şer, sənət dünyasına
Daim işıq salacaqsan.

## OLDU, OLDU

Bir anda qovuşdun əbədiyyətə,
Aylar qalaqlandı, il oldu, oldu.
Öyrənə bilmədim sonsuz həsrətə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axdı eynim yaşı, sel oldu, oldu.

Aydın dərk elədim bir həqiqəti,
Qazana bilmisən el məhəbbəti.
Ruhuna rəhməti, sənə cənnəti,
Diləyən minlərcə dil oldu, oldu.

Kimin axirətə atılır daşı,
Yad edir qohumu, dostu, sirdaşı.
Sənə yanan gördüm hər vətəndaşı,
Qəmlənən, göynəyən el oldu, oldu.

Hər bir yaradanı yaşadır bəşər,
Yaxşı söz önundə solur inci, zər.
Yolunu gözlədi səni sevənlər,
Son qoy bu həsrətə, gəl, - oldu, oldu.

Pənahın varlığı kökləndi qəmə,
Elə kövrəlib ki, bənddi bir himə.
Hissləri çevrilib sarı bir simə,
Əbədi sızlayan tel oldu, oldu.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AĞACANI

***Sevimli əmim oğlu Ağacanın vəfatı münasibətilə***

Əcəl gəldi, ömür bitdi,
Bükübdülər ağa canı!
Bir dəfəlik uçub keçdi,
Aldırıbdı Ağa canı!

Beş Əzrayıl gəlsə yenə
Düşünməzdim onu yenə.
Unamazdım bəxti yenə,
İnanmazdım, ağa canı.

Nəsib olmur hər bir sağa,
El qəlbindən, sağ ol, sağa.
Yol almışdı safa, sağa,
Çıxarmışdı ağa canı.

Bəşər oğlu bax ibrət al,
Bil ki, həyat deyildir al.
Bil ki, dünya geyinməz al,
Əsirgəsən, ağa canı!

Ya Rəbb, etdin onu elə,
Həmdəm idi bütün elə.
Pənah dilər, kərəm elə,
Cənnətlik et, Ağacanı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## İNANMAQ OLMUR

***Əmioğlu Zeynalın qırxına***

Haqqın dərgahına köçdüyün gündən
Artıq qırx gün keçir, inanmaq olmur.
Əzrayıl bir gündə qalmır işindən
Hey bir ucdan biçir, inanmaq olmur.

Nə qədər yaşasam dünya üzündə,
Könlümdə olacaq əziz surətin.
Daim nur olardı, mavi gözündə,
Yad da duyurdu ki, safdı xisləqin.

Tutardın qolundan kimsə büdrəsə,
Həm toyun, həm yasın yaraşığıydın.
Yamanlıq etmədin əsla, heç kəsə,
Təpədən dırnağa nur, işıq idin.

Yaranan köçəcək, geci-tezi var,
Hər kəsə aydındı, yoxdu burda sirr.
Xoş halına olsun o kəslərin ki,
Səninlə cənnətdə görüşəcəkdir.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# XANLAR

***Aşıq Xanların xatirəsinə***

Fələyin işinə inanmaq olmur,
Necə qıydı, şirin dil idi Xanlar.
Eləsi heç zaman saralmır, solmur,
Təkrarsız, bənzərsiz gül idi Xanlar.

Qırx gündü susubdu, danışmır sazı;
Qırx gündü ki, onun çəkilmir nazı,
Qırx gündü ki, gəlmir səsi, avazı,
Kükrəyən, çağlayan sel idi Xanlar.

A dostlar, son qoyaq amana, aha,
Çünki qəlbimizdə gedir sabaha;
Bu böyük fəxrdi şair Pənaha,
Ellərin oğluydu, el idi Xanlar.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## YÜZ YAŞA

*Qocaman aşıq Çopur Əsəlgərə*

Ay Ələsgər, yurdumuzu
Hələ gəz yaşa, gəz yaşa!
Sinəndə saz, dilində söz,
Belə düz yaşa, düz yaşa!

Ay ellərin iftixarı,
Qoy uzansın sonbaharı.
Bəs deyincə yardan yarı
Naza döz, yaşa, döz, yaşa!

Ucalmadın bica yerə;
Sinə gərdin nəs illərə.
Gələcəyə, nəsillərə
Qalsın iz, yaşa, iz, yaşa!

Həm aşıqsan, həm əkinçi,
Paylayırsan, hey, sevinci.
Hər birisi nadir inci,
Yarat söz, yaşa, söz, yaşa!

Sözlərinin hər bir bəndi,
Bizə deyir həyat nədi.
Demə dünya əfsanədi,
Səni yüz yaşa, yüz yaşa!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GÖRƏK

*Usta tarzən Namiq Verdiyevə*

Namiq, götür, bas sinənə tarını,
Şirin-şirin qəlbimizi çal görək
Sarı simlər şəlalə tək çağlasın,
Hər bir xalı dönüb olsun bal görək.

Sən çaldıqca ruhum edir zümzümə,
Yaz mehi tək axıb dolur qəlbimə.
Sevinclilər çoxdan bənddi bir himə,
Qəmli könlü, sınıq könlü al görək.

Elə çal ki, insaniyyət iz alsın,
Nakəsliyi, namərdliyi buz alsın.
Elə çal ki, nisgilimiz azalsın,
Xöşbəxtliyi, səadəti bol görək.

Sən cavansan, ömrün hələ öndədi
Dədə Qorqud ruhu san ki səndədi.
Musiqimiz gör nə ağır gündədi,
Naxalları ayaqlara sal görək.

Şahnaz üstə layiqincə cağla gəl,
Habilə dön! Ədalət tək ağla gəl,
Sən Pənahı bəs deyincə dağla gəl,
Birdəfəlik ürəyində qal görək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ÇAL, AY NAMİQ

Çal ay Namiq, sən çaldıqca
Sənətindən güc aldıqca
İşıqlanır gözlərimiz,
Təpərlənir dizlərimiz.
Ucalırıq göylərə biz,
Yol göstərən ol, ay Namiq
Çal, ay Namiq, çal, ay Namiq!

Çal ki, duyaq həyat nədir,
Deməyək ki, əfsanədir.
O möcüzə, o böyük sirr,
Olsun aydın yol ay Namiq,
Çal, ay Namiq, çal, ay Namiq!

Çal ki, ruhum təzələnsin,
Sınıq könlüm məzələnsin.
Duyğularım çözələnsin,
İlham gəlsin bol, ay Namiq,
Çal, ay Namiq, çal, ay Namiq!

Ətir çilə tər güllərə,
Həmdəm olaq bülbüllərə.
Ömür keçir bica yerə,
Ona işıq sal, ay Namiq,
Çal, ay Namiq, çal, ay Namiq!

Sənin çalğın axı nədi,
Həqiqətdi, əfsanədi?!
Pənah çoxdan divanədi,
Odur məlhəm, bal ay Namiq,
Çal, ay Namiq, çal, ay Namiq,
Ay Namiq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## EŞQ OLSUN

***Bu gün yer üzünün ən qüdrətli sənətkarlarından birinə, bəlkə də birincisinə, N.Gəncəvinin "Xəmsə"sinə həsr etdiyi, sözün əsl mənasında, möcüzə olan sədəflə işlənmiş tarın yaranması münasibəti ilə Usta Balabəyə***

**U**lu Tanrı, sənə şükürlər ola,
**S**ən türkə bir daha nəzər salmısan.
**T**əməldən güc alan bir ər oğula
**A**şiqlik vermisən, həyan olmusan.

**B**əşər sənətinə heyran kəsilir,
**A**lqış bu əməyə, bu məhəbbətə.
**L**isanı bal, şəkər Nizami kimdir,
**A**şkarlandı, bir də, bəşəriyyətə.
**B**una tay olacaq incisi hanı,
**Ə**lbət utanacaq «Yaşıl zirzəmi».[3]
**Y**enə türk oğlunun coşaraq qanı,
**Ə**ydi öz önündə bütün aləmi.

## BALABƏYDİ

Bu gün sənət dünyasına verən zinət Balabəydi,
Yaradanın yaratdığı ali xilqət Balabəydi.

Təbəssümlü gözlərində mənalara fikir verin,

[3] ***Almaniyanın Drezden şəhərindəki dünya sənətkarlarının sənət incilərini saxlayan «Greene gevelbe» muzeyidir***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəlbi təmiz, eşqi dərin, nurli xislət Balabəydi.

İl yarıma ağlasığmaz bir möcüzə yaradıbdı,
Belə hünər, belə təpər, belə qeyrət Balabəydi.

Qoca türkdü, zaman-zaman, xariqələr yaradan xalq,
Bu zamanda, bu dövranda ona şöhrət Balabəydi.

Bütün dünya Şeyx Nizami dühasına baş endirir,
Ona təzə rövnəq verən qadir fitrət Balabəydi.

İnsan oğlu nə hünərin sahibidi, deyir bu tar,
Hər baxanı sarır qürur, alır heyrət, - Balabəydi.

Nə söyləsin, nə yazsın ki, layiq olsun sənətinə,
Aciz qalıb Pənah Göyçə, belə qüdrət Balabəydi.

## BALABƏY

İl yarım ərzində belə bir işi
Necə gətirmisən başa, Balabəy?!
Baxanın ağlını başından alır,
Dil verir torpağa, daşa, Balabəy!

O qədər güclüdü fitrətin sənin,
O sayaq ucadı sənətin sənin,
Elə alidi ki, niyyətin sənin,
Düşmən də gələcək cuşa, Balabəy!

Dağıtdın başımdan dumanı, çəni,
Yenidən həyata bağladın məni.
Bir arzu dindirir Pənah Göyçəni,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Var ol bu dünyada, yaşa, Balabəy!

## RƏMİŞ

*Planetin ən qüdrətli gitaraçısına*

Ən qüdrətli gitara çalana
Tanrı vergisidi, tanrı nurudu,
Bu gün özgə cürə qalacaq Rəmiş.
Xəstə duyğulara məlhəm qoyacaq,
Sınıq könülləri, alacaq Rəmiş.

Onun sənət bağı yaşıldı, aldı,
Vurduğu hər mizrab, yeni bir xaldı.
Bu başqa- görüşdü, özgə vüsaldı
Zülmətdə nur seli olacaq Rəmiş!

Onun qüdrətiylə dinən gitara
Dönüb həmdəm olur kamana, tara.
Zimistan dönəcək güllü bahara,
Bizi bizdən tamam alacaq Rəmiş.

Şeytana yox deyib dönüb həyata,
Naxışdı, bəzəkdi bu kainata.
Sevinc gətirəcək toya, büsata,
Hələ çox zirvələr bulacaq Rəmiş!

Sənət aləmində ucadır başı,
Onu duya bilməz yarımçıq, naşı.
Pənahın şeriylə qoşa, yanaşı
Bu dünya durduqca qalacaq Rəmiş!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SƏNİN

***Özü sazına, sazı özünə***
***yaraşan Zülfiyyə xanıma***

Yenə sehrlədi könlümü sazın, -
Onu bülbül etdi əllərin sənin.
Necə şirin imiş səsin, avazın,
Axır ki, açıldı dillərin sənin.

Telli saz ilhamsız sinədə ötməz,
İlham haqqdan gələr, hər gələn yetməz.
Adam var bağında qanqal da bitməz,
Qızılgül gölüdü çöllərin sənin.

«Ruhani» dönmüşdü şəkərə, qəndə,
Dağı da, daşı da salmışdı bəndə.
Nə qədər könüldən hər dillənəndə
Təmizləyir pası sellərin sənin.

Hər kəs qiymət alır xoş niyyətiylə,
Təmənnasız eşqi, məhəbbətiylə.
Qoy odlu qəlbinin hərarətiylə
Daha da ucalsın ellərin sənin.

Sazınla çulğaşıb bir olanda sən,
Pənah kainatı duyur dərindən.
Sən o yoldasan ki, biri-birindən
Şərəfli gələcək illərin sənin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ƏDALƏT

**Aşıq Ədalət Dəlidağlıya**

Sənət dedikləri göylərdən dərin,
Bələddi o sonsuz yola, Ədalət.
Gənc ikən könlünə yatdı ellərin,
Odur ki, dedilər «bala Ədalət».

Dəlidağ oğludu, dəli təblidi,
Avazı andırır seli, təblidi.
Mahir sənətkardı, bəli, təblidi,
Yüz il də beləcə qala, Ədalət.

Sazını götürdü, demək, bahardı,
Hər duyğulu qəlbə yaxındı, yardı.
Belə nəğməkardan doymaq olardı?! –
Çaldıqca deyirsən, çala Ədalət.

Onun hər nəğməsi eşqin səsidi,
Ozan sənətinin təntənəsidi.
Sinəsi hikmətlər xəzinəsidi,
Mümkünmü özgə cür ola Ədalət?!

Cahana tək gəlir hər qüdrətli şəxs,
Bunu bilir ellər, anlamaz nakəs.
Pənah Göyçə ilə eyləməyin bəhs,
Yaradan qıymaz ki, sola Ədalət.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SAMİRƏ XANIM

*Aşıq Samirəyə*

Elə ki sazını basır bağrına,
Oddan betər yaxır Samirə xanım.
Yorulmuş ruhlara, küsgün qəblərə
Məlhəm kimi axır Samirə xanım.

Vurduğu hər xalı təzədi, tərdi,
Ruhani, Dilqəmi ləldi, gövhərdi.
Elə ki «Misri»ylə zilə yüksəldi,
İldırım tək çaxır Samirə xanım.

Çalğı da gözəldi, əl də gözəldi,
Ləhcə də gözəldi, dil də gözəldi,
Çöhrə də gözəldi, tel də gözəldi,
Ahusayaq baxır Samirə xanım.

Dağıdıb başından dumanı, çəni
Həyata köklədin Pənah Göyçəni.
O, ilham pərisi sayaraq səni,
Yollarına çıxır, Samirə xanım!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VAR

***Gözəl şe'rləri ilə məni məftun edən Fərqanə Mehdiyevaya***

Aman Allah, belə körpə afətin,
Şeriyyətdə öz cığırı, izi var!
Çiçəkdən də zərif olan xilqətin
Ürəyində gör nə qədər közü var!

İlk sətirdən heyrət qondu gözlərə,
İlk bənd ilə nur çiləndi üzlərə.
Şe'r bitdi, həyat eşqli sözlərə
Alqış qopdu, – eldə sərraf gözü var.

İnsan ilə rövnəqlənir vaxt, zaman,
Hər diyara övladıdı şərəf, şan.
Gözün aydın, el anası Natəvan,
Bu nəvənin baldan şirin sözü var.

Məshətini yetiribdi bu torpaq,
Aşıq Pəri bitiribdi bu torpaq.
İndi onu yetiribdi bu torpaq,
Yaxşı gəzsən bəlkə hələ yüzü var.

Elə bil ki, yüz il şer yazandı;
Təcnisləri uzandıqca uzandı.
Zal dolusu pərəstişkar qazandı,
Birincisi bu Pənahın özü var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**1985**

## SƏNİ

***İlk mahnımın ilk ifaçısı***
***Natəvan xanıma***

Səsin möcüzədi, özün möcüzə,
Nə şirin yaradıb məhəbət səni.
Həyat bəxş edirsən hər quru sözə
Başdan-başa sarıb ülviyyət səni.

Xoşdu nəğmələrin yaxına, yada;
Gün gələr hər yana çatar bu səda.
Səadət axtarır hamı dünyada,
Deyərdim tapıbdı səadət səni.

Bir də baxırıq ki, ərəb qızısan,
Ya da hind elinin güllü yazısan.
Əslində elimin dan ulduzusan,
Bu yurda bəxş edib təbiət səni.

Bu ilahi səslə, düşünürəm mən,
Zamanın Dürrətilbağdadısan sən.
Ya da Xan Qızının nəticəsisən
Çətindi vəsf edə şe'riyyət səni.

Ürəyin köksündə gələndə dilə,
Bülbüllər utanıb qarışır gülə.
Sənəti sevənlər əzizdi elə,
Ömürlük çulğayıb xoş ülfət səni.

Ay Natəvən xanım, istərəm hər an
Verəsən könlündən nəğmələrə can.
Pənah inanır ki, ürəklə tutsan
Göylərə qaldırar bu sənət səni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# UNUDULMAZ HÜNƏR

***İkinci dünya müharibəsinin veteranlarına qələbənin qırx illiyində***

Dünyanın üstünə gələndə zülmət
Vətən harayına sizi çağırdı.
Bütün yer kürəsi, bəlalı xilqət,
Yeganə ümid tək sizə baxırdı.

Şəxsi arzuları unutdunuz siz,
Vahid bir yumruğa döndünüz o an,
Faşistə ər kimi sinə gərdiniz,
Zəfərlə çıxdınız o imtahandan.

Sizin verdiyiniz gülüzlü bahar
Qırx il çiçək açıb dünya üzündə.
Nə qədər həyatda insanlıq yaşar
Bu hünər yüksələr elin gözündə.

O böyük zəfərin hüsnü, duyğusu
Qoy xəzan görməsin, üzü ağ olsun.
Bütün insanların budur arzusu,
Gün o gün olsun ki, yaşı yüz olsun!



**1111111247899**

**(11.12.1940)**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# OLSUN

***Dostum Eldar Tağıyevə***

Əziz qardaşım Eldar,
Payın səadət olsun!
Sinəndəki ilk bahar
Yarına qismət olsun!

Biri-birindən dadlı
İllər ötsün qanadlı.
Payın oğul-qız adlı
İki cüt nemət olsun!

Məhəbbətdən tac alın,
O cür qoşa qocalın.
Elə qalxın, ucalın
Gözlərdə heyrət olsun!

Ağırdı həyat yolu,
Daşla, kəsəklə dolu...
Kim olmaz yarın qulu,
Taki məhəbbət olsun!

Yoxdu xalis səadət;
Qoşadı vüsal, həsrət.
Pənah istər sədaqət
Bəşərə adət olsun!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TANITMA

***Neft Akademiyasında işləyərkən iş yoldaşım olmuş Mayisə xanıma***

Ay Mayisə xanım, qəmi, möhnəti,
Yaxın qoyma, əsla anı tanıtma!
Üz gördüyü kəsdən əl çəkmir, qəti,
Ona görə heç yaxanı tanıtma!

Hərəyə bir cürə qursa da tələ,
Necə tutsan dünya gedəcək elə!
Kim ömrü yenidən gətirib ələ, -
Gülər yaşa, ah-amanı tanıtma!

Qoyma həyat eşqi canında sönə,
Axşamnan hazır ol sabahki günə.
Qoy qızıl Gün doğsun hər gün ömrünə,
Qoru, qəmdən qoru, anı tanıtma.

Sağlam arzulara köklənsə sinə,
Dünya düşmən olsa dözərsən yenə.
İblis bütöv cənnət vəd etsə sənə,
Qəlbinə buraxma, qanı tanıtma!

Gör kimlər qedibdi, desəm qısası,
Gün gələr bizə də qurarlar yası.
Təmizlə könlündən qəm adlı pası,
Pənah kimi bircə anı tanıtma!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## OLDUM

***416-cı diviziyanın komissarı***
***Həkim Mirzəxanovun özünəlayiq***
***həyat yoldaşı Sevdigül ananın məzar daşına.***
***Onlar Mayisə xanımın valideynləridirlər.***

Əzab, zillət paylananda
Mən hamıdan əzəl oldum.
Ömrün bahar çağlarında
Xəzan vurdu, xəzəl oldum.

Oda düşdü məhəbbətim,
Uçdu əldən səadətim;
Tükənmədi dəyanətim,
El dilində məsəl oldum.

Bir məqsədi əzizlədim, -
Qoşa oğul, qız bəslədim.
Qırx səkkiz il yol gözlədim,
Sədaqətə heykəl oldum.

## GƏLƏSİDİ

***Bir daha Maiyisə Xanıma***

Üz ki, verdin kədər, möhnət
Bulud kimi gələsidi;
Günlərini bircə-bircə
Həyatından siləsidi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Taleyinə olsan ası,
Hər tə'sirdən qursan yası,
Dost-tanışın dağlanası,
Bədxahların güləsidi.

Axı həyat deyir qəti, -
Özün yarat səadəti.
Qazandığı bir ne'məti
Kim səninlə böləsidi?!

Ömür qoyub puç olan var.
Vaxt-və'dəsiz qocalan var...
Yaşamaqdan zövq alan var, -
Xöşbəxt yalnız beləsidi.

Pənah Göyçə gör nə dedi,
Yaşa, ömür bir dənədi!
İstədi, ya istəmədi,
Hər yaranan öləsidi.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MOSKVA

Qucağına sığınana
Oldun mehriban, Moskva!
Hər insana vətən olsun,
Bütün bu cahan, Moskva!

Kimə gərək düşmənçilik,
Görüm olsun çilik-çilik.
Ortalığa sevgi, bilik
Qoysun hər insan, Moskva!

Öz əhdinə sədaqətlə,
Məhəbbətlə, səxavətlə,
Hər işində ədalətlə
Qazan şərəf-şan, Moskva!

Bəla açıb öz sərinə,
Düşəsidi lap dərinə,
Əgər bəşər bir-birinə
Söyləməsə can, Moskva!

Pənah deyir, bəsdi silah,
Qazanmayaq daha günah.
Bu məramla, günü sabah,
Qoy sökülsün dan, Moskva!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ALQIŞ SƏNƏ TOVUZ

YenəTovuz elləri
Bəzənibdi gəlin tək.
Əlvan xalı geydirib
Dağa, daşa gül, çiçək.
Bayram ovqatındadı
Bu gün bütün insanlar;
Artıq bizim ellərə
Tale özü olur yar.
Tovuzun bir qədər də
Artacaqdır ziyası,
İşi yenidən qurur
Bu gün televiziyası.
Çin çıxıb babaların
O sehrli güzgüsü,
Səadət hüdudsuzdu,
Yoxdu onun ölçüsü.
Odur qeyrətli kəslər
İmkan qazanır, imkan,
Qurur, tikir, yaradır,
Olur elə şərəf, şan.
Tovuzun ər oğludu,
Hər kəs bilir ki Musa,
Bu onun hünəridi
Əgər eyləsək qısa.
Orda Çopur Ələsgər
Çalıb çağıracaqdır,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər sözü tərbiyədir,
Hər bir nəğməsi haqdır.
Özgə cür möcüzədir,
Onun oğlu Kamandar,
Elə bil ki beşikdən
Telli saza olub yar.
Hər kəs yaxşı tanıyır
Böyük oğlu Eldarı,
O danışsa ürəkdə
Durarmı qəm hasarı?!
Alqış bu növrağına,
Gözlərin aydın Tovuz,
Kəhkəşanda adına
Doğulub yeni ulduz.
Sənin ər oğulların
Qoy tanısın Pənahı,
Sənə məhəbbəti var,
Budur onun «günahı».

**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ŞİŞTƏPƏ

*Şəmkirin Şiştəpə kəndinə*

Sanırsan cənnətin bir güşəsidi,
Qışda da yaşıldı, aldı Şiştəpə.
Məni də hüsnünə heyran eylədi,
Ağlımı başımdan aldı Şiştəpə.

Dağların qoynunda nazlanıb yatır,
Şöhrəti Ay nədi, ulduza çatır.
Yerə də, Göyə də haqlı naz satır,
Şəmkirin üzündə xaldı Şiştəpə.

Düzdü sədaqətin, düzdü ilqarın,
Qoy başından aşsın sərvətin, varın.
Dürr tökdü dilindən ağsaqqalların,
Həkk olub qəlbimdə qaldı, Şiştəpə.

Elə ki, yay ötür, gəlir son bahar,
Meyvəli bağların özgə hüsnü var.
Süfrəyə düzdüyün alma, heyva, nar,
Deyirsən şəkərdi, baldı, Şiştəpə!

Ay Pənah, o günlər gələcək hökmən
Ötüb keçəcəkdir çisgin, duman, çən,
Layiqli payını alacaq düşmən,
Görəcən, sən deyən oldu Şiştəpə.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜQƏDDƏS

*Moskvanın Brateevo rayonunda*
*yaşayan eloğlumu Müqəddəsə*

Şəxsiyyət yaşayır Brateevoda,
Amalı müqəddəss, izi müqəddəs
İsidir, fərq qoymur yaxına, yada,
Alovu müqqədəs, közü müqəddəs.

Yaxşılar çiynində dayanıb cahan,
Onlarsız dağılar, dayanmaz bir an.
Yaxşılar yolludu dediyim insan,
Əməli müqəddəs, sözü müqəddəs.

İlhamı qaytarıb verdi Pənaha,
Xoş ümid oyatdı gələn sabaha,
Kimdən söhbət gedir, açılsın daha,
Adı Müqəddəsdi, özü müqəddəs.

*****

Darda Zöhrabımın tutdu qolundan
Var olsun cahanda adın, Müqəddəs!
Qoy başından aşsın sərvət, şərəf, şan,
Gur yansın ocağın, odun, Müqəddəs!

Səndən uzaq olsun hər qəza, qada,
Yaxşısan, yaxşıya can olsun fəda.
Haqqında yayılsın yalnız xoş səda,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sevinsin yaxının, yadın, Müqəddəs!

Ay Pənah, əzəldən şahiddi bəşər,
Həyata zinətdi hər ər oğlu ər.
Çıxmasın yoluna paxıl, bədnəzər
Tutsun dörd yanını şadın, Müqəddəs!

*****

Deyirlər çoxuna əl uzatmısan,
Qovmusan başından çəni, Müqəddəs!
Sənin tək insanlar, şair olandan,
İlhama gətirir məni, Müqəddəs!

Xöşbəxt o kəsdi ki, baxır bir yana,
Paxıllığı əsla buraxmır cana.
Özgə səadəti ruh verir ona;
Belə tanıyırlar səni, Müqəddəs!

Özgənin dərdinə yananlar ki, var,
Ay Pənah, Tanrıya əzizdi onlar.
Sənin də sayəndə azalır ah, zar,
Çoxalır dünyanın şəni, Müqəddəs!



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QƏMƏRİM

***Karım Qəmər xanıma***

Səndən ayrılandan, zavallı kocan
Dərin fikirlərə dalır, Qəmərim!
Duyur ki, sənin tək yaxşını cahan
Min ildə bir dəfə alır, Qəmərim!

Səni tapan gündən, bilir Yaradan,
Ömür diləmədim, sənsiz, bircə an.
Elə ki ayrıldıq, dayandı zaman,
Qırıq saat kimi qalır, Qəmərim!

Sənsən ürəyimdə, sənsən sözümdə,
Belə hifz edirəm səni özümdə.
Sənsiz gözəl dünya mənim gözümdə
Qaraca bir quruş olur, Qəmərim!

Səndən ayrılandan, ay nazlı canan,
Pənahın bir yetim quzudu inan.
Sənsizlik buzunda donur yazıq can,
Dərilmiş çiçək tək solur, Qəmərim!

*****

Əsil ayrılılığın vüsaldı sonu,
Hicranı eyninə alma, Qəmərim!
Boyuna biçilib insanlıq donu,
Bircə an da onsuz qalma, Qəmərim!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həyata aqilin nəzəriylə bax,
Nifrətdi qapqara, məhəbbətdi ağ.
İnsanın dəyəri eşqidi ancaq,
O ülvi nemətsiz olma, Qəmərim!

Sənsən həyatımda ən dəyərli xal,
Sənsən dəhanımda ləzzət, şəkər, bal.
Köçəndə Pənahı özün yola sal,
Yenidən pardaxlan, solma Qəmərim!

*****

Ruhum qayıdacaq yazıq canıma,
Qapıdan girəndə gülüm, Qəmərim!
Dünya gözlərimdə əlvan geyəcək,
Bitəcək çəkdiyim zülüm, Qəmərim!

Mübarək yolundan çəkilmir gözüm,
Əriyib tükənir canımda dözüm,
Adınla bağlıdı söhbətim, sözüm,
Özgə söz tanımır dilim, Qəmərim!

Sən kocan Pənahın diləyinə bax,
Sən Xan Leyli kimi, mən Məcnunsayaq,
Qalan hər bir anı qoşa yaşayaq,
Əvvəl mənə gəlsin ölüm, Qəmərim!

## GÖZƏLDİ

Gözümün önündən getmir bircə an,
Camal da gözəldi, tel də gözəldi!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Həyata səsləyir məni hər zaman,
Dodaq da gözəldi, dil də gözəldi.

Ömrümə, günümə sultan gələndən,
Dağılıb başımdan çisgin, duman, çən.
Doymadım, doymaram nəvazişindən,
Bilək də gözəldi, əl də gözəldi.

On ildə bir dəfə salmayıb bəhsi,
Segahdan, Şahnazdan şirindi səsi,
Ruhuma qidadı nazı, qəmzəsi,
Bal dilində get də, gəl də gözəldi.

Hopub varlığına sevgi, məhəbbət,
Tapılmaz canında bir qətrə nifrət,
Belə insanlarla, bilsin hər xilqət,
Vətən də gözəldi, el də gözəldi.

Gözümdə, könlümdə tək odur bitən,
Onsuz Pənah olar bir kötüyə tən.
Şirin həsrətiylə yoğrulub ötən,
Fəsil də gözəldi, il də gözəldi.

## SƏN

Tez çin çıxa belə istək,
O gün olsun gələsən sən.
Bu hicranı, bu həsrəti
Bir dəfəlik siləsən sən.

İşlərimiz düşür yola,
Gəlişinlə sürət ala,
Hər kədərin mənim ola,



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Sevincimi böləsən sən.

Bilirəm ki, zalım fələk,
Daim bizə qurub kələk.
Pənah dilər, nazlı mələk,
İndən belə güləsən sən.

## GƏL

Baş qayğıdan qurtar məni,
Ay vəfalı karım, dur, gəl.
Qızımızın hər işini,
Saat kimi nizam qur, gəl.

Qoy geyinsin təpər donu,
Çətinliyin puçdu sonu.
Qonşulara tapşır onu,
Qısalt uzun yolu, yor gəl.

Hər zamanın öz hökmü var,
Tərəddüddən daha qurtar.
Gəlişinlə gətir bahar,
Sellər kimi çağla, gur gəl.

Gəl, tanıyım solu, sağı,
Öz həddini bilsin yağı.
Bir yolluq qov qaranlığı,
Ay hərarət, işıq, nur, gəl!

Gəl ki, «oxxay» desin Pənah,
Sinəsindən qopmasın ah.
Gülüm, bil ki, gecdi sabah,
Heç dayanma, bu gün vur gəl.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MƏNİM KARIM

Tanrım, şükür qismətimə,
Bir dənədi mənim karım.
Sədaqətli, ədalətli, ləyaqətli,
Mərdanədi mənim karım.

Şam tək yanır mənim üçün,
Hər dəqiqəm, anım üçün.
Bu quruca canım üçün
Pərvanədi mənim karım.

Başdan-başa məhəbbətdi,
Özü boyda sədaqətdi.
Saf ürəkdi, pak xislətdi,
Piranədi mənim karım.

Qoy dərs alsın ondan mələk,
Bilməz pislik, bilməz kələk.
Qiymətini bilir ürək,
Durdanədi mənim karım.

Namusu var, qeyrəti var,
Yamanlığa nifrəti var,
El içində hörməti var
Şahanədi mənim karım.

O, Pənaha gətirdi yaz,
Ömür bağı daha solmaz,
Vallah, belə xilqət olmaz,
Bilməm nədi mənim karım.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# AĞRIMA, KARIM

Yaxın qoyma dərd-azarı,
Ağrıma, karım, ağrıma.
Gəl yığışdır bu bazarı,
Ağrıma, karım, ağrıma!

Mən varımdan yox oluram,
Bolabol, çox-çox oluram.
Həyatımdan tox oluram,
Ağrıma, karım, ağrıma.

Öndən gözəl günlər gəlir,
Bu aşkardı, deyil ki sirr.
Nə çəkirəm Allah bilir,
Ağrıma, karım, ağrıma.

Gen dünyanı süzəmmirəm,
Baş qaldırıb gəzəmmirəm.
O halına dözəmmirəm,
Ağrıma, karım, ağrıma!

Ay könlümün bircə şahı,
Yaşa, yaşat sən Pənahı;
Göyə bülənd olur ahı,
Ağrıma, karım, ağrıma.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XOŞ GƏLDİN

Uzaq yolu yaxın edib
Karım, xoş gəldin, xoş gəldin.
Ay məşuqəm, anam, bacım,
Yarım, xoş gəldin, xoş gəldin.

Ölçü bilməz səadətim,
El içində ləyaqətim,
Ay namusum, ay qeyrətim,
Arım, xoş gəldin, xoş gəldin.

Qapımızdan girincə sən,
Gəldi sevinc, dağıldı qəm.
Qışda gülüm, yayda məlhəm
Qarım, xoş gəldin, xoş gəldin.

Ay dözümüm, ay taqətim,
Tükənməyən dəyanətim,
Ay sərvətim, ay dövlətim,
Varım, xoş gəldin, xoş gəldin.

Pənahına eşqin təmiz,
Həyatında ən nurlu iz.
Baldan şirin, nardan ləziz
Barım, xoş gəldin, xoş gəldin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## KÜBRƏ

***Baldızım Kübrə xanıma***

Bizi yetim qoyub getdin
Anam Kübrə, bacım Kübrə!
Könlümdə kök atıb bitdin,
Ay başımda tacım Kübrə!

Evində yer verdin mənə,
Minnətdaram dönə-dönə.
Gözüm dərman olsun sənə,
Dərmanım, əlacım Kübrə!

Sən Pənaha şərəf, şansan,
Səndən ibrət alsın cahan.
Yamanlıqdan tam uzaqsan,
Yaxşılığa acım, Kübrə!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QIZIM

*Qaynım Zöhrabın həyat yoldaşı*
*təzəcə dədə-bala olduğumuz*
*Nəzakət xanıma*

## 1.

Ortalıqda bir şey yoxdu
Qan-qaralıq salma, qızım!
Dədə qoca, hövsələ dar,
Sən xırdaçı olma, qızım!

Siçan boyda xatanı sən,
Gəl eyləmə bir filə tən.
Qəlb dediyin saf şüşədən, -
Qılıncını çalma, qızım!

Kövrəkləşib daha Pənah,
Sinəsini parçalar ah.
Üzümüzə gələn sabah
Gül, kədərli qalma, qızım!

## 2.

Yaradanın zərrəsisən,
O sayaq da qalacaqsan.
Çoxumuzun taleyinə
Mavi işıq salacaqsan.

Hər bir işin qədərində,
Dürr gəzirsən hər dərində.
Dünya varı öz yerində,
Qəlbən zəngin olacaqsan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaxşı duyur səni Pənah,
Yerindədi nəfis, tamah.
Öz bəxtinə olaraq şah,
Daim zəfər çalacaqsan.

**3.**

İnsan bircə dəfə gəlir həyata,
O, şeytana əsir olmasın gərək.
Nura qərq eləsin olduğu yeri,
Vədəsiz saralıb solmasın gərək.

Aqillər olsun ki, dostun sirdaşın,
Elin qarşısında ucalsın başın.
Adınla nurlansın hər davranışın,
Bir işin kəsirli qalmasın gərək!

Elə hesab götür, o sayaq yaşa,
Bircə oxun belə dəyməsin daşa.
Dədə öz ömrünü vurunca başa,
Səndən fəna xəbər almasın gərək.



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional

# MASTANA

***Qaynım Zöhrabın oğlu doğulanda***

Qürbət eldə bu həyata
Mastan xoş gəldin, xoş gəldin!
Nazıyonok, Zöküyata,
Hay can, xoş gəldin, xoş gəldin!

Elə yaşa, elə böyü,
Ol cahanın xanı, bəyi.
Xoş ün tutsun yeri, göyü,
İnsan, xoş gəldin, xoş gəldin!

Böyük Yaradan yar oldu,
Yoxluq çevrilib, var oldu.
Qış Pənaha bahar oldu,
Bu an, xoş gəldin, xoş gəldin!



**1111111247899**

**(11.12.1940)**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# LAYİQLİ QIZ OL

***Uma nəvəmə***

Ay şirin nəvəm Uma,
Səni basıb bağrıma
Nə deyirəm gör sənə, -
Bir dənəsən, bir dənə.
Mübarəkdi bir yaşın,
Bayram edir qardaşın.
İpək kimi saçın var,
Çox gözəl qol-qıçın var.
Gül canınla bil ki, sən,
Baldan min qat şirinsən.
Ay kimidi camalın,
Yaraşır xətti-xalın!
Gözlərin ulduz kimi,
Gərəyimsən duz kimi.
Ömrün olsun ilk bahar,
Yüz il yaşa bəxtiyar.
Unutma ki, bircə an,
Sən Rüstəmin qızısan.
Yaşadıqca dünyamız,
Ol ona layiqli qız.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# OLSUN

Sevimli Nailə, əziz Mehdi bəy,
Nəsibiniz bol-bol səadət olsun.
Sizi birləşdirən o hiss, o duyğu,
Xəzan tanımayan məhəbbət olsun.

Bu gözəl həyata bir gözlə baxın,
Mənfur qısqanclığı qoymayın yaxın.
Hicranı, həsrəti yandırıb yaxın,
Qəlbinizdə ancaq xoş niyyət olsun.

Məhəbbət üstündə dayanıb cahan,
Sevgidən doğulur hər yaxşı olan.
Sevgidən kənarda qalmayın bir an,
Qoy sizi tanıdan bu xislət olsun.

Silin qəlbinizdən kini, nifrəti,
Yaxına qoymayın qəmi, möhnəti,
Qədərində alın hər bir neməti,
Hüdud tanımayan sədaqət olsun.

Övladdı hər kəsə şöhrət, şərəf, şan,
Övladla həyata bağlanır insan.
Yeddi oğul versin sizə Yaradan,
Tək bircə dənə qız kifayət olsun.

Pənah Göyçə istər, olun bəixtiyar,
Tale dediyimiz olsun sizə yar.
Gülsün üzünüzə əbədi bahar,
Ömrünüz sonacan bal, şərbət olsun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# OLSUN

Gülzar xanım, gözəllərin gözəli,
Namiq bəyin sevdasının əzəli.
Ömür sürün xöşbəxt, duzlu, məzəli,
Bir-birindən bəs deyincə yarıyın,
Yüz il ötsün, bu cür qoşa qarıyın.

Qapınızı tanımasın fəlakət,
Ayağını heç üzməsin səadət.
Sevinc, şadlıq dönüb olsun bir adət.
Qismətiniz hər nemətdən bol olsun,
Fələk özü qapınızda qul olsun.

Oğul payı alasınız – pürkamal,
Qız payı da, ləyaqətli, gülcamal,
Həyatınız tanımasın qilü-qal;
Pənah Göyçə deyir, tale yar olsun,
Dostlarınız dövrənizda var olsun,
Düşməniniz el içində xar olsun.



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜBARƏK

Sevimli Brilyant, mehriban Polad,
Sizi birləşdirən nişan mübarək.
Xoşbəxt ömrünüzün oldu təməli,
Bax bu gün mübarək, bu an mübarək!

Peyman eyləyirsiz Günəş tək təmiz,
Göylərdə yazılır tale, şübhəsiz.
Tanrı fərmanına icraçıyıq biz,
Verdiyi bu təzə fərman mübarək.

Brilyant necə də təzədi, tərdi,
El bilir ki, Polad ər oğlu ərdi.
Xeyir-duasını Çuxanlı verdi,
Bu sevda deyildir solan, mübarək!

Məhəbbət bir daha bar gətiribdi,
Mələklər deyir ki, dər, gətiribdi.
Bədxahların gözü tor gətiribdi,
İblis yenə oldu talan, mübarək!

Qohumluq bir daha təzələnibdi,
Xeyirxah könüllər məzələnibdi.
Saz şövqə gəlibdi, kaman dinibdi,
Pənah Göyçə edir elan, mübarək!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ARZULAR

***Dostum Oktaya, oğlu Etibarın toy günü münasibəti ilə***

Ay arzular, pak arzular,
İnsanlıq bir an
Sizdən uzaq yaşamayıb
Şahiddi dövran.
Arzulardan bu həyata
Göz açıbdı Etibar.
Arzuların sayəsində
Sevinc xanım olub yar.

Ot öz kökü üzərində
Bitir şəksiz, şübhəsiz.
Etibar da atasına
Çox layiqdi, şahid biz.
Təzə-təzə xoş arzular
Pərvazlanır bu an da.
İnsan oğlu bu sayaq da
Ömr edəcək cahanda.

Arzum budur, qoy Etibar,
Etibarlı yar olsun.
Məhəbbəti, sədaqəti
El içində car olsun.

Arzum budur, ömür boyu
O, doğrultsun adını,
Şan-şöhrətə yetişdirsin,
Nəslini, soyadını.

Arzum budur, qoy o olsun,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Layəqətli bir ata.
Ömür boyu əməlindən
Törəməsin heç xata.

Könlümdəki xoş arzular,
O qədərdi, ay Oktay,
Hamısını demək üçün,
Bəs eləməz həftə, ay.

Arzuların arasında
Biri də var müqəddəs,
Ürəyimin özəyindən
Qopub gəlir həmin səs;
Sevinc xanım, Etibar bəy
Sübüt etsin cahana,
Ləyaqətli övladdırlar,
Doğma Azərbaycana.



**1111111247899**
**(11.12.1940)**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# HƏYATDAN KAM ALIN

***Qardaşım Mehdinin qızı***
***Zemfira xanımla Mübariz***
***bəyin toyunda***

Bu gün Göyçə ruhludu
Qurulan toy məclisi.
Ülvi bir hiss bürüyüb
Toya gələn hər kəsi.
Ağkilsə kəndi durur
Sevdanın əzəlində.
O nəslin ər oğlunda,
Bu nəslin gözəlində
Bir Göyçə saflığı var;
Hər kəs edir iftixar.

Bu gün bəyin anası,
Gəlininsə atası
Bir azca qübarlıdı,
Toy günü olsa belə
Xeyli intizarlıdı.
Hələ çox çəkəsidi
Onların bu haləti
Qoy başa varsın deyə
Gənclərin məhəbbəti.

Mehriban Mübariz bəy,
Ay sevimli Zemfira,
Elə ömr eləyin ki,
Elə yola gedin ki,
Sevindirin onları,
Qoy xoşbəxt yaşasınlar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ömürdə sonbaharı.
Bir-birindən xoş gəlsin
Ömrünüzə hər bahar,
Daim ibrət götürsün
Sizdən təzə toylular.
Bu həyatdan kam alın,
Ucaldıqca ucalın,
Oğul-uşaqlı olun,
Səadətlə qocalın!



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# OLACAQDIR

Rəşəd bəy, layiqli yar olsan əgər
İntizar xanım da yar olacaqdıır.
Ər layiqli ərsə, söyləyir ellər,
Orda namus, qeyrət, ar olacaqdır.

Ailə birlikdən başlasın gərək,
İki ürək vursun, sanki bir ürək.
Halalaldan mayalan, halal əmək çək,
Gərəyincə sərvət var olacaqdır.

Həyat yollarında düz yaşasanız,
Qəlbinizdə alov, köz yaşasanız,
Səadət içində yüz yaşasanız
Dost sevinib düşmən xar olacaqdır.



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜŞFİQ

Gözün aydın olsun ay Mədət kişi,
Ulu tanrımızın nurudu Müşfiq.
Adına layiqdi şəksiz, şübhəsiz,
Aydan arı, sudan durudu Müşfiq.

Yaxşılıq üstündə dayanır cahan,
Yaxşı olan kəslər adlanır İnsan;
Bu yoldan kənarda qalmadı bir an?
Ona dirək oldu, qorudu Müşfiq.

Əli açıq kəsdi, səxavətlidi,
İnsan deyilənə xoş niyyətlidi,
Yamanlığa qarşı dəyanətlidi;
Comərd insanlardan biridi Müşfiq.

Ona işi düşən çəkmir intizar,
Zəhmətsevərlərə məhəbbəti var.
Görəndə kim isə qalıbdı naçar,
Hamıdan qabaqda yeridi Müşfiq.

Çətin məqamımda tutdu qolumdan,
Durdu axıradək, qaçmadı bir an.
Belə oğullara can qurbandı, can,
Bu Pənah Göyçənin piridi Müşfiq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DARIXMA

*Qonşum Vəzirə*

Vay o elə əsir düşür
Ziyalısı ehtiyaca;
Ömrün yarı yaşındaca
Gücdən düşür, olur qoca.

Kainata zinət insan,
Şərəf insan, şöhrət insan,
Tükənməz güc, qüdrət, insan
Nədən dönsun yalavaca?!

Belə getməz, belə qalmaz,
Qış keçməsə gələrmi yaz?!
Bu hikmətlər deyil dayaz
Haqq var, heç nə deyil bica.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BİZ

***Göyçə elinin ləyaqətli oğlu***
***Elbrus Məhəmmədoğluna***

Ay Elbrus, gərdiş bizi tuş etdi,
Kaş dostluğun sevincini bölək biz.
Deyirlər ki, yaxşı kəslər azalır,
Hər yaxşının qiymətini bilək biz.

İnsan əvvəl qiymət qoysun özünə,
Nakəslərin əməli nə, sözü nə?!
Hər yaxşının, hər insanın üzünə
Ömür boyu gülə-gülə gələk biz.

El içində ağ olmuşuq, ağ olaq,
Axıracan əqidəsi sağ olaq.
Yaxşılıqda bir bəhrəli bağ olaq,
Tanımayaq böhtan, riya, kələk biz.

Yaxşılıqdı ümidgahı bu elin,
Yaxşılardı al sabahı bu elin.
Ən yaxşını seçdik şahı bu elin,
Hər işində ona duraq kömək biz.

Mərd kişilər qalasıdı şübhəsiz,
Pənah, nakəs solasıdı şübhəsiz.
Ömür camı dolasıdı şübhəsiz,
Bax o zaman kişi kimi ölək biz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ELBRUS

Səninçün burnumun ucu göynədi,
Yaman arzuladı dilim, Elbrus!
Yenə sıxmaq üçün ehtiram ilə,
Gəzdi əllərini əlim, Elbrus!

Sən hələ dövrandan bac alacaqsan,
Şan-şöhrət adlanan tac alacaqsan.
Əvvəlkindən artıq güc alacaqsan,
Şahid olacaqdır elim, Elbrus!

Alicənablığın, qeyrətin ilə,
Lap cavan yaşından düşmüsən dilə.
Təzə kabinetdən tez xəbər elə,
Uçum, təbrikinə gəlim, Elbrus!



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QARDAŞ

***Eloğlum Əlǝddinǝ***

Əlǝddin, ǝzizim, yapış qolumdan,
Mǝhv olub gedirǝm, amandı, qardaş!
Çoxlarının işi çǝtindi bu an,
Mǝnimki yamandan yamandı, qardaş!

Gözǝllik aşiqi oldum hǝr zaman,
Cǝnnǝtǝ tay idi mǝnǝ bu cahan.
İndi yaşamaqdan bezmişǝm inan,
Göylǝrim açılmaz dumandı, qardaş!

El, vǝtǝn dardadı, gülǝrmi gözüm,
İtirib şuxluğu söhbǝtim, sözüm.
Bir dǝ baxdın tamam tükǝndi dözüm,
Bir dǝ gördün Pǝnah o yandı, qardaş!



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DƏYMƏZ

***Neft Akademiyasının
dossenti Hamlet müəllimə***

Həyat ki, var mübarizə,
Odur işıq verən gözə.
Düşmədinsə təzə izə,
Sağlamlıq da gətirməz həzz,
Yaşamağa  dəyməz, dəyməz.

İmkan ki var, ək, yarat, qur,
Yaşamaqda məna budur;
Pərvərdiyar deyincə, dur,
Gəzsən şöhrət, umsan əvəz,
Yaşamağa dəyməz, dəyməz!

Zirvələrdə qar olmasa,
Bağçalarda bar olmasa,
Qədirbilən yar olmasa,
Həyat, cahan quru bir səs;
Yaşamağa dəyməz, dəyməz!

Əlin olsa ixtiyarsız,
Əməllərin qalsa barsız,
Ömrün keçsə intizarsız,
Susar könül, sönər həvəs, -
Yaşamağa dəyməz, dəyməz!

Məhəbbətlə yaşamasan,
Həsrət yükü daşımasan,
Vüsal ələ gəlsə asan,
Gəl Pənahla eyləmə bəhs,
Yaşamağa dəyməz, dəyməz!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SƏNİN

***Gələcəyinə böyük ümidlər***
***bəslədiyim, ulu Göyçənin***
***gənc şair oğlu Elnura***

Göyçə ruhu qalıb qaynar qanında,
Odur ki, şirindir lisanın sənin.
O yurda sevgini yaşat canında,
Ömürdən sayılsın hər anın sənin.

Zamanla sınanıb, bilir hər bəşər,
Mərdlik və dəyanət qazanır zəfər.
El səni tanısın bir ər oğlu ər,
Axı, qarışıqdı zamanın sənin.

Elnurlar dağıdıb dumanı, çəni,
Azad edəcəkdir ulu Göyçəni.
Çökmüş görəcəksən qarı düşməni,
Pənah, doğrulacaq gümanın sənin.



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SƏNİ

***Həyatdan vaxsız köçmüş***
***əziz dostum Tahir***
***Əlizadənin oğlu Tokaya***

Şükür kəràminə Ulu Tanrının,
Gözəl dünyamıza gətirib səni.
Təpədən-dırnağa Tahir olmusan,
O kökün üstündə bitirib səni.

Canlı əşrəfdi saflar, yaxşılar,
Hər y axşı əmələ səbəbdi onlar.
O böyük Yaradan, aşkardır, aşkar,
Yaxşılar yaxşısı yetirib səni.

Bulaq kimi duru saf xislətinlə,
İnsan deyilənə məhəbbətinlə,
Mərdliyin, qeyrətin, ləyaqətinlə
Pənahın qəlbinə ötürüb səni.



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DOQQUZ MAY

***Əziz dayım Mədətin və onun taleyini bölüşmüş milyonların xatirəsinə.***

Ay doqquz May, sən tarixə birdəfəlik yazıldın,
Qızılgül tək, qərənfil tək sinələrdən asıldın.
Sən ilin də, fəsilin də gör nə gözəl çağısan,
Faşistlərə, daşnaklara çəkilmiş göz dağısan.
Sən dünyanın yanğınına dayan, dedin, dur, dedin,
İnsan oğlu, özünə gəl, sökmək olmaz, qur, dedin.

O lənətlik cahangirlər dünya mənim, dedilər,
Bəşər oğlu bir-birinə olsun qənim, dedilər.
Bircə anda Yer üzünü sardı hərbin odları,
O tonqalda yanmaq üçün, yola saldı yar yarı.
Mənim bircə dayımı da apardılar o zaman,
Yazıq anam səadətdən məhrum oldu həmən an.
Gedər-gəlməz adlı yolla getdi, itib batdı o,
Hansı adsız qəbirdəcə əbədilik yatdı o.
Bəlkə ölüm tapdı onu bircə güllə atmadan,
Kimi isə xilas edib bəlkə, olub qəhrəman?!
Düz qırx beş il əziz anam, o yolları gözlədi,
Söylədiyi bayatılar hər ürəyi közlədi.
Mən dünyaya gələn gündən dayımı səsləyirəm,
İtkin düşmüş xəyalını qəlbimdə bəsləyirəm.
O odlardan, alovlardan qalib çıxan hər insan,
Bizim üçün mö’cüzədi, əfsanədi hər zaman.

Ay doqquz May, sən tarixdə, birsən, bir də olasan,
Son davanın, qələbənin simvolu tək qalasan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BƏDİRXAN

***Qərbi Azərbaycanın Ağbaba***
***mahalının ləyaqətli oğlu***
***Bədirxan Haqverdiyevə***

Layiqli bir nəslin qadir oğlusan,
Qərbi Azərbaycan elin, Bədirxan!
Əlvan gül bitirir, çiçək bitirir,
Qanqal tanımayır çölün, Bədirxan!

Nakəslə, namərdlə öc olmusan sən,
Dolaşıq dövrandan bac almısan sən.
Şəksiz, halallıqdan uc almısan sən,
Odur ki, gətirir əlin, Bədirxan!

Sənə Qağa deyib, budur həqiqət,
Başına dolanır Şahinlə Söhbət.
Xoşbəxt yaradıbdı səni təbiət,
Əqlinə tabedi dilin, Bədirxan!



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QARDAŞ

***Qarabağ uğrunda döyüşlərdə aldığı yaralarla çarpışan Şahin Haqverdiyevə***

Can-can deyən bu ellərdən
Güc al, qardaş, güc al, qardaş.
Səni sıxan ağrılardan
Bac al, qardaş, bac al, qardaş.

Nakəslərə dünya dardır,
Eli sevən bəxtiyardır.
Döyüşçü tək adın vardır,
Ucal, qardaş, ucal, qardaş .

Duaçındı Pənah hər an,
El oğluna qurbandı can.
Kömək olsun qoy Yaradan,
Nə əyil, nə qocal, qardaş.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ŞƏHİDLƏR

*Şəhidlərin xatirəsinə*

Siz, ey şəhid olan ərlər, ərənlər,
Xöşbəxt gələcəyə yol göstərənlər!
Siz, ey ana yurdun mərd oğulları,
Şöhrəti, qüdrəti, dövləti, varı!
Siz, ey insanlığın eşqi, əməli,
Haqqın, ədalətin yorulmaz əli!
Siz, ey el yolunda candan keçənlər,
Əcəl şərbətini vaxtsız içənlər!
Siz, ey varlıqları vəfa, sədaqət,
Amalı xöşbəxtlik, eşqi səadət!
Sizsiniz həqiqət, sizsiniz varlıq,
Qismətiniz sonsuz bir bəxtiyarlıq,
Nə qədər həyat var, var olacaqsız,
Nə qədər dünya var, ucalacaqsız.

## DİRİSİNİZ

Haqq dünyaya köçmüsünüz,
Mələksiniz, pərisiniz.
Abu-kövsər içmisiniz,
Yaradanın sirrisiniz.

Üstümüzə gəldi duman,
«Yox», dediniz siz həmin an.
Ərlər üstə durur cahan,
Siz bu günün ərisiniz.

İnsan oğlu deyir «mən, mən!»,
Siz dediniz «Əvvəl vətən!»



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kaş olaydım sizlərə tən;
Dirilərdən dirisiniz.

## ZƏRİFƏ XANIM

***Sözün əsl mənasında insanın qəlbini***
***görə bilən loğmana,Tanrı nuru Zərifə xanıma***

Ulu Tanrı yanında,
Əzəl, - Zərifə xanım.
Xisləti binadan pak,
Gözəl, - Zərifə xanım.

Gözlərin şəfəq saçır,
Qaranlıq uzaq qaçır.
Əlin dəysə gül açır
Xəzəl, Zərifə xanım!

Elə mehir salmısan
Mələk tək ucalmısan.
Cüt möcüzə almısan,
Göz, əl, Zərifə xanım!

Yaranmısan, ey mələk,
Haqq nurundan təkcə, tək.
Kim görübdü sənin tək
Düz əl, Zərifə xanım?!

Pənah dili dualı,
Ya Rəbb, qoru bu halı.
Yazsın qoşma, gəraylı,
Qəzəl, Zərifə xanım!

*****



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsan oğlu, təkcədi,
Tanı, Zərifə xanım.
Axtar bütün keçmişi,
Hanı Zərifə xanım?!

Xoş Anında yaranıb,
Nur selidi, daranıb.
Bəs deyincə qazanıb
Şanı Zərifə xanım.

Haqqın sevdiyi odur,
Hər mərəzə deyir, dur.
Göz yaşı tək duruldur
Qanı Zərifə xanım.

Pənah Göyçə fikir ver,
O Haqqdan gələn bir sirr;
Anadangəlmə edir
Canı Zərifə xanım.

## ZƏRİFƏMİZ

Həm həqiqət, həm əfsanə,
Həm xəyaldı Zərifəmiz.
Gül əlləri şəfalıdı,
Dili baldı Zərifəmiz.

Yaradanın nurudu o,
Bulaq kimi durudu o.
Sağlamlığı qorudu o,
Nur misaldı Zərifəmiz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O incidi, nurdu, Allah,
Hərarətdi, qordu, Allah.
Hər mərəzi yordu, Allah,
Xoş vüsaldı Zərifəmiz.

Əməl gözəl, ürək gözəl,
Arzu gözəl, dilək gözəl.
Xəlq olub bir mələk, gözəl,
Xoş sualdı Zərifəmiz.

Dayan deyir yamanlara,
Nur çiləyir qaranlığa,
Pənah Göyçə, insanlığa
Bəzək, xaldı Zərifəmiz.

## ZƏRİFƏ XANIM

Tanrı nuru kimdi, sordum, eşitdim,
Elin sevimlisi Zərifə xanım.
İnsanlara şəfa paylayıb, olub
Dilin sevimlisi Zərifə xanım.

Dörd yana nur saçır yaz Günəşi tək,
Yanında solğundu huri, həm mələk.
Çoxdandı, hər gələn, özün hesab çək,
İlin sevimlisi Zərifə xanım.

Dağıtdı başından dumanı, çəni,
Ömrünü yenidən başladı yəni.
Qurtardı mərəzdən Pənah Göyçəni,
Bilin, sevimlisi Zərifə xanım.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

## ZƏRİFƏDİ

Bu gün haqqa ən yaxın kəs, bilir cahan, Zərifədi.
Həmi huri, həmi mələk, həm də insan, Zərifədi.

Yaradanın bir zərrəsi qərar tutub vücudunda,
Hər mərəzə dayan deyən mübarək can, Zərifədi.

Binasından görməyibdi dünya üzü belə xilqət,
İnsanlığın iftixarı, ad, şərəf, şan, Zərifədi.

Ehtiyacı olanların həyatına nur çiləyən,
Qəlbi kövrək, dili şirin, həm mehriban, Zərifədi.

Onu kamil yaradıbdı Ulu Tanrı başdan-başa,
İnsan üçün, bəşər üçün şam tək yanan Zərifədi.

Səxavətli, mərhəmətli, şəfaətli xisləti var,
İmkansıza, əlacsıza olan həyan Zərifədi.

Əllərinin şəfasından həyat içdi Pənah Göyçə,
Ana, bacı əvəzidi, ona canan Zərifədi.

## HƏKİM

Alqış kəreminə, Ulu Tanrının
Nurundan həyata gəlmisən, həkim!
Nə qədər xəstəyə şəfa vermisən,
Ağrı-acısını silmisən, həkim!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana sevgisi tək xoş niyyətin var,
İnsan deyilənə məhəbbətin var,
Tanrı bəxşeyişi bir sənətin var,
Mənim də dərdimi bilmisən, həkim!

Şəfa bulağıdı zərif əlləriin,
Onlara tən gəlir şirin dillərin.
Sənə toxunmuyub ötən illərin,
Çiçəkmisən, həkim, gülmüsən, həkim?!

## YETİM MAİS

***Şamaxılı Mayis üçün***

Bir vaxt fələk fərmanıyla
Bir ad aldı, - Yetim Mayis.
O zamandan ədalətə
Meyil saldı, - Yetim Mayis.

İllər ötdü ağır-ağır,
Tanınmadı əsla fağır,
Zirvələrə saldı cığır,
Hey ucaldı Yetim Mayis.

El bilir, sən də tanı,
Əlaçıqdı, tayı hanı?!
Dost eyləyir hər insanı,
Dili baldı Yetim Mayis.

Yol alıbdı kamilliyə,
El içində varam deyə.
Pənah Göyçə, comərdliyə
Bir misaldı, Yetim Mayis.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DEYİŞMƏLƏR SƏSLƏŞMƏLƏR



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**PƏNAH GÖYÇƏ**

## GÖRMÜŞƏM

Rast gəlmədim bir ağıllı insana,
Hərəni bir cürə dəli görmüşəm.
Təsəlliymiş doğru sözdən yüz kərə
Yalançının zəri, ləli, görmüşəm.

Azalır yaxşılar, namus, ar, qeyrət,
Sevirəm deyəndə əhdə sədaqət.
Kimin caynağına keçirsə fürsət
Onu el malına zəli görmüşəm.

Buna səbəb nədir, kimdədir günah,
Dünya qocaldıqca artır aman, ah.
Əgər doğru demirəmsə mən Pənah,
Qoy söyləsin qağam Əli, görmüşəm.

**HACI ƏBÜLFƏZ QURBANSOY**

Doğru söyləyirsən, ay Pənah qağa,
Dünya təzadlıdır, bəli, görmüşəm.
Təkrarı sevməyir böyük Yaradan,
Bax, mən gicəm, sən gülməli, görmüşəm.

Fələk ona verib elin varını,
Gör necə harındı, toxdu qarını...
Mollacıq ağzına atsaq darını,
Bəd üfürən qəfil yeli görmüşəm.

Varlıq nə müxtəlif, həyat rəngarəng,
Əbülfəz söyləsin, di, sən də qol çək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir xəyaldı gözəl həyat, gələcək,
Gethagetdi, selhaseldi, görmüşəm.

**ƏLI QURBAN DASTANÇI**

## MANAT

Sən bəşər evinin unu, urvası,
Ələyi, tabağı, sacısan, manat!
Xaçpərəst xaçısan, bütpərəst bütü,
Müsəlman Məkkəsi, hacısan, manat!

Dostsan, hər əhdinə sadiq, mehriban,
Düşmənsən, hər işin tamam nahaq qan.
Zahirdə mələksən, vurulur insan,
Batində timsahın acısan, manat!

Səni xəlq eyləyir insan barmağı,
Olursan allahı, çıxırsan yağı.
Fəhlə ayağının yırtıq başmağı,
Şahların başının tacısan, manat!

İnsan cənnətisən, cəhənnəmisən,
Şadlığı, şənliyi, dərdi, qəmisən,
Atasan, anasan, dayı, əmisən,
Övladsan, qardaşsan, bacısan, manat!

Əzəldən şirinsən, daldan şirinsən,
Gözəl buxağında xaldan şirinsən.
Əliyəm, müxtəsər, baldan şirinsən,
İlan zəhərindən acısan, manat!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## PƏNAH GÖYÇƏ

Kimidə rüşvətsən, ürək qanısan,
Kiminin zəhməti, tərisən, manat!
Kiminin varlığı, eşqi, vicdanı,
Kiminin əlinin kirisən, manat!

Adicə kağızdan yaransan da sən,
Qüvvədə küləksən, bir dağ selisən.
Korun görən gözü, lalın dilisən,
Axmağın ağıllı sərisən, manat!

«Əliylə yaranıb yazıq insanın»
Allahı olubsan bütün dünyanın.
Amma saf ürəyin, təmiz vicdanın,
Sanma ki, milyonda birisən, manat!

Buna şübhə yox ki, bilir hər insan,
Dünyadan tez köçür hər yaxşı olan.
Sən isə iblissən, yamansan, yaman,
Odur ki, əbədi dirisən, manat!

Pənaha anlamaq deyildir çətin,
Qıfılı olubsan hər həqiqətin.
Onunçun yanında yoxdur qiymətin,
Baxma ki, xəsisin pirisən, manat!

**1965**



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**İDRIS**

## CIBIMDƏDI

***1966-cı ildə aspiranturaya qəbul imtahanları verdiyim günlərdə***

Çox sınadım, belə gördüm,
Nəfis, tamah cibimdədi.
Qohum, qardaş, əmi, dayı,
Ümid, pənah cibimdədi.

Hər nə desəm sözümnəndi,
Al da, ver də özümnəndi.
İş düzəltmək dizümnəndi;
Axşam, sabah cibimdədi.

İdrisə yaman çıxsalar,
Dostları düşmən çıxsalar,
Vəzifədən çıxarsalar,
Tamam günah cibimdədi.

**ƏLI QURBAN DASTANÇI**

## GÖTÜR

İndi ki, gedirsən qardaş,
Cibində amanat götür.
Hər müşkülə açar olan
Şaxlı-şaxlı manat götür.

Çinlə cibində dərc elə,
Yeri gələndə xərc elə.
Özündə yoxdu, borc elə,
Beş dostuna sanat, götür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vermə gözün qarasını,
Əli etsin çarasını;
Kəs bağrımın parasını,
Bir yanını qanat, götür.

**PƏNAH GÖYÇƏ**

## GÖTÜRMƏRƏM

Əzəl gündən məğrur oldum,
Artıq minnət götürmərəm.
Nə vermərəm, nə almaram,
Budur adət, götürmərəm.

Haqq yolunda yaram olsa,
Lap min dənə varam, olsa,
Tonda qram haram olsa,
Tona nifrət, götürmərəm.

Mənsəb alan pul gücünə,
Ya yalançı dil gücünə,
Yıxılacaq el gücünə;
Yox, yox, dəhşət, götürmərəm.

Zəhmətdir yol səadətə,
Qoy borc olsun hər xilqətə.
Çatmaq üçün ədalətə,
Var dəyanət, götürmərəm.

(zarafatyana)
Rüşvət üçün hanı karım,
Qoşa-qoşa qızıllarım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Götürərdim, olsa varım,
Deyim xəlvət, götürmərəm?

**1966**

## DÜNYANIN QARASINCA SƏSLƏŞMƏLƏR

**HÜSEYN ARİF**

## BU DÜNYA DÜZƏLSƏ...

Uzanır axşamnan səhərə qədər
Pünhani pıçıltı, xudmani söhbət.
Bilmirsən dost kimdi, düşmən hansıdı, -
Qəribə məhəbbət, qəribə nifrət.

Zamana bulaşıq, vaxt qarışıqdı,
Hər şey göz önündə açıq-saçıqdı.
Qapı nə örtülü, nə də açıqdı,
Atüstü ehtiram, atüstü ülfət.

Bu nə haqq-hesabdır, bu nə üsuldur,
Verməyə çalışır alıcı quldur.
Katibi maşında bir saldat tutur,
Bu necə vəzifə, bu necə xidmət?

Uçuruq şan-şöhrət havasına biz,
Baxmayıb ağına, qarasına biz...
Elə haram qatdıq mayasına biz,
Bu dünya düzəlsə atama lənət!

**FİRUDİN ŞİMŞƏK**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yetişdi kəlamın, Hüseyn Arif,
Dindirdi könlumu sözdəki hikmət.
Başımda fikirlər duman-dumandı, -
Üzdü ömrümüzü, üzdü siyasət.

Göz gözə inanmır, ürək sirdaşa,
Qartal qayasına, boz kəklik daşa.
Rüşvətlə çoxları dırmaşır başa,
Qalxır zirvələrə qarğa bədniyyət.

Həqiqət utanır, yalan aldadır,
Satıcı aldadır, alan aldadır.
Bundan betərləri hələ daldadır,
Neyləyim, neyləyim, beləymiş qismət.

Şimşəyəm, çox keçdim işgəncələrdən,
Əbəs ələnmədi saçlarıma dən.
Sənin dediyinə qol çəkməsəm mən
O zaman mənim də atama lənət.

## HACI ƏBÜLFƏZ QURBANSOY

Görən xərifləyib bu qoca dünya,
Yoxsakı olubdu beləcə binnət.
Doğruya zaval var, düz düzdə qalıb,
Donqardan, qozbeldən götürür minnət.

Müsəlmanam, işim daima qalda,
Odur ki, bu qədər qalmışam dalda.
Başım kəsilməli olduğu halda
Hardan ortalığa çıxdı bu sünnət?

Təmkini alıbsa Hüseyn eldən,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəs niyə əlləri üzülüb əldən?
Şimşək dünya deyə düşübdü dildən,
Əli elə bilir dünya bir cənnət.

Bilinmir dünyanın dolusu, boşu,
Ağlı çox çaşqındı, səydaşdı huşu.
Qərəzkar ağsaqqal, a xain qonşu,
Ağa qara deyən zatına lənət.

## ƏLİ QURBAN DASTANÇI

Alçağı, namərdi, mərdimazarı
Doğub əmizdirən xatına lənət.
Alçağın, namərdin, mərdimazarın
Nüftədə, loğmada qatına lənət.

Nanəciblər yağı yeyib şor deyib,
Ağ otağa, al eyvana gor deyib...
Kor at minib, babam mənə kor deyib,
Köndələn çapanın atına lənət.

Xainlər qonşuya xain baxdılar,
Çörəyi yedilər, bıçaq çaxdılar.
İlqara, peymana dönük çıxdılar,
Zatıqırıqların zatına lənət.

Hüseyn Arif, Firudin Şimşək küsməsin,
Dünyadan ümidi belə kəsməsin.
Haqqa qarşı durub coşub əsməsin,
Mat olar, deyərik matına lənət.

Dünyanın mayası götürmür haram,
Bədgüman görmüşəm, deşilib yaram.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əliyəm, çaşbaşın əlindən zaram,
Sınıq inamların çatına lənət.

## DÜNYA

Şükür yaradana, qüdrət yaradıb,
Külli kainata gözdü bu dünya.
Gözəlliyi mindi, başı insandı,
İnsanın dilində sözdü bu dünya.

Min dəfə boşaldı, min dəfə doldu,
Min yol çiçək kimi açıldı, soldu.
Min-min əllamənin şikarı oldu,
Dözümü böyükdü, dözdü bu dünya.

Əli, hesaba al zamanı, vaxtı,
Əyri çoxalsa da qorxmaq nahaqdı.
Düzlərin çiynində yaşayacaqdı,
Heç zaman əyilməz, düzdü bu dünya.

**PƏNAH GÖYÇƏ**

## XİLQƏT

Gecəylə gunduzdən qurulur zaman,
Qoşa da qalacaq sevgiylə nifrət.
Oxşar buğda dəni görməyib cahan,
Demək, bir-birinə bənzəməz xilqət.

Biri nəfsə ağa, o biri quldu,
Deməli o varlı, busa yoxsuldu.
Namərdlik birinin tutduğu yoldu,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birinin qanına hopubdu qeyrət.

Birinin nəsibi şaxta, boran, qar,
Birinin payında səadət də var.
Biri ömür boyu xoş gun arzular,
Görürsən birinə əzizdi zillət.

Dövrün havasını biri çalandı,
Birinin binadan qəlbi talandı.

Biri nə eşitsə, deyər yalandı,
Biri nə desələr eyləyər biət.

Bir tərəfdə yası, bir yanda toyu,
Həyat bir bulaqdı, qurumaz suyu.
Hələ milyon-milyon sənələr boyu
Sevinclə, zarıncla gedəcək millət.

## DÜNYA

Görmədim bir nəfər «oxxay» deyəni,
Yetən deyir, bəddi zamana, dünya!
O, sevib, bu biri söydükcə səni,
Baxmırsan nə ona, nə buna, dünya!

Çoxları bəxtinə atdı kəməndi,
Bir vaxt ayıldı ki, həmən-həməndi.
Birisi ömürlük quyruq əməndi,
Birisi həsrətdi samana, dünya!

Kimi Məcnundu ki, yetişsin yara,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kimisi də yaddı əhdə, ilqara.
Kimi bat-barındı dövlətə, vara,
Kimi də möhtacdı tumana, dünya!

İstərdim yaxşını bir yol duyasan,
Pisin dərisini tutub soyasan.
Axı gərəkdir ki, bir fərq qoyasan,
Mərhəmsən yaxşıya, yamana, dünya!

Km deyir qocasan, indi bədrsən,
Əbədi bir yoldu, tutub gedirsən.
Hər nə edirsənsə, doğru edirsən,
Pənah düşməz özgə gumana, dünya!

## BU DÜNYA

Kiminin gözündə qara bələnib,
Kiminin gözündə ala, bu dünya.
Kiməsə dümağdı, - qara bələnib,
Kiməsə görünür ala, bu dünya.

Kiminin gözündə mətin qaladı,
Kiminin gözündə «çətin qala»dı.
Kiminin qəlbində düzlük qaladı,
Kimini tapşırdı ala, bu dünya.

O yaranıb yanaq öpə, dil əmə,
Bu yazıq da pay alıbdı dilə «mə».
Aqil olan, artıq-əskik diləmə,
Nə versə şükr edib al, a, bu dünya!

Çəkirsən kölgənə, qalana, kimi?



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Yazırsan odlara qalana, kimi?
Hamının qeydinə qal ana kimi,
Ya da ki, kamına al, a bu dünya?!

Pənaha şirindi, xoşdu gələcək,
Nadana gün-gündən qara gələcək.
Kimiyə keçmişdi, kimə gələcək,
Mümkünmü hər könlü ala bu dünya?!

## DÜZƏLƏ

Əyrilər də, düzlər hələ bir yana,
Deyir, getdi, dünya çətin düzələ.
İstəsən ki, dünya çıxsın bir yana,
Əzəl başdan götür özün düzəl, ə!

El bilir ki, düzəlməsə əgər biz,
Zülm verər, deşib keçməz əsla biz.
Ələkləri əyrilərə verib biz,
Yazıq-yazıq yalvarırıq, düz ələ!

Çinar dözməz bağlanmasa kökündən,
Ona görə dərin atır kökün dən.
Qaydaları dəyişməsək kökündən,
Fürsət əsla keçən deyil düz ələ.

Fərhada da təpər verən qəlb idi;
İnsan oğlu qəlbi ilə qəlbidi.
Arzularla yaşatma gəl qəlbi di,
Nə diləsə həmin gün də düz ələ!

İşığadı bütün yollar dünyada,
Pənah, bunu sırğa etsin Dünya da.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Haram əməl başa varmaz dünyada,
Geci-tezi gələcəkdir düz əl, ə!

## OLA BİLMƏZ

Doxsandoqquz olsa bir şey əzəldən,
Yüz dəfə saysan da yüz ola bilməz.
Cökə palıd ilə gələ bilməz tən,
Söyüd alovlanar, köz ola bilməz.

Təkrarsız yazılıb yolu cahanın,
Öz hüsnü, öz hökmü vardır hər anın.
Nəbzi düz tutulsun gərək zamanın,
Onsuz heç bir əməl düz ola bilməz.

Minbir əmzik olub sorulur dünya,
Nə tükənir, nə də yorulur dünya.
Düzlərin əliylə qurulur dünya,
Onda əyrilərdən iz ola bilməz.

El deyib ki, qurd qoyunla otlamaz,
Ağlı olan, niyə, deyib çatlamaz.
Əyri öz xoşuna qıraq qatlamaz,
Varaqla tarixi, gəz, ola bilməz.

Kainat əbədi, həm də əzəldi,
Ancaq nə yaransa gec-tez xəzəldi.
Həyat bal kimidi, dünya gözəldi,
Pənah, bundan özgə söz ola bilməz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**KARIM QƏMƏR XANIMLA SƏSLƏŞMƏ**

## QUZU KƏSİM

Ay vəfalı karım mənim,
İsmətinə quzu kəsim.
Çox kişidən qeyrətlisən,
Qeyrətinə quzu kəsim.

Mələksayaq xislətin var,
Baldan şirin söhbətin var.
Yamanlığa nifrətin var,
Nifrətinə quzu kəsim.

Ay Pənahın can həkimi,
Üz könlümdə sonam kimi.
Yatışın var anam kimi,
Adətinə quzu kəsim.

**ALDI KARIM**

## QURBAN OLUM

Kainata tək gəlmisən
Xislətinə qurban olum.
Hər sahədə yaradansan,
Qüdrətinə qurban olum.

Ona görə zalım fələk,
Tez-tez qurur sənə kələk.
Sağlamdı ruh, safdı ürək, -
Halətinə qurban olum.

Tale səni verən gündən,
Həyat nədi, anladım mən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Heç olmasa səksənəcən...
Vəhdətinə qurban olum.

**PƏNAH GÖYÇƏ**

## YOXDU

Deyişmə ustası Sənəm Səbayel,
De görüm nədir ki, hesabı yoxdu;
Aşiqlər onlara deyir dərdini,
Onların heç kəsə xitabı yoxdu.

Uşağın, böyüyün diqqətindədi,
Huşyar olanların heyrətindədi,
Kimsə əl dəyməyib, desin ki nədi,
Hələ tamam-kamal kitabı yoxdu.

İlahi, necə də bənzəyir közə,
Səpilən deyildir cığıra, izə,
Axı onlar niyə əzizdi bizə? –
Nə xeyri, nə də ki savabı yoxdu.

Çoxları axtarır düşərək izə,
Tapanlar sevinir, təzədir, təzə.
Olur ki, biri də görünmür gözə
Ancaq heç birinin niqabı yoxdur.

Hesabsız olsa da onların sayı,
Ay Pənah, hərənin bircədi payı.
Onlar əvəz etmir bədirli Ayı,
Baxma, gizlənməyi, nə xabı yoxdu.

**SƏNƏM SƏBAYEL**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# YARADAN BİLİR

Sən ey alim şair, sən ey nur şair,
Başını göylərə qaldır bir, şair.
Sayı hesabı yox, sirdir, sirr, şair,
Ulduzdu, hesabın Yaradan bilir.

Hər biri Yer boyda, Günəş boydadı,
Böyük dar məcraya sığmaz, qaydadı.
Elə görünməyi bizə faydadı,
Xeyirin, savabınYaradan bilir.

Uzanır yol kimi göydə kəhkəşan,
Səhrada azana səmt verir nişan.
Hər biri barədə çoxdu danışan,
Onların kitabın Yaradan bilir.

İnsan sanır onu sehr, möcüzə,
İstər köhnə olsun, istərsə təzə.
Niyə gizlənirlər nə tutub üzə,
Ən doğru cavabın Yaradan bilir.

Ölçüsüz, mizansız yoxdu darı da,
Yaradan yağdırır sayla qarı da.
Ay Sənəm, Ayı da, ulduzları da,
Günəşlə boğmağı Yaradan bilir.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**PƏNAH GÖYÇƏ**

## DEYİL

Gecə-gündüz bilməz, dinclik tanımaz,
Necə güc alırsa, yorulan deyil.
Aqillər deyər ki, al saflığa yaz,
Nadan cəhd edər ki, durulan deyil.

Sirrini, varını dərində gizlər,
Pənah gətirəni saxlar, əzizlər,
Onu sevgilisi qücar birtəhər,
O nazından qalmaz, vurulan deyil.

Ona könül verib əzəldən bəşər,
Napaklıqdan qaçar, paklığı sevər,
Pənah, bir üzü var, desən müxtəsər,
Gündə özgə cürə qurulan deyil.

**SƏNƏM SƏBAYEL**

## VAR

Körpə uşaq kimi şirin yatmağı,
Əməksevər sayaq yorulmağı var.
Hərdən çalxalanıb tam bulanmağı,
Hərdən göz yaşı tək durulmağı var.

Sirrini bölüşməz hətda şah ilə,
Gündüz Günəşlədir, gecə Mah ilə!
Onu qucaqlayan qumlu sahilə,
Dəli tək çırpılıb vurulmağı var.

Şairim, məni az dağ-daşda gəzdir,
Göy gözlü gözəlin adı dənizdir.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Sənəm Səbayelə dostdur, əzizdir,
Tək qalanda ona vurulmağı var.

**SƏNƏM SƏBAYEL**

## GƏL AYRILAQ

Sən mənə, mən sənə aşıq,
Bilə-bilə gəl ayrılaq.
Nə qədər ki, düşməmişik
Dildən dilə, gəl ayrılaq.

Sən özgənin, mən özümün,
Səbrini kəsdik dözümün.
Köklənib könül sazımın,
Bəmi zilə, gəl ayrılaq.

Sevgidən dastan yazmışıq,
Vüsala həsrət qalmışıq,
Bir yuxu gördük qarışıq,
Deyək belə, gəl ayrılaq.

Aramızdan sədd çəkək biz,
Bu sevgiyə xətt çəkək biz.
İldən ilə dərd çəkək biz,
Zülüm ilə, gəl ayrılaq.

Çətin tapaq səadəti,
Qəbul eylə həqiqəti.
Ayrılıq verən zilləti
Bölə-bölə qəl ayrılaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Son dəfə duraq üz-üzə,
Son dəfə baxaq göz-gözə.
Göz yaşı düzülsün üzə,
Silə-silə gəl ayrılaq.

Dolandır məni başına,
Bir daha çıxma qarşıma,
Yorulmayaq boş-boşuna,
İnsaf elə, gəl ayrılaq.

**PƏNAH GÖYÇƏ**

## AYRILAQMI

Bədbəxt ağıl hökm eləyir,
Deyir elə, ayrılaqmı?
Tabe olsaq yoxdu xeyir,
Bilə-bilə ayrılaqmı?

Yox söyləyib etibara,
Vida edək son bahara?
Ağıl bizi çəkir hara,
Olub kölə ayrılaqmı?

Hissimizə əsirik biz,
Qan tökəcək gözlərimiz.
Sevgi ülvi, sevgi təmiz,
Silə-silə ayrılaqmı?

Aralığa girsə hicran
Ürəyimiz qusacaq qan.
Özümüzə, ay mehriban,
Qurub tələ ayrılaqmı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəqdi eşqi verib yelə
Gözləyək ki, bir də gələ?
Bəxt dediyin yenə elə
Çətin gülə, ayrılaqmı?

Sevgi sevinc, sevgi həyat,
Sevgidəndi bu kainat.
Biz xətt çəkib ona beş qat,
Seçib nalə ayrılaqmı?

Mümkündür ki, bu dünyada
Bizdən qalsın xoş bir səda.
Onda niyə dönək yada,
Ölə-ölə ayrılaqmı?

Kimin könlü sevgi içir,
Xöşbəxt ömrü an tək keçir.
Eşqsiz bir an deyildir sirr,
Dönür ilə, ayrılaqmı?

Məhəbbətlə ötsə bir an,
Pənah, varam desin insan.
İmkan varkən, nazlı canan,
Verib yelə ayrılaqmı?





**1111111247899**
**(11.12.1940)**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# KEÇİBDİ

**SƏNƏM SƏBAYEL**

Niyə səsin gəlmir, ay Pənah Göyçə,
Sənə bu tənbəllik kimdən keçibdi?
Tap söz gözəlini, nazənin, incə,
Könül ver, könül al, qəmdən keçibdi.

**PƏNAH GÖYÇƏ**

Əfsus, deməliyəm, ay Sənəm xanım,
Bitdi, şer, sənət məndən keçibdi.
Könlümün bağına daha qar yağır,
Dumandan keçibdi, çəndən keçibdi.

**SƏNƏM SƏBAYEL**

Qar yağdıran qışa gələr yaz, de sən.
Sevgilin küsübsə, buna naz de sən.
Yazmayacam nədi, başqa söz de sən,
Hər sözə inanmaq məndən keçibdi.

**PƏNAH GÖYÇƏ**

Bilməm necə ötdü gənclik, görmədim,
Gül-çiçək yığmadım, çələng hörmədim.
Yarın bağçasına yazda girmədim,
Bir də gördüm, hər şey gendən keçibdi.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**SƏNƏM SƏBAYEL**

Sənə heç yaraşmır taledən giley,
Qüzeydə qar qalar, gün tutar güney.
Bu cənnət dünyanı sözlə bəzə hey,
Səbayel inanmaz, səndən keçibdi.

**PƏNAH GÖYÇƏ**

Fələyin zülmündən əsla aman yox,
Pənah yaşamadı qayğısız an, yox.
Axirət deyilən varmı, güman yox,
İmandan keçibdi, dindən keçibdi.



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**PƏNAH GÖYÇƏ**

## GÖZƏL

***Şairə Sənəm Səbayelə,***
***xəstə yatarkən zarafatyana***

Səni ayaq üstə görmüşəm hər an,
Özgə möcüzəsən, a yatmış gözəl!
Sonbahar ömrümdə yaşanıb çoxdan,
Onda yeni bahar oyatmış gözəl.

Sevgiyə yad olan sayılmaz xilqət,
Sevgidi dünyada ən ülvi nemət.
Ekiz doğulubsuz, sən və məhəbbət,
Sevgi dünyasında boy atmış gözəl.

Tanrının bəxşişi, bir möcüzəsən,
Sən gəldin, ömrümdən itdi duman, çən.
Pənah səhv eləməz desə ki, sənsən
Bütün aşiqlərə naz satmış gözəl.

**SƏNƏM SƏBAYEL**

Başım qarışandan qayğılarıma
Dərdim damarımda boy atmış, gözəl.
Kənardan baxanlar xoşbəxt deyəndə
Bəxtim qaralanıb, ay yatmış, gözəl.

Sevgidən danışıb tərpətmə məni,
Qaytara bilmirəm küsüb gedəni.
Əcəl yastığımda kim sevər məni,
Hansı xəstə duyğu oyatmış gözəl?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səbayeləm, dad eylərəm yaradan,
Qismət varsa, yar olacaq Yaradan.
Düzünü de, səndə sevgi yaradan
Əlli gözəl olub, ya altmış gözəl?!

**PƏNAH GÖYÇƏ**

## P.S.

Altmış nə saydır ki, a qız qardaşım,
Sevgidən açılıb bircə an başım?
Düzü belədir ki, körpəliyimdən
Hər an eşq ilə yaşamışam mən.
Daim kimi isə seçib gözlərim,
Uzaqdan səadət içib gözlərim;
Xəbəri olmayıb bundan onların,
Məni çulğalayan süstlü baharın
Digər səbəbkarı musiqi olub.
Hər hansı təranə qəlbimə dolub,
Ruhumu göylərə qaldırıb həmən;
Qoşa məhəbbətlə yaşamışam mən.
«Sevgim» yaşayardı bir ana kimi,
Seçdiyim özgəyə baxana kimi.
Belə «dönüklük»dən könlüm küsərdi,
Dərhal da bir özgə gözəl seçərdi.
Bu sayaq yaşadım ömrün çoxunu,
On beş ildir seçdim özgə «yuxunu».
Yenə musiqidir sərvətim, varım,
Başımın tacıdır vəfalı karım.
Min ömrüm olsaydı bu gündən belə
Onları bu sayaq verərdim «yelə»...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MEHMAN ABBASOV**

## DÜŞDÜ

Heç bilmirəm, necə gəldi qocalıq,
Aydındır ki, cavanlığım kəm düşdü.
Məhəbbətə həsrət qalan könlümə,
Bəs deyincə kədər qondu, qəm düşdü.

Ömrünün yazını görmədim axı,
Əlvan günlərini dərmədim axı,
Yamaclara xalı sərmədim axı,
Əvəzində duman gəldi, çən düşdü.

Hər gözəlin öz ədası, nazı var,
Hər insanın alnında bir yazı var,
Hər dövranın öz söhbəti, sazı var;
Yaxşı nə var məndən döndu, gen düşdü

Mən Mehmanam, qonaq oldum dünyada,
Pənah Göyçə, qonaq sevmir dünya da!
Bu hikməti salmadınmı dün yada,
Nankor olma, demə nəsə kəm düşdü.

**PƏNAH GÖYÇƏ**

Mehman, qardaş, mən də sənin günündə
Bir də baxdım saçlarıma dən düşdü.
Ha çalışdım, gedim elin önündə,
«Yerini bil, dalda dayan, sən», düşdü.

Sərvət, şöhrət mənlik deyil, qıraqdı,
Bir mənsəbə yetişmərəm, uzaqdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yay günü də mənə düşən sazaqdı,
Əzab payım el payına tən düşdü!

Cavanlığım ötüb keçdi, bir xəyal,
Hər ay, hər gün mənə çatdı qilu-qal.
Deyirlər ki, gənclik tamam şəkər, bal;
Mənə isə acı, həm də, ən düşdü.

Hər qismətim kəsir oldu, yoxdu tam,
Göz açmamış damağımdan itdi tam.
Uşaq idim, bir də gördüm babayam,
Könlüm quşdu, ona çürük dən düşdü.

Pənah Göyçə, baş aparma, dayan bir,
Sən naşükür olmamısan, deyil sirr.
Həyat ki var, olmalıdı kəm-kəsir,
Nankor olma bütöv illər şən düşdü.



**1111111247899**
**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏMMƏD İLQAR**

# NƏ GÖZƏL ÇƏKİR

İlahi, belə də gözəl olarmı,
Kimdi qələm çəkən, nə gözəl çəkir?!
Üz-üzə, göz-gözə sehirlənmişik,
Nə mən göz çəkirəm, nə gözəl çəkir.

Xumar gözlüm, gözəllikdə bircəsən,
Bu güllükdə bir mən olum, bircə sən.
Gül üstündə arıya bax bircə sən,
Gör gülün nazını nə gözəl çəkir.

Salma gəl Məmmədi gözündən, gözəl!
Gözüm gözmü görüb gözündən gözəl.
Mən yazıq neynim ki gözündən, Gözəl,
Nə bir könül doyur, nə göz əl çəkir.

**NEMƏT PƏNAHLI**

Gizli xəzinədən zühur eyləyib,
Qüdrət qələmini nə gözəl çəkir.
Neçə bir zərrəni insan eyləyb,
Nə gözəl boy-buxun, nə göz, əl çəkir.

Ürək verib bizə, al-qan içində.
Oxlayıb aşiqlər, al-qan içində.
Çəkibdi çarmıxa, al qan için də,
Dara çəkəndə də nə gözəl çəkir.

Eşq mənim qanımda, həm canımda var,
Can içində gizli bir canım da var.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Məcnunam, Leyli tək bir canım da var,
Tanrım aşiqini nə gözəl çəkir.

Sərxoş aşiqinə gözəl mey süzür,
Haqq veribdi mənə gözəl mey, süzür.
Meyxanə küncündə Gözəl mey süzür,
Nə dil-dodaq doyur, nə göz əl çəkir.

Baxdım camalına, gözümdən çaldı,
Yandırdı könlümü «Ruhani» çaldı.
Nemətəm, ruhumu o gözəl çaldı,
Nə mən əl çəkirəm, nə gözəl çəkir.

## PƏNAH GÖYÇƏ

Bax Leyli-Məcnuna, Fərhad-Şirinə,
Yar yarın cövrünü nə gözəl çəkir!
Gün gələ, görəsən yetib şirinə,
Aşiq məşuquna nə göz, əl çəkir.

Gedər yar yarına qonaq röyada,
Olmur çoxlarına qonaq röya da.
İnsafa gələydi bir gün Röya da,
Görəydim nazımı, nə gözəl, çəkir.

Mal, pul nə şeydi ki, yara göz dəyər,
Pənah, qurban olsa ona göz, dəyər.
Bir qaydadı, gözəllərə göz dəyər,
Dünya ləzzətini, nə, gözəl çəkir?!

/ /*****



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cahanı yox yerdən böyük Yaradan
Nə gözəl yaradır, nə gözəl çəkir.
Məşhər ayağında görər hər insan,
O, haqqı, nahaqqı nə gözəl çəkir.

Özü kamil varlıq, gözəldən gözəl,
Əkir hər ürəyə gözəl dən, gözəl!
Durdum buyruğunda gözəldən gözəl,
Nə könül bəs deyir, nə göz əl çəkir.

Yazılır hər zaman göz, əl, əməlin,
Nicat gətirəcək gözəl əməlin.
Bir vaxt görəcəksən gözəl, əməlin
Səni qıl körpüdə nə gözəl çəkir.

Bir qaydadı qəlbi, ruhu ağ olan
Hər xilqətə deyər, sən də ağ ol, an!
El bilir ki, haqq deyənə ağ olan
Olur qəlb küsdürən, nə gözəlçə, kir.

Odur könlümdəki təkcə yar, ana,
Pənah tək sadiq yar çətin yarana.
Qəlbim kənar durmaz ondan, yar, ana,
Hər an eşq siqarın nə gözəl çəkir.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏMMƏD İLQAR**

## BAŞ BAŞA DÜŞMƏZ

Qann qana düşəndi, ürək ürəyə,
Yüz təbib yığıla baş başa düşməz.
Baş var başa çıxıb baş bilən olub,
Hayıf, başa layiq baş başa düşməz.

Dərdə tərəzidi, çəkən ürək var,
Var olsun, hər dərdi çəkən ürək var.
Başın nə vecinə, çəkən ürək var,
Başa nə gələcək baş başa düşməz.

Məmməd, Haqqı çağır,  çat dada sən də,
Bu haqqın yolunda çatda da, sın da.
Yeddi başın ola, çatdadasan da,
Arzün qismətinlə baş-başa düşməz.

**PƏNAH GÖYÇƏ**

Bütün orqanları dəyişmək olur,
Səhv edir kim desə baş başa düşməz.
Nadan başa keçsə açılmır, solur,
Heç zaman yaramaz baş başa düşməz.

İnsan Yaradanın baş əsəridi,
Keçirib cahanda başa, səridi.
Düzgün qiymətləndir baş əsəri di?
Başa nə gələcək baş, baş a, düşməz!

Könlüm əsir düşüb o gələn gülə,
Yaradan xəlq edib danışa, gülə;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yanaq, buxaq, dodaq bənzəyir gülə,
Pənah tək xəzəllə baş-başa düşməz.

**HÜSEYN ARIF**

...Arif, dünya o dünyadı,
Sənin halın o hal deyil.

**PƏNAH GÖYÇƏ**

# QOCALIQDAN BİLMƏ BUNU

**1.**

Bulud keçir ağır-ağır,
Yağış deyil, turşu yağır;
Neyləsin bu dünya fağır,
Bozardıqca əlvan donu, -
Qocalıqdan bilmə bunu.

Kəklik, turac olur səda,
Neçə canlı qırmızıda.
Həyat özü düşür oda,
Daha hamı görür onu, -
Qocalıqdan bilmə bunu.

Zəri mislə calaşdırdıq,
Pak nə varsa bulaşdırdıq.
Kələfi bərk dolaşdırdıq,
Oğulsansa tap ucunu, -
Qocalıqdan bilmə bunu.

Meşələrin talanması,
Ocaqlara qalanması,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göy Xəzərin bulanması
Andırmırmı bəd yuxunu, -
Qocalıqdan bilmə bunu.

Çiçəklərdə yoxdu ətir,
Güllər solur, qanqal bitir...
Deşilibdi göydə çətir,
Dünyamızın çatır sonu, -
Qocalıqdan bilmə bunu.

**2.**

Şah olsa da eşqə yad kəs,
Nökərdən də dal deyilmi?!
Eşqsiz ömür quru bir səs,
Yersiz qilü-qal deyilmi?!

Nizamidən bəri, inan,
Elə bil ki, keçib bir an...
Aşiqləri oda yaxan,
Yanaq, dodaq, xal deyilmi?!

Sığal umur zərif tellər,
Fürsət gəzir daim əllər.
Çoxda «gəlmə» deyir dillər,
Gözlərdəki «qal» deyilmi?!

Ülvi arzu, şirin dilək, -
Özgə cürə olmur ürək.
Min il əvvəl olduğu tək
Qızılgüllər al deyilmi?!

Qoy hökmünü versin canan, -
Sevinc, kədər, vüsal, hicran...



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəbbətlə bağlı bir an,
Pənah Göyçə, bal deyilmi?!

**3.**

Sevgi ruhlu duyğularım
Zərrinləşir qocaldıqca.
Aşiq heç vaxt deməz, yarım
Sərinləşir qocaldıqca.

Lap yansa da Səməndər tək,
Yenə eşqdən doymaz ürək.
Ümid, inam, arzu, dilək
Dərinləşir qocaldıqca.

Açıldıqca sirri qat-qat,
Pənah, gəl-gəl deyir həyat.
Əzab dolu bu kainat
Şirinləşir qocaldıqca.



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DAVUD ŞAMAXILI**

# ULU TANRIM

Uca yaradıb dağları,
Ulu Tanrım, Ulu Tanrım.
Barlı yaradıb bağları
Ulu Tanrım, Ulu Tanrım.

Dağların qarı saçında,
Bağların barı içində...
Dünya öz köçhaköçündə
Ulu Tanrım, Ulu Tanrım.

Kimisi pənah gətirir,
Kimi ona ah gətirir.
Neyləsin Pənah, götürür
Ulu Tanrım, Ulu Tanrım.

Ürəyi saf, qanı təmiz,
Dərdi ümman, eşqi dəniz.
Şe′rləri qoyacaq iz
Ulu Tanrım, Ulu Tanrım.

Pənah qəlbi bənzər «İnc»ə,
Söz düzümü incə-incə;
Davudun lap ürəyincə
Ulu Tanrım, Ulu Tanrım.

**PƏNAH GÖYÇƏ**

Sən Davudu yaratmısan,
Məhəbbətlə, Ulu Tanrım!
Bəxş etmisən insanlığı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səxavətlə, Ulu Tanrım!

Tuş elədin, durub gəldi,
Hər sözünün yerin bildi.
Qəlbdə nə var bizlə böldü,
Ləyaqətlə, Ulu Tanrım!

Ürəyində közü vardır,
Söhbətinin duzu vardır.
Dodaqlarda sözü vardır,
Xoş niyyətlə, Ulu Tanrım!

Var təmkini, var qüruru,
Ya Rəbb, bunu özün qoru;
El içində olsun yeri
Şan şöhrətlə, Ulu Tanrım!

Qonaq kimi gəldi, getdi,
O günümüz nurlu ötdü.
Usta Pənah qulluq etdi
İtaətlə, Ulu Tanrım!



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# POEMALAR



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MƏHƏBBƏT

*Altmış birdi yaşım artıq,*
*Çox qalmayıb səyahətə.*
*Ömür adlı o, möcüzə*
*Yetişincə nəhayətə*
*Baş arzuma çatım gərək;*
*Eşq deyəndə nə duyursa*
*Vərəqlərə versin ürək.*

Bismillah-irrəhman-irrəhim, - yenə
Allahu-Əkbər, deyə çalxanır sinə.
Yaxşı yadımdadı, on beş il əvvəl,
Şairlik işini eyləyib əməl,
Nə qədər mövzuda yazdım, yaratdım,
Qananlar yanında hörmətə çatdım.
Dünya yaranandan, bilir hər xilqət,
Sənətdə baş mövzu olub məhəbbət.
Elə də qalacaq keçsə milyon il,
Bu mövzu heç zaman tükənən deyil.
Aqil olan kəsə aşkardı, aşkar,
Həyat eşq üstündə tutubdu qərar.
Bu ucsuz, bucaqsız, sonsuz kainat,
Ən kiçik zərrənin sirri neçə qat,
Yarandı Tanrının Məhəbbətindən,
Lisana sığmayan səxavətindən!
Həmən məhəbbətdən biz də yarandıq
Elə sığallandıq, elə darandıq
Ki, sevgidən kənar qala bilmərik,
İstəsək də hissiz ola bilmərik.
Hədsiz imkanlıdı böyük Yaradan,
Onun yaratdığı hər yeni insan,
Özgə cür ömr alır, özgə cür sevir,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu hikmət həm aşkar, həm ən dərin sirr ...

Min illər boyunca şairəm deyən,
Qüdrəti çatdıqca yazıb sevgidən.
Yaranıb nə qədər eşq dastanları;
Xilqətin ən şirin sərvəti, varı.
Nadanlar deyir ki, bu mövzü bitdi,
Guya, keçən əsrlə sevgi də getdi.
İndi o duyğuya seks deyənlər,
Sanır ki, hissini dəyişib bəşər.
Şükürlər olsun ki, keçsə milyon il,
Varlığın xisləri dəyişən deyil.

Ulu Tanrım, sənin sonsuz
Kəráminə qurban olum.
Bəşər üçün göndərdiyin
O şah dinə qurban olum.

Bir nəzər sal hərdən mənə,
Həyat eşqim qoyma sönə.
Oyansın ruh, dönə-dönə
Vursun sinə, - qurban olum.

Sevgi dönüb olsa bir ox,
Yüz yol alsam olmaram tox.
Qoy mən eşqə bir dəfə yox,
Dönə-dönə qurban olum.

*****

Nə qədər ki, kainat var
Olduğu tək qalacaq eşq.
Tanrı özü verib qərar,
Olub, vardır, olacaq eşq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ucalandı, enən deyil,
Günəş kimi, – sönən deyil.
Xislətindən dönən deyil,
Daim zəfər çalacaq eşq.

Odur quran, odur tikən,
Onlu insan Tanrıya tən.
Daim yıxan, daim sökən,
Nifrətdən bac alacaq eşq.

*****

Heç kəs bilmir, niyə, nədən, -
Birdən-birə gəlir sevgi.
Ötür duman, dağılır çən,
Bol səadət bölür sevgi.

Alan andan, bəbəyin tək,
Qoruyasan onu gərək.
Safa çıxır sevən ürək,
Güzgü kimi silir sevgi.

Göylər qədər sonsuz, dərin;
Aşiq deyir könül verin.
Meh tək sərin, bal tək şirin
O möcüzə, o sirr sevgi.

*****

Nifrət səfalətdi, nifrət qaradı,
Günəş tək nurludu, ağdı məhəbbət.
Nifrət spid kimi dərin yaradı,
Həmişə yamyaşıl bağdı məhəbbət.

Xəbərsiz, ətərsiz elə ki, gəlir,
Kədəri, möhnəti biryolluq, silir.
Ruh ona köklənir, uçub yüksəlir,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ömürdə ən şirin çağdı məhəbbət.

Nadanlar sanır ki, o duyğu sönür,
İnsan maşınlaşır, robota dönür.
Bu yerdə aqillər gör necə dinir;
Neçə ki həyat var, sağdı məhəbbət.

Biz ona mütiyik, cana hakimdi.
Ruh ona tabedi, qana hakimdi,
Hər bir hüceyrədə genə hakimdi,
İnsanlığın tacı, taxtı məhəbbət.

Eşqsiz heç kəs zəfər çalası deyil,
Kimsə ondan kənar qalası deyil.
İnsan onsuz xöşbəxt olası deyil,
Hər dərdə məlhəmdi, yağdı məhəbbət.

Şeytanın felinə uyma, ey bəşər,
Bu ülvi duyğuyla gül üz, çiçək dər.
Kainat bir kiçik təpəsə əgər,
Əl çatmaz, ün yetməz dağdı məhəbbət.

*****

Ömür təzələndi, oldu müttəsil,
Deməli, ona pay böldü vurğunluq.
Onsuz nəyə dəyər, yaşasan min il,
Hər bəxtə bəzəkdi, xaldı vurğunluq.

Onsuz keçən ömür xəyaldı, boşdu.
Onun hər məqamı, hər halı xoşdu;
Bir də görürsən ki, bülbül tək coşdu,
Hərdən də görürsən laldı vurğunluq.

Əsla baş olmazdı cahana xilqət,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tanrıdan almasa eşq adlı xislət,
Onsuz bir qapını döyməz səadət,
Bax belə məqamdı, haldı vurğunluq.

Ruhun dilədiyi yeganə haldı;
Həsrət də şirindi, vüsal da baldı.
Məcnun səhralardan ərşə ucaldı,
Hər üzdən yaşıldı, aldı vurğunluq.

Ey bəşər, aqil ol, könül ver ona,
İşləsin iliyə, qarışsın qana.
Onun əzabı da xoşdu insana,
Şəkərdi, şərbətdi, baldı vurğunluq.

*****

Eşq, sevgi, məhəbbət – birdi bu duyğu,
Həm aşkardı, həm də sirdi bu duyğu.

Ulu Tanrımızın bir zərrəsidi,
Axıb qəlbimizə girdi bu duyğu.

Sel kimi çağlayır, tufan tək gəlir,
Arazdan coşğundu, gurdu bu duyğu.

Bütün duyğulardan başda dayanır,
Kəbədi, Məkkədi, - pirdi bu duyğu.

Odur Yaradanın baş köməkçisi,
Dəyərli hər nə var qurdu bu duyğu.

Onsuz bu kainat donar bir anda,
Nurdu, hərarətdi, qordu bu duyğu.

Aşiqin qəlbində Günəş tək yanır,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nadana, əğyara kürdü bu duyğu.

*****

Allahu-əkbəri gətirib dilə,
Yenə qələmimi almışam ələ.
Ey varlığa səbəb, böyük Yaradan,
Bütün kainata yeganə Sultan,
Özün pənahı ol yenə Pənahın,
Uğurlu açılsın ona sabahın.
Çağlasın, qəlbində donmasın qanı,
Gərəksiz, faydasız ötməsin anı.
Halal əməliylə tapsın şərəf, şan,
Yol tapa bilməsin qəlbinə şeytan.
Tutsun dörd yanını, duyğulu aqil,
Çıxmasın yoluna kəmfürsət, paxıl.
Yazıb yaramtağa olsun daim ac,
Şer dünyasında axsın halal tac.
Ömrün payızında olsa da belə,
İlhamı çağlasın, dönsün gur selə.
Ən sadə sözlərlə açsın hikməti,
Əldən qaçırmasın bir an fürsəti.
Bu dastan bitincə zərbə almasın,
Bir tikə çörəyə möhtac olmasın,
Dərdə uzaq olsun yarımın canı,
O edibdi məni evin sultanı.

*****

Düzlər düzdə qalır deyib atalar,
Bu müdrik sözlərdə dərin məna var.
Çoxları sanır ki, düz olan hər kəs,
Nə qədər çalışsa əbəsdir, əbəs;
Ehtiyac olacaq nəsibi hər an,
Məhbəsə dönəcək ona bu cahan.
Az da olsa bunda həqiqət vardır,
Düz olan kəslərin imkanı dardır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Halallıq, təmizlik ucuz mal deyil,
Nakəsə, nadana qismət olmur, bil.
Daim rişxənd edir, onlar düzlərə,
Baha otursa da bu hal bəşərə,
Belədir, belə də olacaq hər an,
Bu sayaq qurulub əzəldən cahan.
Nə qədər yaşasa həyatda insan,
Bir sınaq önündə dayanır inan.
Bir ömür sınağa çəkilib onlar,
Əbədi dünyada tuturlar qərar.
Əyri cəhənnəmdən yan keçib onlar
Düz olan cənnətdə tutacaq qərar.
Onda seçiləcək əyrilər düzdən,
Bütün varlığımla inanıram mən.

*****

Cəhənnəmdə alsam məhəbbət payı
Yenə də deyərdim şirin, bu şirin.
Eşqə, mənim kimi qul ola bilməz,
Nə Məcnun, nə Fərhad, nə də bu Şirin.

Sevgi ürəyimdə qurub cağ qala,
Bu odu qəlbimdə, bəxtim, çağ qala!
Bölgüdə düşmədi tülkü çaqqala,
Tanrı özü dedi, olsun bu şirin.

Eşq odudur neyləyəcək, od una,
Eşqsiz insan tən deyilmi oduna?!
Aşiqləri məhəbbətin oduna.
Yaxşı çatın, ömür boyu bu şirin.

*****

Ey cavan oxucum, görürəm ki, sən,
Bunları oxuyub fikrə getmisən.
Təəccüb edirsən oxuduğuna,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Heç cürə inana bilmirsən ona.
Mən də inanmazdım sənin yaşında,
Xaliqdən çox uzaq düşmüşdük onda.
(Materialist fikir deyil dolaşıq,
Gör nə qədər sirrə salıbdır işıq.
Alıb düşünürsən, haqlıdı Darvin,
Təkamülü qoyub ortaya zəmin.)
Dünyanı dərk etmək körpəliyimdən,
Məqsədim olubdu, çalışmışam mən.
Təhsil illərini hədər vermədim,
Dərk etmə yolunda əngəl görmədim.
Ağlım heç bir zaman aciz olmadı,
Önündə maneə, sual qalmadı.
Göz yumub şöhrətə, sərvətə, vara,
Ömrümü həsr etdim axtarışlara.
Otuz il elm üçün külüng çalandan,
Sənədli, sübutlu alim olandan
Sonra, anladım ki, aciz qalmışam.
Suallar önündə əsir olmuşam.
Beləcə yetişdim bir həqiqətə, -
Sonsuz  verilməyib imkan xilqətə.
Hardandı kainat, həyat nədir bəs?-
Bu elmin gücünə açıla bilməz.
O qədər həmahəng qurulub cahan,
Onu öyrəndikcə mat qalır insan.
Onun sonsuz sayda xassələri,
Sanki bir-birindən gəlir irəli.
Təsadüf bu qədər yer ala bilməz,
Ona arxalanmaq əbəsdir, əbəs;
Yüngül olmasaydı əgər buz sudan.
Yarana bilməzdi həyat heç zaman.
Həyat deyiləndən başqa bir misal,
Gəl birgə düşünək, sən də ibrət al.
Qurd bərk qaçmalıdır, yoxsa qalar ac,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ovu tutmalıdır, budur ehtiyac.
Ov da qaçmalıdır, yaşamaq üçün,
Bu yarışda çox vaxt qurd çıxır üstün.
Budur təkamülün qızıl qaydası,
Çox şeyin tapılır onda əsası.
Qurd niyə tərləyir bərk qaçan zaman,
Bunu izah etmək asandır, asan.
Fiziki iş zamanı
Qızışır əzələlər.
Onlar soyusun deyə,
Xaricə atılır tər.
Su buxar olsun deyə
Çox istilik gərəkdir.
İstiliyin çoxunu,
Candan götürəcəkdir.
Hüceyrə deyilən şey,
Necə anlayır bunu,
Suyun xassəsinin
Xilaskar olduğunu?!
Burda təkamülün imkanı dardır,
Oxucum demə ki, hər şey aşkardır,
Bir gün gələr, ağıl son qoyar buna!
Tam doğru bir cavab tapılar ona!
Burda deyirsən ki, vardır Yaradan,
Ol! – dedi, yarandı bütün bu cahan.

Son vaxtlar bu haqda mən düşünərkən
Bir fikir üstünə dönürəm hökmən.
O mənim başımda gəzib dolaşır,
İnkişaf eyləyir, daim saflaşır.
Bu adi hipotez olsa da ancaq;
Bəlkə də son qərar elə olacaq.
Çox ola bilsin ki, Böyük Yaradan,
Bütün kainata yeganə sultan,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Materiyanın ən baş xassəsidir;
Dərkdən uca duran qadir səsidir...

*****

Azərbaycan, Bakı, təhsil ocağı,
Hər bir tələbəyə ana qucağı,
Arı pətəyinə bənzəyir yenə
Döyünən ürəyi sığmır köksünə.
Böyük tənəffüsdü, get-gəliş çoxdu,
Hər kəs işindədi, bir qüsur yoxdu.

Dərsə indi gələn Gülcandı, Gülcan,
Belə bir insandı, tək alıb cahan.
Nə qədər yaraşır bu qıza adı,
Maqnit tək cəzb edir yaxını, yadı.
Qaş, göz, ağız, burun, yanaqlar,
Elə münasibdi sanki ilk bahar.
Xoş anda yaradıb xaliqin əli,
Nə qədər şirindi türkün gözəli.

Dedim tərif edim o sərvinazı,-
Tapmadım layiqli sözü, acizəm.
Gözəlin təsviri rəssam işidi
Feyziyab eyləyə sizi, acizəm.

Söz hanı ifadə etsin bu halı, -
Hansı rəngə çalır buxaqda xalı.
Necə vəsf edim ki, o gül camalı,
Dursun göz önündə özü, acizəm.

Məcazi sözlərin imkanı varmı?!
Obrazlı deyimdən bir kar aşarmı?!
Təbim ona layiq nəğmə qoşarmı? –
Acizəm, acizəm, düzü acizəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cədvəl belə düşüb, yatağan deyil,
Bircə qayğısı var, o da ki təhsil.
Bu gün də bir cavan izləyir onu,
Nəzərdən qaçırmır çəhrayı donu.
O da tələbədi, sevir Gülcanı,
Eşq nura bələyib ona cahanı.
Çirkin demək olmaz, deyildir gözəl,
Qeyrətə, mərdliyə layiqli heykəl.
Ayağı altında torpaq da gülür,
Gözünə hər şeydən şəfəq süzülür.
Hər şeyə, hər kəsə doğma, mehriban,
Adıyla ahəngdə yaşayır Elcan!
Türkdü, bu saflığı daşıyır qanda;
Xalislik azalır daim cahanda...

Ey cavan oxucum, görürəm ki sən,
Yenə də dayanıb fikrə getmisən.
Bilirəm, türk sözü çaşdırıb səni,
Məntiqlə, ağılla gəl dinlə məni.
Min illər boyunca türk adlanmışıq,
Bu adla cahana salmışıq işıq.
Sübut istəyirsən, aç tarixə bax;
Orda hər səhifə, orda hər varaq,
Cahana türk kimi tanıdır bizi,
Qüdrətli, şöhrətli mənliyimizi!
Nizami, Füzuli, Vidadi, Sabir, -
Yüzləri, minləri, arasaq bir-bir,
Mən türkəm, söyləyir, oxuyuruq biz;
Demək biz də türkük, şəksiz, şübhəsiz.
Bu gün adlanırıq Azərbaycanlı;



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dünən belə deyib bir əli qanlı[4].
İstəkdən gəlsəydi bir yeri vardı,
Nifrətdən doğulub, açıq-akşardı.
Nəzər sal cahana, bu bir qaydadı,
Adlıq halındadı millətin adı;
Türk, fars, ərəb, ispan, ingilis, alman –
Bu sayaq adlanıb millət hər zaman!
Bircə mənа verir, «azərbaycanlı»,
Bitki, heyvan, insan hansı ünvanlı.
Bəsdir bu söhbəti qoyaq bir yana;
İşarə bəs edir arif olana.

*****

Bir tələbə gəlir bomboş əl ilə,
Onu görəcəyik çox zaman belə.
Yazıb-pozmaq ilə yoxdur arası,
Deyir ki, tapılar onun çarası.
Bəs nəyə gərəkdir tanış, dayı, pul,
Zəhmətə qatlaşsın bu yerdə yoxsul.
Mənim dayım da var, pulum da vardır,
Tale söylənilən varlıya yardır.
Gərəksiz olsa da ağlı, kamalı,
Qüsursuz alıbdı Kamal camalı.
Adını özgə cür anlayır yazıq,
Vicdan tapmaq olmaz onda azacıq.
Düşünür, «həyatdan kam almalıyam,
Sevgi dünyasında baş olmalıyam.
Gözümü oxşasa əgər bir gözəl
Mənim olmalıdır mütləq, əlbəəl!»

Dörd ildir bir yerdə oxuyur onlar,
Təhsilin sonuna hələ bir il var.

---

4 Iosif Vissarionoviç Stalin nəzərdə tutulur!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Az-çox tanıyırlar biri-birini,
Hər biri qrupda bilir yerini.
Qrup yoldaşları bilir ki, Gülcan
Təhsili barədə düşünür hər an.
Məqsəd qoyulubdu, aydın və qəti,
Əla olmalıdı hər bir qiyməti.
Odur ki, gecəni gündüzə qatır,
Hər dəfə qoyduğu məqsədə çatır.
Şərəf lövhəsində əksi asılıb,
O, birinci kursdan bu yeri alıb.
Yalnız oxumaqdı arzusu, kamı,
Onu yaxşı yoldaş tanıyır hamı.
Bütün oğlanları qardaş sanır o,
Qızları rəfiqə, sirdaş sanır o.
Gülcan deyiklidi körpəliyindən,
Qonşunun oğluna, dost olub həmən,
Bir yerdə böyüyüb, bir oxuyublar,
Bir-birini yaxşı tanıyır onlar.
Alovlu məhəbbət yoxdu arada,
Bir-birin hörmətlə salırlar yada.

Mötəbər insan kimi
Tanıyırlar Elcanı.
Bilinir ki əzəldən
Safdı qəlbində qanı.
Heç kəs bilmir Gülcana
Onun vurulduğunu.
Ən qiymətli sirr kimi,
Elcan gizlədir bunu.
Bilir Gülcan heç zaman
Onun olası deyil.
Ancaq sevgi qəlbində
Möhkəmlənir müttəsil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elcanı körpəlikdən
Hər şey maraqlandırır.
Bir yaşıl budaq sınsa
Bu dərd onu yandırır.
Onun nadir xisləti
Günü-gündən saflaşır.
Həyata məhəbbəti
Qəlbində aşıb-daşır.
Bilir, ən qiymətli şey
İnsanlıqdır, insanlıq.
İblisə yaxasını
Verməyibdi bir anlıq.
Özünü dərk etməkdi
Elcanın baş arzusu,
Ütülənir mənliyi
Hey saflaşır duyğusu.
Saflaşıb ürəyində
Əzəl gündən bir niyyət;
Qədərində olmalı
İnsanda hər keyfiyyət.
Yalnız özünü dərklə
Qalxıb ucalmaq olar.
İblisin üzərində
Qələbə çalmaq olar.
Həddini aşsa əgər
Ən qiymətli keyfiyyət,
Gec-tez öz sahibinə
Gətirəcək əziyyət.
Mənfi keyfiyyətlər də
Hər insana gərəkdi.
Onlar həddində olsa
İnsan yüksələcəkdir.
Düşünür ki, paxıllıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əsla olmasa qanda.
O mütləq tənbəlliyi
Artıracaq insanda.
İrəlidə olanın
Dalınca qaçmayacaq,
Layiq olduğu yerə
Heç zaman çatmayacaq.
Qədərində olarsa
Paxılıq bir insanda,
İrəliyə hərəkət
Məskən salacaq qanda.
Həddindən çox olarsa,
Paxıllığı, insanın
Əzabların içində
Yaşayacaq hər anın.

Əlaçıqlıq hər zaman
Təriflənib cahanda,
Bu həddindən çox olsa
Hər hansı bir insanda,
Ailəsi ehtiyac
Çəkəsidi hər zaman,
Bu keyfiyyət olmasa.
Xəsis adlanır insan
Qədərində əlaçıq
Olmalıdır hər başər;
O həm hörmət qazanar,
Həm də xöşbəxt gün görər.

Qorxu hissi bilməyən
Bu aşkardı, deyil sirr,
Hər gün təhlükə ilə
Üz-üzə gələcəkdir.
Su sənəyi suda da



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sınacaq, deyir ellər,
Belə bir aqibəti
Alıb çox əhli-hünər.

Qorxu hissi çox olsa
Fəlakətdi, fəlakət,
Elə ilk döyüşdəcə
Məhv olacaq o xilqət.
Qədərində olarsa
Bu keyfiyyət, şübhəsiz,
Ehtiyatlı insanı
Görəcəyik öndə biz.
Beləsinin həyatı,
Nümunədir, işıqdır.
Ehtiyat hər igidə
Layiqli yaraşıqdır.

Elcan fikirləşir ki,
Adam doğuluruq biz.
Bioloji bir varlıq
Alır həyat şübhəsiz.
Adam olub qalırsa
Kimsə ömrü uzunu,
Bütün yaranmışlara
Düşmən görürük onu.
Tərbiyə hər adamı
Çevirib İnsan edir.
Özünü dərk bu yerdə
Gərəklidir, deyil sirr.
Əqlin köməyi ilə
Bu iş gedir hər zaman,
Düşüncəni insana
Bəxş eləyib Yaradan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*****

Beləcə, gündən günə
Duyğuları saflaşır,
Həyata, insanlara
Sevgisi aşıb daşır.
Alovlu şair qəlbi
Gəzdirir sinəsində,
İnanır ki, hər bir an
Bütün yer kürəsində
İnsanlar adamlardan
Çox olacaq aşkara.
Odur ki, bəşəriyyət
Yol alıbdı bahara.
İnanır ədalətə,
İnanır məhəbbətə,
Bilir, onlar çatdırır
İnsanı səadətə.
Hərdən duyğularını
Köçürür vərəqlərə,
Onların hər birisi
Ünvanlanır bəşərə.
Onların əsasında
Sevimli Gülcan durur,
Bir də eşqə köklənmiş
Layiqli İnsan durur:

Özün boyda möcüzəsən,
Ay şirin qız, səndən olmaz.
Aşiqini seç əğyardan
Dolanırsan gendən, olmaz.

Fərağında odlanıram,
Bunu hələ az sanıram.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Allah bilir, mən qanıram,
Sevənlərdə məndən olmaz.

Pənah Göyçə, deyil ki sirr,
Doğulubdu, eşqə əsir.
O, adamı İnsan edir,
Sevgi adlı dindən olmaz.

Könül iyrənsə də təbiətindən
Gərək Kamaldan da söhbət açım mən.
Ona müəllimdi Şeytanın özü,
Dəyişik salıbdı əyriylə düzü.
Bu səbəbsiz deyil, aşkardır aşkar,
Həyatda hər şeyin öz təməli var.
Dünyaya qanunsuz gəlib bir zaman
Bəşər beləsinə bic deyir ələn.
Kommunist atası vəzifəlidi,
Gözü haqq yanında çox kölgəlidi.
Saxlayır kənarda bir daşnak qızı,
Ölkədə bəlkə də ən əxlaqsızı.
İki əcayibdən törədi Kamal,
Kaş olaydı kifir, kaş olaydı lal.
Batili nə qədər çirkinsə bu an,
Xarici o qədər gözəldi, inan.
Çox çətin qurtarır əlindən qızlar,
Bu işdə çox zəngin təcrübəsi var.
İşi elə qurur, elə cəmləyir,
Qızlar qurbanlıq tək özləri gəlir.
Beş gündə düşürlər onun toruna,
Şübhəsiz bu baha oturur ona.
Onlar oxuyanda birinci kursda,
Qrupda bir müddət yayıldı səda:
«Kamal aşiq olub, sevir Gülcanı,
Bir-birinə layiq özgə cüt hanı?



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Onların hər biri gözəldən gözəl,
Sevgi gəlməliydi burda əlbəəl».
Kamal çox çalışıb axıtsa da tər,
Onun bu diləyi vermədi səmər.
Hələ bilmirdilər, nəçidi Kamal,
Cavab almamışdı bir sıra sual.
Hamı istəyirdi baş tütsun bu iş,
Elcan keçirirdi gizli bir təşviş.
Ancaq gizlədirdi qəlbində bunu;
Görsün nə olacaq bu işin sonu.

Gülcan deyikliydi körpəliyindən,
Qızlar vəziyyəti bilincə, həmən,
Xəbərdar etdilər bundan Kamalı,
Çox asan dəyişdi «məcnunun» halı.
Daha öz eşqində israr etmədi,
Gülcanın dalınca düşüb getmədi.
Hörmət də qazandı o buna görə,
Çoxu vəziyyəti yozdu bir cürə.
«Deməli Kamalın qeyrəti vardır,
Elin adətinə hörməti vardır».
Tezliklə bilindi nə insandı o,
Şəhərdə birinci «Don Juandı» o.

Dərindən dərk elədi,
Elcan bu vəziyyəti.
Ürəyində, dərində
Gizlətdi məhəbbəti.
Xöşbəxtdi, eşqi ilə,
Hər cür qəmdən azaddı,
Sevən qəlb yamanlığa,
Hər cür pisliyə yaddı.
Öz eşqinin üstündə
Əsir bir ana kimi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sevgisinin quludu
Yanır pərvanə kimi.
Ömrü necə keçəcək
Necə olacaq sonu,
Bu əsla düşündürmür,
Əsla qorxutmur onu.
Düşünür ki, sevirsə
Demək yaşayır insan,
Taki davam eləsin,
Ömürlük olsun bu an.
Üç ildir günü-gündən
Duyğuları saflaşır,
Gülcana məhəbbəti,
Sel kimi coşub daşır,
Onun saf duyğuları
Yaşanmır bica yerə,
Çevrilir neçə-neçə
Səmimi şerlərə:

Eşqin mənə bir ümmandı,
Özgə göldə üzərəmmi?!
Hicranından qəlbim qandı,
Ancaq səndən küsərəmmi?!

Nə vaxt məni əzizlədin? –
Ay üzünü hey gizlədin.
«Yox» söylədin, «gəlmə» dedin
Heç nazından bezərəmmi?!

Sən ömrümsən, həyatımsan,
Sən qolumsan, qanadımsan.
Eşqindən güc alır bu can, -
Hicranına dözərəmmi?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şe'riyyəti sevsəm də mən,
Sən əzəlsən, sən ümdəsən.
Sən həmişə qəlbimdəsən,
Səndən ayrı gəzərəmmi?!

Ağıl deyir, ay Elcan, sən
Şair kimi sevəcəksən;
Gözümdə bir tər çiçəksən,
Qıyarammı, üzərəmmi?!

*****

Dərsdir.
Axırıncı sırada
Yenə əyləşib Elcan,
Səadətlə büsbütün
Dolub gözündə cahan.
Bir an xəyala gedir,
Soruşmayın hardadı,
Gözləri qabaqdakı
Xurmayı saçlardadı.
Onun baxışlarından
Xəbər tutmayır Gülcan,
Bu sirri özündən də
Gizlətmək istər Elcan.
Hərdən ağır bir fikir,
Yaman sıxır Elcanı;
Təhsil bitəndə necə
Görəcəkdir Gülcanı.
Az-az olsa da bəzən
Gülcan dərsə gəlməyir,
Həmin gün Elcan üçün,
Bəlkə də bir il çəkir.
Çox zaman belə günlər
Dərsi atıb bir yana,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elcan gedir sahilə,
Dərdini deyir ona.
Bir şerində, ilahi ,
Necə yazıb bunları,
Nə sayaq vəsf edilib
Müqəddəs duyğuları:

Ay həyatın sevinci,
Ürəyimdə tək inci,
Zəriflikdə birinci, -
Ruhum yurd salır səndə;
Sən dərsə gəlməyəndə.

Yaman fağırlaşıram,
Bildiyimi çaşıram!
Xəyalınla yaşaram
Durub hamıdan gendə;
Sən dərsə gəlməyəndə!

Çiçək kimi soluram,
Özümə yad oluram.
Bir kənarda qalıram,
Gedə bilmirəm öndə;
Sən dərsə gəlməyəndə!

Təklik, həsrət, intizar
Hökm eyləyir o ki var.
Qəlbimə ələnir qar, -
Qanım donur bədəndə;
Sən dərsə gəlməyəndə.

Al Günəşim saralır,
Üfüqlərim qaralır,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyamız yetim qalır,
Həyatım düşür bəndə;
Sən dərsə gəlməyəndə.

Bu dəfə görən kimi,
Kökləyib sarı simi,
Açacağam qəlbimi, -
Dəyanət olur məndə,
Sən dərsə gəlməyəndə.

Danışmıram, gülmürəm,
Qəribədi, ölmürəm.
Nə edirəm bilmirəm,
Dərsdən qaçıram mən də;
Sən dərsə gəlməyəndə,
Sən dərsə gəlməyəndə...

*****

«Sən ey yer üzünün əşrəfi insan»,
Dolanır başında hey zaman-zaman,
Düşünür, nə üçün insan ucadı,
Bu qədər hörmətlə tutulur adı?
Ondan doğulsa da hər ülvi əməl,
Ən alçaq işlər də görür əlbəəl.
Bəs nədir insanı ucaldan belə,
Hansı əməlləri olur vəsilə?
Nəhayət durulur düşüncələri,
Anlayır, insanı əzəldən bəri,
Eşqidir eyləyən əşrəf cahana;
Tanrıdan hədiyyə edilib ona.
Təmiz hissləri tel tək daranır,
Görün necə gözəl qoşma yaranır:

Eşqiylə cahana şöhrətdi bəşər,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həyatda ən nurlu izdi məhəbbət!
Onunla gün doğur, açılır səhər
Hər dildə ən şirin sözdü məhəbbət!

Əgər bu duyğunu itirsə bir kəs
Onu Günəş belə isidə bilməz.
Ondan mayalanır hər arzu, həvəs;
Ürəkdə alovdu, közdü məhəbbət!

Odur səadəti verən insana,
Hər kəs həyat üçün borcludur ona.
Ölməzlik gətirdi eşqi Məcnuna,
Onunla dünyanı gəzdi məhəbbət!

Məhəbbətlə cahan güllü bahardı,
Ondan məhrum kəsə gen dünya dardı.
Duyana sirdaşdı, vəfalı yardı,
Vuran ürək, görən gözdü məhəbbət!

Onu bir an duyan yaşadım dedi.
Onsuz min il yaşa – mənası nədi?!
Mənsəb, şöhrət, sərvət bir əfsanədi
Başdan ayağacan düzdü məhəbbət!

Aqil könül verir elin sözünə,
Hər kəsin düşməni təndi özünə.
Şax baxdı İblisin murdar üzünə,
Çarpışdı, ucaldı, dözdü məhəbbət!

Onunla hər ömrə gülümsəyir yaz.
Onsuz bir sənətkar gəlməz, ucalmaz.
Nə ləkə götürməz, nə də qocalmaz,
Həmişə bakirə qızdı məhəbbət!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nələr deyilibdi onun hüsnünə,
Nələr deyiləcək bu gündən yenə?!
Şükürlər olsun ki, xoş baxdı mənə,
Həyatıma mə'na süzdü məhəbbət!

Al bir şəfəq kimi sarıb aləmi,
Duyan ürəklərdi onun məskəni.
Həyatda nə varsa birdisə cəmi,
Pənahın gözündə yüzdü məhəbbət!

*****

Gəlin bir anlığa yönələk ora,
Gülcan qəlbindəki gülgün bahara.
Onu bu həyata bağlayan nədir,
Niyə oğlanlara tam biganədir?
Deyikliydi hələ doğulmamışdan;
Bəzən çox qəribə dolanır dövran.
Elə vurğun deyil nişanlısına,
Yaxşı insan kimi bağlanıb ona.

Qulağında sırğadı
Anasının sözləri,
Onun gözüylə baxır
Kainata gözləri;
Ailədə olmasa
İki tərəfli hörmət,
Əsla bar verə bilməz,
Ən bəşəri bir niyyət.
Qarşılıqlı hörmətdən
Əbədi sevgi gəlir,
Onsuz sevgi öləcək,
Geci-tezi, deyil sirr.
Bilir ki, çoxlarını
Əsir edibdi şəhvət,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onunla bir ürəkdə
Qala bilməz məhəbbət.
Şəhvətli baxışları
Sezmir onun gözləri,
İnsanda yaxşı cəhət
Gəzir əzəldən bəri.
Yaxşı bir insan kimi
O tanıyır Elcanı.
Yaxşılıqla dopdolu
Sayır bütün dünyanı.
Yavaş-yavaş müəllim
Formalaşır canında,
Uşaqlara məhəbbət
Qatılaşır qanında.

Modanın əsiri deyildir Gülcan,
Deyir, gərək zövqlə geyinsin insan;
Mütənasib olsun bədənlə paltar,
Bahalı geyməyin nə mənası var.
Uşaqlıqdan bilir biçib-tikməyi,
Düşünüb ki, bir gün olar gərəyi.
Özünə tikəndə koftanı, donu,
Çalışmaz bu işin tez olsun sonu,
Neçə yol düşünər, daşınar, biçər,
Ötüb keçmişlərdən formalar seçər!
Ancaq necə tiksə yaraşar ona;
Dəbdədir, sözünü atar bir yana.
Bu sayaq olubdu əzəldən bəri,
Yaxşı bilirlər ki, rəfiqələri
Dedi-qodu, qeybət xoşlamır Gülcan,
Hər cür əyrilikdən uzaqdı o can.
Qəribə olsa da, yol tapacaqdır,
Ən qeybətcil qızla dil tapacaqdır.
Paxıllar da ona dəyib dolaşmır;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onunla rəftarda həddini aşmır.
Heç kimlə, heç zaman dalaşmayıb o,
Ömründə bir dəfə dolaşmayıb o...

Hər il yay tətilində
Kəndə qayıdan zaman,
Daha gözəl bir dona
Girir gözündə cahan.
Körpəlikdən sevdiyi
Əlvan donlu yamaclar,
Öz əliylə əkdiyi
Ağaclarda olan bar,
Kəndin üst yanındakı
Duru gözlü o bulaq,
Səmadakı buludlar,
Uzaqdakı qarlı dağ,
Hər şey, hər yan, hər tərəf
Daha gözəl görünür,
Ruhu, qəlbi elə bil
Al şəfəqə bürünür.

Xalası tək əzizdi
Dəyanətin anası,
Hələ doğulmamışdan
Deyib, o gül bütası,
Dəyanətin həmdəmi,
Gəlinim olsun gərək,
Allahın köməyiylə
Layiqli dövran sürək.
Gülcan körpəliyindən
Dost olub Dəyanətə,
Bir evli tək olublar
Yer qalmayıb həsrətə.
İndi də o sayaqdı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəzməyirlər gizli yer,
Ya Gülcan onlardadı,
Ya da Dəyanət gəlir.
Hər cür söhbət edirlər
«Ruhun ehtiyacından»,
Ömürdəndi birlikdə
Yola salınan hər an.
Pifaqorun falı da
Belə deyir ki, onlar,
Qoşa qarıyacaqlar
Ömür sürüb bəxtiyar.
Qoy yaxşılar yarısın,
Yox onlardan nisgilim,
Hər biri yola gedən
Hər biri aşkar həlim...

Bilmirəm necə işdi,
Narahatam Elcandan;
Gizli məhəbbətiylə
Xöşbəxt olsa da hər an,
Məlum deyil nə sayaq
Yaşayacaq həyatı,
Hələ görə bilmirəm
Tapacaqmı nicatı?!

*****

Ayrı əlac yoxdu, olsa da ağır,
Görsün öz işini bu qələm fağır.
Cızsın Kamalın da həyat yolunu;
Necə dolaşdırıb sağla solunu.
Ata da əyridi, ana da əyri,
Qoşa əyrilikdən gözləmə xeyri.
Məqsədsiz yaşayır ömrü, həyatı,
Ağlına gəlmir ki, qırıqdı zatı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər fəsil geyimi dəbli, bahalı,
İşrətlə durulur hər gün əhvalı.
Bir gözəl qadının, bir gözəl qızın,
Fərqi yox, məsumun, ya əxlaqsızın,
«Sevgisi» gərəkdir hər zaman ona,
Namusu, qeyrəti atıb bir yana.
Əslində onlardan yoxdu xəbəri,
Ağlı azdan-çoxdan kəsəndən bəri
Gətir, ver sözüylə başlayır günü,
Yalnız alan zaman xoşlayır günü.
Bir yol düşünməyib, axı kiməm mən;
Nə xeyir görəcək məndən el, vətən?
Hər gün bir gözələ könlünü vermək,
Qönçəsini üzmək, gülünü dərmək,
İstəkdi, məramdı, məqsəddi ona;
Şəhvət mərəzinə tutulduğuna,
Narahat deyildir, vermir ki fikir,
Dibsiz uçuruma çoxunu çəkir.

Özünə bənzərlər qalsın bir yana,
Bəzən məsum bir qız vurulur ona.
Sanır beləsini qoyur «düz yola»,
Deyir, «eşqlə» yaşa, uğurlar ola.
Düşünür, «nə pislik edirəm ki mən,
Azad olmalıdır insan əzəldən.
Kimi  xöşbəxt edib axı ailə,
Ömürlük əzaba səbəb, vəsilə.
Onsuz da artıqdı insanın sayı,
Məskən eləməsə ulduzu, Ayı!
Tezliklə yeyəcək biri-birini,
Bu gün çalışmırmı birinə mini?
Şübhəsiz ki, o bir mən olmalıyam.»
Onun Yaradanla yox əlaqəsi,
Ona hökmürandı Şeytan fitnəsi.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

*****

Yaxşılardan yazanda
Qələm sanki güc alır;
Sözlərdən çələng hörür,
Ucaldıqca ucalır.
Onu əhənrüba tək
Çəkir özünə Elcan.
Ömründən məna dolu
Ötüb keçdikcə hər an,
Asanca vəsf eyləyir
Qələmim o anları.
Qəlbində yaşatdığı
Büllur tək duyğuları
Ah, necə də şirindi,
Mərdlikdən, məhəbbətdən,
Səadətdən söz açmaq,
İnsani duyğuların
Qadir qanadlarıyla
Pərvaz eləyib uçmaq...

Gedək Elcana sarı,
Onunla həmdəm olaq,
Təmiz duyğularına
Mehr salaq, ucalaq.
Xurmayı saçlardadı
Yenə dalğın baxışlar,
Gözlərinə yığılıb
Ülvi, təmiz naxışlar.
Özünüdərk yürüşdə,
Kamilləşir anbaan,
Ömrünü başdan-başa
Belə yaşayan insan,
Tanrının rəğbətini



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qazanacaq şübhəsiz,
Gəlin ona qoşulaq,
O yollu da olaq biz.

Bir duyğu neçə gündü
Əsir edib Elcanı,
Durulunca hissləri
Əzab çəkəcək canı.
O dəniz kənarında
Rast gəlmişdi bir qıza,
Gözü sataşan kimi
O bəxtəvər ulduza,
Sandı ki, varlığında
Təlatümlər oyandı,
Ürəyi bircə anda
Yanar oda qalandı.
Qanadlanıb bir anda,
Ona uçmaq isətdi,
O misilsiz varlığı
Qucmaq, qucmaq istədi.
Tək bircə an çəksə də
Elcanın bu haləti,
Hissini cilovlayıb
Özünə gəldi, qəti.
Düşünür, yəqin adam,
O an, oyandı məndə,
Bəlkə instinq daim
Hökmürandı bədəndə.
Bəlkə aldanıram ki,
Artıq İnsan olmuşam?
Bəlkə də instinqtin
Gaynağında qalmışam...
Mən sevirəm Gülcanı,
Buna şübhəm yoxdu, yox,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu eşq ilə varlığım,
Duyğularım toxdu, tox.
Bəs nə üçün o gözəl
Özümdən aldı məni,
Şəhvətin o qaranlıq
Qoynuna saldı məni?
Ümid varmı, o duyğu
Bir də dönməsin geri,
Hissimə əsirəmsə
Yaşamağın nə xeyri?!
Elə isə mənimlə
Kamalın nə fərqi var?
Ürəkdə yox, ağılda
Olmalıdır ixtiyar.
Bax beləcə didilir
Düşüncələr əlində,
Ya Rəbb, özün kömək ol,
Gəzir tez-tez dilində.
Birdən elə gəlir ki,
Tanış idi o gözəl.
Axtarışa başlayır
Beyin dərhal, əlbəəl.
Birdən dərk eləyir ki,
Gülcana bənzər idi.
Onun uimi təzə, tər;
Çox şeydə oxşar idi,
Özünə gəlir yazıq,
Sakitləşir bir anda.
Sağlam əhval-ruhiyyə,
Hökmüran olur canda.
Yazılır təzə şer
O anından yadigar,
Yoxdu xalis yamanlıq,
Orda yaxşılıq da var:



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dünən qarşılaşdım bir gözəllə mən,
Elə bil üstümə yeridi dağlar.
Əqlimi, ruhumu ayırdı məndən,
Qalmadı cismimdə taqət, ixtiyar.

Anlaya bilmədim özüm özümü;
Niyə haldan hala düşdüm qəflətən?
Danışa bilmədim, çaşdım sözümü,
Heç zaman bu kökə düşməmişəm mən.

Gözəllər görmüşəm, qəlbim əsməyib,
Nəfsimin önündə baş əyməmişəm.
Çirkin əməllərdə əlim gəzməyib,
Özgə tikəsinə göz dikməmişəm.

Bəs niyə, bəs niyə onun görkəmi
Könlümün evində tufan qopardı?!
Yüzlərlə gördüyüm gözəllər kimi
Ağıllı, mə'nalı gözləri vardı.

Mütənasib bədən, axımlı yeriş,
Top yığılmış saçlar, səmimi gülüş...
Ah, dayan əzizim, bu ki aşkardır,
Məni əfsunlayan o gözəl qızın
Könlümün şahına bənzəri vardır.

O, təskinlik tapsa da
Tamam arxayın deyil;
Ürək əzab çəkməsə
Hey yüksəlməz, yaxşı bil!

Yenə Yaradana şükr edir Elcan,
Duyur, necə kamil qurulub cahan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xəyalın gücünə odur yüksəlir,
O yeddinci göydə səcdəyə enir:
Söyləyir, ey böyük, ulu Yaradan,
Artır könlümdəki sevgini hər an,
Əvvəl layiqincə səni sevim mən,
Mənə əziz olsun sonra hər bəndən.
Sevgisiz bir insan tapmaz səadət,
Qoy olsun bu duyğu mənə bir adət.
Odur hər insanın qədri, qiyməti,
Onsuz kamilləşməz insan xisləti...
Sonra yavaş-yavaş özünə gəlir,
Eşqə yeni nəğmə qoşacaq, bilir:

Hər ömrə bir dəfə gələr məhəbbət,
Xöşbəxt o kəsdir ki, tapar, itirməz.
Daş üstündə gül bitirər o afət,
Onsuz olsa heç bir işdə gətirməz.

Taledən verilir o ülvi ne'mət,
Onu duymayana olarmı qismət?!
Elə müqəddəsdi sevgi, məhəbbət,
Axar su tək napaklığı götürməz.

Elcan, odur insan edən insanı,
Onsuz dəyməz tutub dursan dünyanı.
Aya dəyər, ilə dəyər hər anı,
Aqil olan bircə anı ötürməz.

*****

Zaman gərdişindədir,
Hər kəs öz işindədir.
Min əfsuslar olsun ki,
Dünyanın bu çağında,
Əksər insanlar yatır



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sanki fil qulağında.
Pulunun miqdarıyla
Qiymət alır insanlar,
Kimin pulu çoxdusa
Onun adı-sanı var.
İnsanlıqda yüksəlib
Zirvəni fəth edən kəs,
Ona uyğun vəzifə
Gözləyəsidir əbəs.
Əgər cibin dolusa,
Haram, halal, fərqi yox,
Nə vəzifə istəsən
Alıb olasısan tox.
Beləsi insanları
Ayaqlayıb keçəcək,
Doğruya yad olacaq,
Yalandan don geyəcək.
Odur ki, düzdə qalır
Xisləti düz olanlar,
İndi belələrinə
Çatan deyil ixtiyar.

Zaman gərdişindədir,
Hər kəs öz işindədir.

Elcan yenə düşünür,
Niyə əksər insanlar,
Eşq, məhəbbət deyəndə
Düşünürlər təkcə yar?
İnsan hər şeydən əvvəl
Sevməlidir Tanrını,
Sonra övladlıq eşqi
Daşımalıdır canı.
Üçüncü vətən eşqi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Olmalıdır önəmli,
Sonra yara məhəbbət
Çıxmalıdır irəli.
Bəs niyə yara sevgi
Çox vaxt olur birinci,
Yoxsa burda da insan
Olub Şeytan girinci?
Çox düşünüb-daşınır,
Əldən düşüb yorulur,
Axtaran tapasıdır,
Odur, fikri durulur;
Yox, yox, əsla, qətiyyən
Şeytanlıq deyil bu iş.
Həyatın mənasına
Axı tabedi gərdiş.
Bitki, heyvan, ya insan,
Əgər desək qısası,
Həyatı qorumaqdı
Həyatının mənası.
Yara sevgi, məhəbbət
Həyata davam verir,
Odur ki, yara sevgi
Önə çıxır, budur sirr.
Bundan Tanrı özü də
Əsla deyil narazı,
Əksinə, şəriətlə
Düz gəlsə qalır razı...

Zaman gərdişindədi
Hərə öz işindədi.

Gecə əriyib gedir,
Açılır təzə sabah,
Hər dərdə əncam çəkən,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zaman adlı şahənşah,
Nə tələsir, nə durur,
Mənəm, deyən kəslərə,
Bir gün deyir, bəsdir, dur.
Elcan istər hər günü
Uzanıb ilə dönsün,
Taki xurmayı saçlar
Hər gün gözə görünsün.
Sanır ki, tələbəlik
Bir gün bitsə nəhayət,
O gün dünya üzünə,
Gələcəkdir fəlakət:
Yağış yağmayacaqdır,
Külək əsməyəcəkdir,
Şeyda bülbül susacaq,
Kəlmə kəsməyəcəkdir.
Gülcansiz Gün çıxarmı,
Heç onsuz Ay baxarmı?
Elcan sanır çatacaq
O an dünyanın sonu,
Zaman dayancaqdır
Əgər görməsə onu.

*****

Gülcan düşünür, kaş ki,
Bu son il, tez ötəydi,
Doğma kəndsiz, anasız
Keçən günlər bitəydi.
Müəllimlik edəydim
Uşaqlara doyunca,
Dəyanət ilə qoşa
Gedim ömrüm boyunca.
Dost ilə ömür sürmək,
Səadətdi, səadət,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gün-gündən güclənəcək,
Şübhəsiz ki, sədaqət...

*****

Bu cür şirin duyğular,
Kamala tamam yaddır,
Vicdan deyilən şeydən
Birdəfəlik azaddır.
Hər gün bir yeni «sevda»,
Hər gün təzə «məhəbbət»;
O heç vaxt duymacaq
Nədir sevgi, səadət.
Aldanışdı, ilğımdı
Onün ömrü, həyatı.
Şeytanın gözləriylə
Seyr edir kainatı.
«Mənim olsun hər gözəl,
Mənim olsun hər təzə,
Hər gün sel kimi axsın,
Gödənimə mey, məzə.
Bu beşgünlük dünyada
Layiqincə kam alım,
Atam, anam desin ki,
Bir dənədi Kamalım».
Belə diləklərlə
Keçir ömrü, həyatı,
Nəsə qaytarım deyə
Heç vaxt düşünmür, qəti.
Yalnız almaq istəyir
Ömrü boyu həyatdan;
Beləlıəri bir anda
Yox olaydı həyatdan...
Bir an kifayət edir
Yenə «vurulmağına»



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu dünyanın işləri
Qəribə gəlir ona.
Necə ola bilər ki,
Gülcan onun olmasın,
Belə gözəl afətlə
Beş günlük kam almasın.
Öz-özünə hirslənir,
Cin çıxır təpəsinə,
Şəhvət alovlarında
Alışıb yanır yenə.
Qovrulur öz yerində
Plan qurur o alçaq,
Səbri çatmır ki, bu dərs
Nə zaman qurtaracaq.
Dərs qurtarır, uşaqlar
Dağılışır dörd yana,
Kamal vaxt itirəmyib
Yaxınlaşır Gülcana.
Min yol dediyi sözlər,
Rəvan axır dilindən,
Deyir qəlbimdən bir an
Çıxmamısan bil ki, sən.
Öldü var, döndü yoxdu,
Olmalısan sən mənim.
Bütün dünya çevrilib
Olsa da mənə qənim,
Döndərə bilməz məni,
Bil ki, öz istəyimdən,
Heç çəm-xəm eləmə
Olacaqsan mənim sən.
Bu illəri mən səni,
Çalışdım ki, unudum,
Ürəyimin qanını
İçmişəm udum udum.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Könül verdim şəraba,
Yüngül əyləncələrə,
Daddım eşqin dadını
Gözəllərlə min kərə.
Bu gün anlayıram ki,
Faydasızdı hər cəhdim,
Daha da möhkəmlənir
Ürəyimdə ilk əhdim.
Allah özü şahiddi,
O da sənsən Gülcanım,
Sənə qurban deyilib
Mənim bu yazıq canım. –
Yaxşı ki, yetişirlər
Gülcanın mənzilinə,
Kamal imkan olsaydı
Çox şey deyərdi yenə.
Gülcan sağollaşmadan
Daxil olur mənzilə,
Hirsindən qan qalmayıb
Dodağında bir gilə.

Bu xəbər tez yayılır
Tələbələr içində,
Qeybətcillər danışır,
Bunu, bəlkə, hər tində.
Elcan çox narahatdı
Eşitdiyi xəbərdən,
Düşünür ki, nə sayaq
Əncam çəkim buna mən.
Neçə qız, neçə oğlan
Deyirlər ki, Kamala
Burda güc kara gəlməz,
Anla, qayıt düz yola.
Gör nə deyir onlara,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu beyni qan qudurğan;
Nə qədər ki, mən sağam,
Ürəyimdə axır qan,
Bütün varlığım ilə
Sevəcəyəm Gülcanı,
O mənim olmalıdır
Dağılsa da dünyanı.
Bərkə qalsa götürüb
Qaçasıyam onu mən,
Sonra el adətiylə
Barışıq salıb həmən,
Hər şeyi öz yoluna
Salasıyam şübhəsiz,
Yoxdur, yox, ehtiyacım
Dərs deməyin mənə siz. -
İşin yoğunlamağı
Özünə də xoş gəlir,
Köhnə fikirlərini
Könlündən alıb silir.
Düşünür, «evlənərəm,
Birdən o təzə həyat,
İndiki həyatımdan,
Şirin oldu neçə qat.
Lap yaxşı, yaşayaram
Adi insanlar kimi,
Bəlkə Gülcan doğrudan
Ovsunladı qəlbimi.
Alınmaz, alınmasın,
Boşanmaq çətin deyil,
Evlənib boşanmaqla
Məşğul olur bütün el».
Səhər dərsə gətirir
Axşam evə ötürür,
Neçə gündür Gülcanı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Boğazına yığılıb
Yazıq Gülcanın canı.
Odur dərs qurtarıbdı
Hamı evə yollanır,
Gülcanı ötürəməyi
Kamal vəzifə sanır.
Onları addım-addım
Bu gün izləyir Elcan,
Gülcan donuna girib
Gözlərində bu cahan.
Onlar çatır mənzilə
Geri qayıdır Kamal,
Elcan qətiyyətlidir,
Yetişibdi qeylü-qal.
Elcan deyir,- son dəfə
Ötürürsən onu sən,
Nə qədər ki, mən sağam,
Buna yol verməm mən.-
Bu qətiyyət önündə
Kamal şaşırır bir an,
-Deməli öləcəksən, -
Hayqırır o qudurğan.
Hərə bir yana gedir
Hirs ilə hiddət ilə,
Heç vaxt dil tapa bilməz,
Saflıq pis niyyət ilə...
*****

Çoxdandır Elcanı üzür bir sual,
Nə üçün şəhvətə əsirdi Kamal!
Əgər ağıl ilə gəzsək bu işi,
Bir qadın önündə acizdir kişi;
Birinin önündə acizsə Kamal;
Niyə hər bir qızdan istəyir vüsal!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ailə, anlamaq deyildir çətin,
Ən böyük kəşfidir bəşəriyyətin!
Ailədən doğur dolğun səadət,
Min illərdi bunu anlayır xilqət.
Bu incə mətləbi bilirsə bəşər,
Bəs niyə az deyil Kamal kimilər?
Anlayır ki, bu hiss qanda, gendədi,
İnsan deyilənin xislətindədi!

Qəbilə halında yaşayan insan,
Ailə sözünə yad idi o an.
Milyon illər boyu, çəkdi o halət
Güclü, qəbiləyə sahibdi əlbət.
Həyat istəyir ki, hər canlı varlıq,
Güclüdən törəsin, budur aşkarlıq.
Elcan düşünür ki, bu iş aşkardır,
Hər kişinin belə imkanı vardır.
Adam doğularaq, adam qalırsa,
Adi bioloji varlıq olursa,
İnstinktə kölə olacaq o kəs,
Hakimi olacaq şəhvətə həvəs.
(Çoxları anlamır nədir məhəbbət,
Dolaşıq salınır eşq ilə şəhvət.
Bir faiz olsa da sevir hər insan,
Mütləq sevgilidir yalnız Yaradan.
Burda da qoşadır xeyir ilə şər,
Hələ ki, şəhvətə borcludur bəşər.
Şəhvət öz işindən qalsaydı bir an,
Yəqin, yox olardı həyatdan insan.)
Beləsi əxlaqsız adlanır indi,
Hissi çilovlamaq xeyli çətindi.
Hələ uşaqlıqdan cinsi tərbiyə,
Düzgün verilməli hər bir kimsəyə.
Onsuz mümkün deyil möhkəm ailə;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gec-tez parçalanır, çatmır mənzilə.
İnsanlıqdan doğur əsil səadət,
İnsanlıq yolundan azma, ey xilqət!

*****

Eşq olsun sənə xalqım,
Alisən, hikmətlisən,
Əqlindən, şüurundan
Dağılıbdı duman, çən.
Qoruyursan cahanda
Abır, həya, isməti,
Yaşadırsan ömründə
Namus sözünü qəti.
Özgə hansı millətin
Dilində bu sözlər var?
Bu anlayışlar yalnız
Türk elinə olub yar.
İnsanlığın zirvəsi
Onlardır, onlar şəksiz,
Min illərdi onlarla
Ömür sürür nəslimiz.
O şeyləri qoruyan
Bir amil də paltardır.
Ora yüksələn yolda
Lütün imkanı dardır.
Həyata göz açan tək
Bunu hiss etdi insan,
Bir əncir yarapağına
Ehtiyac duydu o an.
Abırını qorumaq
Oldu ona bir adət.
O yoldan dönən deyil
Heç zaman bəşəriyyət.
Orda son hədd çadradır,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onunla tam qorunur.
Abır həya və ismət;
Bir qaydadı heç nədə
İfratı sevmir xilqət.
Əncir yarpağı ilə
Çadranın arasında
Vardır optimal bir hal,
O çoxdan tapılıbdı
Əsla deyildir xəyal ...

Analar, ay analar,
Müqəddəslər, sonalar! –
Bu yerdə söz sizindir,
Olsun sizə tale yar.
Fikir verin, nə sayaq,
Geyinər qızlarımız,
Yad gözdən qorunurmu
Abır, ismət, həyamız?
Göz bir şeyi görməsə
Dəli könül istəməz.
Bu elin hikmətidi,
Əsla deyil quru səs.
Müqəddəs Quran deyir,
Qoruyun duyğuları,
Günaha batırmayın
Pak saxlayın onları.
Açıq göbək görəndə
Dəliqanlı bir cavan,
Göbəyə əl çəkməyi
İstəyəcək həmin an.
Gərək ucuzlaşmasın
Türkün mənəviyyatı,
Bəşərə örnək olsun
Onun təmiz həyatı ...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*****

Elcan mənzilindədir,
Yaman qaralıb qanı,
Elə bil məngənədə
Sıxılır ruhu, canı.
Bəlkələrin əlində
Yaralı tək inləyir,
Vicdanının səsini
Dönə-dönə dinləyir.
Son qərarı bu olur:
Nə olacaq qoy olsun,
Bu yolda ömrü, günü,
Gül tək açmamış solsun.
Ta ki Gülcanın ömrü,
Tanımasın duman, çən,
Qovuşsun öz yarına
Ömr eləsin xöşbəxt, şən.
O hazırdır, bu işi
Yerinə yetirəcək,
Lazım gəlsə Kamalı
Aradan götürəcək.
Qərar qəbul etsə də,
Narahatdı hələ can,
Yenə qoca dünyanın
Yapışır yaxasından:

Həyat ki yaranıb, nəzilə bilməz!
Demək, işığadı yönü dünyanın.
Təkamül özgə cür düzülə bilməz
Çəkilir dumanı, çəni dünyanın.

İnsanlıq təzəcə gəlibdi dilə,
Dünya gəncliyinə yol salır hələ!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə qurulubdu, gedəcək belə
Sönə bilməz Ayı, Günü dünyanın.

Adəmdən bəriyə belədir adət,
Hər kəs öz dövründən edib şikayət.
Narazı olmasa boy atmaz xilqət
Qoymaz təməlini yeni dünyanın.

Cürbəcür yapışır dünyadan hərə,
Könül verən də var şöhrətə, zərə.
Ömür keçirmədim bihudə yerə,
Sevgisi yaşadır məni dünyanın.

Elcan, uzaq dolan fitnə-fe'lindən,
Anın qədrini bil, qoyma əlindən.
Cənnət deyilənin minbir ilindən
Şərəflidi bircə günü dünyanın.

Bir az sakitləşir, köksündə ürək;
İnsan cilovlasın hissini gərək.
Hər gün olduğu tək adətə görə,
Dünyanı dərk üçün çıxır səfərə.
Qadınlar nə üçün sevir şəhvəti?
Haradan alıblar belə xisləti?
Şəhvət əsiridi nə üçün biri,
Vəfalı yaşayır ancaq digəri?
Şəhvətə əsirlik, yəqin bu istək,
İnstinqdən doğur, Kamaldakı tək.
Milyon illər boyu yaşadı insan
Qəbilə halında oldu hər zaman,
Həyatın mənası, şəksiz, şübhəsiz,
Həyatı qorumaq, - anlamışıq – biz.
Güclüdən törənən fərdin imkanı
Yüksək olacaqdır, - Darvini tanı.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Odur ki, güclüyə meyl edib qadın,
Güclüsü seçilib yaxının, yadın.
Əgər daha güclü çıxsa meydana,
Qadın elə o gün meyl edib ona.
Milyon illər boyu deyilən istək
Dönüb instinktə, özün hesab çək.
Qadın adam kimi qalsa bu gündə,
Bu istək hər şeydən olacaq öndə!
İnsan pilləsinə yüksəlsə ancaq;
Vəfa, abir, namus önə çıxacaq.
Deməк, insanlıqda zirvədədi türk,
Neçə ki həyat var, olacaq böyük!

Oxucum, yaxından tanı Elcanı,
O qədər saflaşıb qəlbində qanı,
Artıq İnsanlığın zirvəsindədi;
Bəlkə də dünyada bircə dənədi!
Odur yer üzünün əşrəfi bu an,
Nə qədər möhtəşəm olurmuş İnsan!

Elcanın quş xəyalı,
Göylərdən yerə enir.
Əqlində, şüurunda
Günün qayğısı dinir.
Hiss edir ki, qudurğan,
Dediyini edəcək,
Bəd niyyəti yolunda
Sona qədər gedəcək.
Elə sabah Gülcanı
Götürüb qaça bilər.
Cəhənnəmin yolunu
Gülcana aça bilər.
Hansı dəhşət gözləyir,
O pakı, o gözəli;



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Yaxşı anlayır Elcan,
Az qala olur dəli.
Bir az da qətiləşir
Ürəyində niyyəti.
Ölməlidir qudurğan,
Qərarı olur qəti.

Düşünür ki, onsuz da
Bitib mənim həyatım,
Çoxdan həll olunubdu,
Ömrüm, müqəddaratım.
Həyatıma yenidən
Sevgi gələsi deyil.
Məhəbbətsiz, sevgisiz
Könlüm güləsi deyil.
Mənim də həyatımı
Yaşadacaq Gülcanım,
Onun səadətinə
Qoy qurban olsun canım...

****

Kamal da narahatdır
Mənzilində bu gecə,
Düşünür ki, Elcanı
Yolundan atsın necə.
Narahat edir onu,
Öləcəksən, deməyi.
Pul gücünə alaraq
Qatillərdən köməyi
Məhv edərdi Elcanı.
Bir gündə, elə sabah,
O bir dəfə edibdi
Buna bənzər bir günah.
O qan batıb gedibdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Odur ki, mümkün sayır
Bu yola əl atmağı,
Ona bir şey gərəkdir,
Məqsədinə çatmağı.
Qorxur ki, Elcan birdən,
Onun bu hədəsini
Kiməsə açmış olar,
İşin üstü açılar,
Ədalət zəfər çalar.
Dilimi dinc qoymadım,
Deyib, buna yanır, o,
Canından usanır, o.

*****

Yaman pərişandı Gülcanın halı,
Heç vaxt yaşamayıb belə əhvalı.
Bilmir kimə açsın bu gün dərdini,
Çağırır köməyə Allahı, dini.
Utanır, polisə etmir şikayət,
İtirib dincliyi o incə xilqət.
Qorxur, xəbər çatar nişanlısına,
Bir də nə düşünər ata, ya ana.
Çirkin dedi-qodu baş alıb gedər,
Onu el içində biabır edər.
Bir yad adam bilsə bu vəziyyəti,
Birə beş üstünə cəmləyər qəti.
Bilir, gec-tez bunu hamı biləcək,
Dostlar qəmlənəcək, yadlar güləcək.
Bu işi nə sayaq qoysun yoluna,
Çətindən də çətin görünür ona.
Yaman pərişandı Gülcanın halı,
Heç vaxt yaşamayıb belə əhvalı.

*****



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Narahat gecə keçir,
Gəlir narahat səhər.
Zaman öz işindədir,
Yolundadı hər başər.
Odur dərs qurtarıbdı
Evə tələsir Gülcan,
Sanır ki, sıxır onu,
Başına dardı cahan.
Kamal gedir yanaşı,
Nədənsə susur bu gün,
Ürəyi narahatdı
Sanki qan qüsur bu gün.
Gülcan çatır, Kamalsa
Yoluna davam edir,
Dünənki yolu ilə
Yəqin evinə gedir.
Elcan sevinir buna,
Düşünür, «filan yerdə,
Bil ki işin bitəcək
Olacaqsan qəbirdə.»
Kamal bilir ki, Elcan
Onun dalınca gəlir,
Özü də hiss etmədən
Yeyin gedir, tələsir
İndi yolu keçərək
Dönəsidir o sağa,
Keçəsidi get-gəlin
Seyrək olduğu bağa.
Elcan orda işini
Başa yetirməlidi,
Kamalın həyatını
Qırıb bitirməlidi.
Qırmızı işıq yanır,
Kamal dayanmır ancaq,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İri bir maşın gəlir,
Yəqin onu vuracaq.
Düşünməyə vaxt hanı,
Əmr eləyir xisləti,
Onun xilası üçün
Elcan atılır, qəti.
Məsafə artıq imiş,
Elcan gecikir bir an,
Özünün də gözündə,
Zülmətə dönür cahan.
İki gənc qan içində,
İnsanlar olub məlul,
Həmişə olduğu tək
Yerindədir Əzrayıl...

Qalib gəlir İnsanlıq,
Zəfər çalır məhəbbət
Əfsuslar ki, çox zaman
Acı olur həqiqət...

*****

İyirmi bir il əvvəl
Başladım Şairliyə
Ey insanlar, bu yolda
Pənah da vardır deyə.
Həyatın hər üzündən
Düzgün yazdım, yaratdım,
Kəsir-qüsur qalmadı,
Çatdım, məqsədə çatdım.

Bu işə başlayanda
Bir məqsədim var idi;
Bu mövzuyla könlümdə
Yaz idi, bahar idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəbbətdən bir əsər
Yazmaq idi istəyim,
Bilirdim bacararam
Sakit idi ürəyim.
Ancaq on il bu işə
Başlaya bilmədim, mən,
On ili yola saldım
Heç özüm də bilmədən.
İradəmin gücünə
Bir gün aldım qələmi,
Varlığımdan çıxardım,
Ətaləti, ələmi.
Giriş yazdım bir vərəq,
Ürəyimcə çıxdı o,
Sonra it-bata düşdü
Varlığımı yaxdı o.
Küsdüm özüm özümdən,
Yaman düşdüm gözümdən...
Beş il ölüm yatağı
Aldı məni qoynuna,
Arzu etsəm də ölüm
Fərman gəlmədi ona.
Kəreminə min şükür
Ey ulu Yaradanım,
İradənlə qəlbimdə
Yenə çağladı qanım.
Nəhayət ki, baş arzum,
Çiçək açıb çin oldu,
O mövzunu bitirdim,
Ey bəşər, sənin oldu.
Onu oxuyan hər kəs
Bir pillə yüksələcək.
Alqış sənə ey həyat,
Alqış sənə gələcək!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*****

Ah məhəbbət!
Min illərdi sənsən dillər əzbəri,
Əzəl gündən xoşbəxtliyə səsləyirsən bəşəri.
Hər bir insan səndə gəzir səadəti əzəldən,
«Bəli», deyib yön çevirsən bir kimsəyə əgər sən,
Gözlərində bütün dünya cənnət olur bir anda,
Sənin kimi ülvi duyğu yaranmayıb cahanda.
Harda həyat cücərirsə orda sənin yerin var,
Gəlişinlə suya dönür milyon illik boran, qar.
Təbiətin dərk edilməz qalasıdı əbədi,
Ona görə dövranın da olasıdı əbədi.
Təkrar nədir, tanımayır əzəl gündən bu həyat,
Sonsuzluğun üzərində qurulubdu kainat.
Ona görə hər ürəkdə yeni meydan açırsan,
Hər an özgə don geyirsən, özgə işıq saçırsan.
Kim desə ki, «mənim kimi sevən yoxdu cahanda,»
Həqiqətdi, heç kəs o cür düşə bilməz o oda.
O müqəddəs odlarında alışdıqca canımız,
Aydınlaşır şüurumuz, durulaşır qanımız.
Səndən uzaq hər bir ürək insanlığa yaddı, yad,
Onlar üçün mə'nasızdı, əfsanədi bu həyat.
Sənə könül verənlərin, bu da var ki, çox zaman,
Qismətinə düşmüş olur ya ayrılıq, ya hicran.
Ya görürsən vəhşilərlə səhraları dolanır,
Ya görürsən vüsal dəmi şam tək alışıb yanır.
Ya görürsən külüng alıb parçalayır dağları,
Fəğan ilə yola salır neçə qışı, baharı.

Ancaq yenə ürəklərdə hakim olur sədaqət,
Sevgi necə gəlir gəlsin, səadətdi, səadət!
İnsanlığın ilk duyğusu sən olmusan şübhəsiz,
Sənin böyük baharına yol alırıq hələ biz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

El bilir ki, sarı bülbül
Məhəbbətsiz ötə bilməz.
Gözəlliyin şahı, o gül,
Elə gözəl bitə bilməz.

Ürək safsa güləsidi,
Həyat nədi, biləsidi.
Geci-tezi gələsidi
Eşq ondan yan ötə bilməz.

İlk bahardı olsa harda;
Çiçək açar dağda qar da.
Biganələr o odlarda
Bir tükünü ütə bilməz.

Dəyanətə dönəsidi,
Sədaqətə dönəsidi,
Səadətə dönəsidi –
Sevgi izsiz itə bilməz.

Ey cavan oxucum, odur yenə sən,
Şirin xəyallara dalıb gedirsən.
Deyirsən, «sevgilim bircə dənədi,
O, inci-gövhərdi, o, dürdanədi.
Cahana gəlməyib elə bir gözəl;
O camal, o duruş, o bilik, o əl

Həyat deyilənin mö'cüzəsidi,
Xəzan tanımayan qadir səsidi.
Yanaqları kimi gül ola bilməz,
Gözləri tək duru göl ola bilməz.
Zəriflik ölçüsü onun telidi,
İncələrdən incə onun belidi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kamil musiqidi səsi, gülüşü,
Həyat tək şirindi onun hər işi.
Ən gözəl şe'rdi sözü, söhbəti,
Tayı bu dünyada tapılmaz, qəti.»

Dedinmi qəlbindən keçən hər nə var?
Dinməyə bilərsən, aşkardı, aşkar.
Tam aça bilibmi kimsə qəlbini?
Birini deyibsə qalıbdı mini.
Onu duymaq asan, danışmaq çətin,
Odur baş məqsədi şe'rin, sənətin.
Bu şirin duyğular tanışdı mənə,
Səninlə bir daha yaşadım yenə.
Ancaq soruşsam ki, söylə, nədən sən
Başqasını deyil, onu seçmisən?
Özün də məəttəl qalarsan buna,
Bu əfsunlu sirrin nə olduğuna.
Bütün kainata şərəf, şan insan,
Burdan ulduzları oxuyan insan
Allah tək qüdrətli olsa da, ancaq,
Bu hikmət önündə aciz qalıb, bax!
Belə də olacaq min il, milyon il;
Bu sirrin açarı tapılan deyil.

*****

Həyat adlı keçmə-keçin
Zərbəsinə dözə bildim.
Fırtınalı bu ümmanda
Təpər tapıb üzə bildim.
Yaradanın köməyiylə
Başa çatdı bu dastanım,
Sənə ithaf olunubdu,
Qəbul elə, Qəmər xanım!

**MOSKVA – BAKI 2001-2005**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MƏNSUR ŞEİRLƏR



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MƏHƏBBƏTİMİZ KİMİ

Səhər-səhər otağımın gündoğana baxan pəncərəsindən baxıram.

Hər səhər

Baxıram!

Səhər-səhər pəncərədən baxmaqdan xoşum gəlir.

İsti, rahat, doğma otağımın pəncərəsindən.

Doğma otağımın!

Axı, o mənim hər bir kədərim, hər bir sevincimin şərikidir. Onun divarları ilə çox danışmışam.

Onun pəncərəsindən səhər-səhər baxmağı xoşlayıram.

Çox xoşlayıram.

Bir az aralı çox mərtəbəli bina tikirlər. Mehmanxana olacaq deyirlər. Mən hər gün onun bir az boy atdığını sevinclə izləyirəm.

O günü-gündən böyüyür. Böyüdükcə əzəmətli, qüdrətli, gözəl görünür.

Günü-gündən böyüyür, gözəlləşir!

Mənim məhəbbətim kimi!

Bu bənzətmə ilk dəfə ağlıma gələndə çox sevindim. Mənə elə gəldi ki, böyük bir kəşf etmişəm.

Hər gün yerimdən duran kimi tikintiyə baxıram. Görüm, o mənim məhəbbətimdən geri qalmayıb ki.

Axı mənim məhəbbətim hər gün daha alovlu olur, durulur, saflaşır.

Bütün arzularımın başlanğıcı və nəticəsinə çevrilir.

Mənliyimin, varlığımın səsinə çevrilir.

Həyatımın mə’nasına çevrilir.

Mənim özümə çevrilir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İlahi, insan olmaq, sevən bir insan olmaq, nə böyük səadət imiş!

Bina getdikcə ucalır!

Mənim məhəbbətim kimi!

Bina getdikcə gözəlləşir! Axı, orada insan məhəbbətinin bir hissəsi gözəlliyə çevrilir.

Bina gözəlləşir!

Mənim məhəbbətim kimi!

Mən onu, mənim sevgilimi, çox sevirəm.

Çox-çox sevirəm!

Onu bilirəm ki, çox sevirəm!

Kaş məhəbbətin ölçüsü olaydı!

Yə'qin ki, onda mən hər gün mənim məhəbbətimin ifadəsi olan ədədi böyütməli olardım. Onda məlum olardı ki, mən hamıdan güclü, xüsusi bir məhəbbətlə sevirəm.

Hamıdan güclü!

Mən ilk dəfə hiss edəndə ki, onu sevirəm, fikirləşdim, «Demək məhəbbət bu imiş. Dahilər onu insanın şirin ne'məti adlandırmaqda çox haqlı imiş».

Sevdiyimi ondan bildirdim ki, yaşımın az olmadığına baxmayaraq bu vaxta qədər heç zaman keçirmədiyim hisslər qəlbimi doldurmuş, varlığıma hakim kəsilmişdi.

Hər gün bu hisslər qüvvətlənir, durulur, saflaşır!

Hər gün daha ülvi olur. Hər gün həyatıma yeni bir mə'na gətirir.

Hər gün!

İlk vaxtlar hər dəfə hiss edəndə ki, mən onu əvvəlkindən dəfələrlə dərindən sevir, dəfələrlə çox istəyirəm, çaşar, hətta qorxardım ki, - deməli mən onu bax indi sevirəm. Bax indi. Bəlkə dünən heç sevmirdim?

Bu fikirlər məni qorxudurdu. Hər gün əvəlkingən daha çox sevirdim. Bir halda ki, bu gün dünənkindən daha çox sevdiyini hiss edirsən, deməli dünən bu günkündən az sevirdin.

Çaşardım ki, bunun hansı əsl məhəbbətdir: Dünənki, bu günkü, yoxsa sonrakı...



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Sonralar aydın oldu ki, bu məhəbətin təbiətindən irəli gəlirmiş. Günü-gündən daha çox sevmək – bax bu məhəbbət, əsl məhəbbət imiş.

Deməli, ilk dəfə də mən ona sevirəm dedikdə yalan deməmişəm. Onda da sevmişəm, indi də sevirəm.

Sevirəm!

Sevəcəyəm!

Ömür boyu, günü-gündən artan, böyüyən, zənginləşən, durulan, saflaşan bir məhəbbətlə sevəcəyəm.

Axı, bu məhəbbətin təbiətindəndir!

Bax, o bina kimi, günü-gündən böyüyən, gözəlləşən bina kimi!

Yox, yox! O bina böyüyür, gözəlləşir mənim məhəbbətim kimi!

O bir gün son həddinə çatıb dayanacaq. Mənim məhəbbətim isə əbədi olaraq böyüyəcək, zəngiləşəcək, saflaşacaqdır.

Axı, bu məhəbbətin təbiətindəndir!

Axır ki, fərq tapıldı. Tapılmalıydı da.

Hər şeyi məhəbbətə bənzətmək olar. Hər yaxşı, müqəddəs şeyi məhəbbətə, onun bir parçasına bənzətmək olar.

Məhəbbəti tamamilə heç nəyə bənzətmək olmaz.

O yeganədir!

Ən gözəl, ən yüksəkdir!

Ən ülvidir!

Bina böyüyür! Bina gözəlləşir!

Tezliklə onu tikib qurtaracaqlar. Axı onun böyüklüyü özülünə görə hesablanır. Həddindən uca tiksələr uça bilər. Çox uca tikmək olmaz!

Bəs mənim məhəbbətim? O da böyüməkdən uçmazmı? Axı mən onun özülünü qoyanda onun nə qədər böyüyəcəyini heç ağlıma da gətirə bilməzdim.

Uçmazmı mənim məhəbbətim?!

Uçmaz!

Məhəbbət çinara bənzər. Qol-budaq atdıqca, böyüdükcə, kökləri, dayaqları da böyüyür. Özü ilə bərabər böyüyür!

Mənim məhəbbətim kimi!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ona görə də çinar nə qədər böyüsə də, ən dəhşətli fırtınalara sinə gərə bilir. Yıxılmır!

Xüsusən cüt olanda!

Bizim məhəbbətimiz kimi!



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BİR AN...

Sən nə qədər qüdrətlisən İnsan!

Qüdrətlisənmi?!

Qüdrətlisən.

Ən qüdrətli, ən güclü.

Artıq ana təbiətin özündən də qüdrətli, güclüsən.

İnsan adı alan gündən qüdrətlisən.

Ona görə bu adı aldın ki, qüdrətli idin.

Qüdrətli olduğun üçün sənə insan dedilər.

Qüdrətin günü-gündən artır.

Əvvəllər ümidini göyə bağlar, göylərdən imdad dilərdin. İndi göylərin də yeganə ağasısan.

Ah! Sən nə qədər qüdrətlisən!

Əvvəllər haradan başlayıb harada qurtardığını bilmədiyin anamız Yer kürəsinin taleyi indi sənin əlindədir. Sən onu məsum körpə kimi çiçəklərə bələyə bilərsən. Sən onu bir göz qırpımında cəhənnəmə döndərə bilərsən.

Qüdrətin hər ikisinə çatar.

Sən onu istədiyin şəklə salır, çaylarını istədiyin səmtə axıdır, dənizlərinin yerini dəyişdirir, iqlimini idarə edirsən.

Sən nə qüdrətlisən!

Sən məhəbbət və nifrət adlanan hissələrə maliksən.

Bax buna görə də qüdrətlisən.

Bə'zən isə anamız Yer kürəsinin köksündə ocaq qalayır, köksünü dəlik-deşik edir, gözəlliklərini tapdayır, öz yaraqtdıqlarını da məhv edirsən.

Bir anda min illik sərvəti heçə döndərirsən.

Bu da sənin qüdrətinin böyüklüyündəndir.

Doğrudanmı?!...

Boğuq bir partlayışdan hamı diksinir. Hər kəs öz cihazına tərəf boylanır. Hər şey yerindəndir.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Partlayış cavan bir aspirantın əlində, baxmaq üçün gözləri qarşısına qaldırdığı kolbada baş vermişdir. Qatı qələvi məhlulu üzünə, birbaşa gözlərinə tökülmüşdür.

Bir anlığa hamı donub qalır. Sonra köməyə atılırlar. Əlindən tutub su kranının yanına çəkirlər. Tələsə-tələsə yuyunur. Lakin gecdir. Qələvi ani tə’sir etmişdir.

Qatı, qaynar qələvi.

Cavan bir insanının gözləri təhlükə altındadır.

Onun səadəti təhlükə altındadır.

Bir anda, bir göz qırpımında, xoşbəxt, səadətlə dolu, həyata, gələcəyə, yaşamağa səsləyən işıqlı dünya onun gözlərində zülmətə döndü.

Bir anda!

Bir göz qırpımında!

Ah! Axı bu an belə olmaya da bilərdi! Kolba stolun üstündə ikən partlaya bilərdi.

Kolba onu qaldırmaq istərkən bircə saniyə tez partlaya bilərdi.

Lənətə gəlmiş bircə saniyə gec, gənc onu gözləri önündən çəkdikdən sonra partlaya bilərdi.

Nə üçün gözləri qarşısında, düz gözləri qarşısında partladı.

Nə dəhşətli bir an!

Bir an, bir göz qırpımı, saniyənin mində, milyonda bir hissəsi, sən olmaya da bilərdin. Axı səni heç kəs gözləmir, heç kəs arzu etmirdi.

Gənc yarım saatdan sonra sevgilisinin görüşündə olacaq idi. O həmin anı yaxşı təsəvvür edirdi. Onlar üz-üzə gələcək, səssiz salamlaşacaq, əl-ələ tutuşub sonsuz bir səadət içərisində addımlayacaq, addımlayacaqdılar.

Yarım saat keçdi, o cərrah stolunda uzanmışdır.

Uğursuz an, bir an, bir göz qırpımı səni lə’nətə gələsən.

Doğrudanmı onu lə’nətə gəlsin, axı o an da onun həyatına daxildir. Ömrünün müəyyən hissəsini təşkil edir.

Gənc iki saatdan sonra anası ilə üz-üzə oturacaq, onun hazırladığı dadlı yeməkləri yeyəcək, çay içəcəkdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ana, mehriban, müqəddəs varlıq isə onun qarşısında oturub onun hər bir hərəkətini sonsuz bir məhəbbətlə izləyəcəkdi.

Sonsuz bir məhəbbətlə!

İki saat keçdi, indi dünya ananın da, bacının da, dost-tanışın da gözlərində zülmətə dönmüşdür.

Bir an, bir göz qırpımı onun bütün gününü alt-üst etdi.

Onun vəziyyəti ağırdır. Onun sabahının planları da alt-üst olmuşdur.

Onun vəziyyəti qorxuludur. Aylarla öz planlarından, arzu və əməllərindən, mühitindən ayrılmalı olacaqdır.

Onun vəziyyəti dəhşətlidir. Bu uğursuz an onun bütün həyatını başqa səmtə çevirə bilər.

İnsan ömrü çox kiçik anlardan, yaranır. Onların hamısını insan qabaqcadan görür, duyur, yaradır. Hər bir an saatlarla, günlərlə, illərlə qabaqcadan görülən hazırlığın, fəaliyyətin nəticəsidir. Son an bə'zən bütün ömrün nəticəsi olur.

Mehdi Hüseynzadənin, Hüseynbala Əliyevin, Həzi Aslanovun həyatının son anını bütün həyatı, ömrü hazırlamışdı.

Bir yerdə keçirilən ayların, illərin nəticəsi bir anda «sevirəm» kəlməsi ilə meydana gəlmirmi?

İnsan həyatını özü yaradır. Addım-addım, anbaan.

Bəs bu dəhşətli an haradan çıxdı. Axı bu heç gözlənilmirdi, heç arzu edilmirdi.

Onun nə ixtiyarı var idi ki, 29 ilin zəhmətinin, fəaliyyətinin yaratdığı, öz təbii yolu ilə gedən insan həyatını tam başqa yola çevirdi, onda dəhşətli iz qoyub getdi.

Doğrudanmı o andan kənar durmaq, onu dolanıb keçmək, üstündən atılmaq olmazdı?!

Ey qüdrətli insan! Doğrudanmı sən bir anın, bir göz qırpımının qarşısında aciz qaldın?

Deyəcəksən ki, bu gözlənilmirdi.

Bəs faşizm?

Sən onun necə doğulduğunu, dil açıb yeridiyini, şişib böyüdüyünü görürdün. Onun quduz it kimi bəşəriyyəti daladığı ana



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

icazə verdin. Bəşər həyatının ən dəhşətli anına icazə verdin. Doğrudur, sən faşizmi dəfn etdin.

Əlli milyonun, onların hər birisininin min-min şirin arzularının məhvi bahasına.

Anaların belinin vaxtsız bükülməsi, nişanlı qızların gül yanaqlarının həmişəlik solması, illər ərzində körpə balaların dodaqlarının təbəssümə həsrət qalması bahasına.

Minlərlə şəhər, kəndlərin xaraba qalması bahasına...

Doğrudanmı bəşəriyyət bu dəhşətli andan yan keçə bilməzdi?

Doğrudanmı buna onun qüdrəti çatmazdı?

Həkim yaxınlaşır.

O xəstəninin gözünə iynə vurmaq istəyir.

Həkim yaxınlaşır.

Xəstə isə heç nə hiss etmir, heç nə görmür. Bir dəqiqədən sonra onun gözlərinə iynə vuracaqlar.

O heç nə bilmir, heç nə hiss etmir. Öz daxili aləminə qatılıb, baş vermiş hadisəni düşünür.

İnana bilmir, inanmaq istəmir.

Qayıdıb o anı başqa cür yaşamaq istəyir.

Partlayışsız!

Dəhşətsiz!

Heyhat, mümkün deyil.

Saniyələr, dəqiqələr, günlər. Nə qədər gec, ağır keçir.

Birinci gecə. Onun uzunluğu yarım ömr qədər göründü. O heç qurtarmaq bilmirdi.

Ağrılı, işgəncəli, dəhşətli, sabaha heç bir yaxşı şey və'd etməyən gecə.

Gənc 29 illik ömründə belə uzun gecə görməyib. O gecənin belə uzun ola biləcəyinə heç inana bilməzdi.

Həkim yaxınlaşır.

İynənin ucundakı damla soyuq bir parıltı verir.

Xəncər parıltısı.

Xəstə heç nəyi hiss etmir. Bir an keçir. Hər şey aydınlaşır. Xəstəninin bütün əzələləri gərilir. Əsəbləri tarıma çəkilir.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Həkim həyacanlıdır. Lakin əlləri əsmir. O xəstənin nələr keçirdiyini hiss edir. Ancaq xəstənin özü qədər yox.

Heç kəs, heç kəs xəstənin bu anını xəstənin özü kimi hiss edə bilməz.

Həkimin əlləri əsmir.

Xəstə dözür.

İnsan dözür.

İnsan qüdrətlidir!

Dözür!

İnsan qüdrətlidir!

Bir an, bir göz qırpımı, sənin doğura biləcəyin dəhşətin ağırlığı insanın qüdrəti, insanın gücü ilə artırır.

Axı bu gərək belə olmasın. Gərək belə olmasın!

İnsan ağıllandıqca, qüdrəti artıqca növbəti Hitlerin törədə biləcəyi dəhşətli anın ağırlığı da artır.

O Hitler heç anadan olmaya bilərdi. Ya da uşaqkən qızılcadan gəbərə bilərdi. Gəbərmədi. Gəbərsə də çətin idi ki, fərqi ola idi. İnsan onu tanımaya bilərdi.

Faşizmi isə tanıdı. Dərhal tanıdı.

Bəs niyə onun üstündən keçə bilmədi?!

Növbəti Hitler olacaqmı?!

İnsan onun üzərindən keçə biləcəkmi?

Keçməlidir!

Axı o kiçik bir düyməni basmaqla bütün dünyanı bir anda, bir göz qırpımında cəhənnəmə döndərə bilər.

Bir anda!

Bir göz qırpımında!

Yox! Yox!

İnsan belə bir ana yol verə bilməz.

Yol verməməlidir!

İnsan qüdrətlidir axı.

Qüdrətlidirmi?!

Mən buna o zaman inanacağam ki, o insan səadətinə cüzi bir kölgə sala biləcək, insan qəh-qəhəsini bir anlığa susdura biləcək ən kiçik bir anı da qabaqcadan məhv edə bilsin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ANA İNAMI

Qonşu kəndə əmimgilə getmişdim. Oturub oradan-buradan söhbət edirdik. Qonşuluqda yaşayan Tükəzban xala da orada idi. Söhbətə az qarışır, kubiklərdən evcik quran kiçik əmim oğlu ilə əylənirdi. Hərdən onun intizar çəkən gözləri sanki otağın divarlarından keçib uzaqlara zillənirdi. Mən onu yaxından tanımasan da, mehriban, xeyirxah bir qonşu olduğunu eşitmişdim. O heç yarım saat da oturmayıb ayağa qalxdı:

- Sağ olun, gedim, uşaq gəlib qapıda qalar. Yorğun, arğın...

Yadıma düşdü ki, mən bu yaxınlarda əmimgildə olanda Tükəzbən xala çox oturmamış, durub gedəndə beləcə demişdi. Soruşdum:

- Ay əmidostu, qonşunuzun oğlu harada olur ki, Tükəzban xala belə deyir. Məyər onun öz açarı yoxdur?

Cavab məni sarsıtdı:

- O əlli ildir ki, müharibədən qayıtmamış yeganə oğlunu gözləyir...



**1111111247899**

**(11.12.1940)**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# REDAKTORDAN SON SÖZ ƏVƏZİ

Salam, əziz oxucu!

Nəhayət ki, Pənah Göyçə külliyatının axırıncı cildi də işıq üzü gördü. Bu cild əbədiliyi, möhtəşəmliyi ilə dünyaya hakim bir qüvvənin adı ilə, «Məhəbbət» adlanır. Qoy bu kitab da adı ilə könülləri oxşasın, ürəklərə nur gətirsin, ruhlara qida versin.

Beşinci cildin «Son söz əvəzi»ni daha layiqli yazmaq istəyirəm. Bilmirəm, nədən başlayım. Qərara gəldim ki, bu işdə Pənah Göyçə özü mənə kömək edə bilər.

Minacatda oxuyuruq:

**Ey yeganə Yaradan,**
**Ey ulu Pərvərdiyar!**
**Belə söyləyirlər ki,**
**Sənin minbir adın var.**

Bilirk ki, insanlar daim xoş əməlləri, hissləri ifadə edən adları Yaradana vermişlər. Bu məqamda Pənah Göyçə də Yaradana öz hisslərini ifadə edir:

**Bu səhər varlığımı**
**Xoş bir duyğu çulğadı,-**
**Məhəbbət olmalıdı**
**Yaradanın ilk adı.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Və təbii ki, izah da verir:

**Olmasaydı qəlbində**
**Sonsuz sevgi, məhəbbət,**
**Belə zəngin, hüdudsuz**
**Olardımı təbiət!?**
**Saya gəlməz ulduzlar,**
**Göyə zinət Günəş, Ay,**
**Anamız Yer kürəsi, -**
**Kainat adlı saray,**
**Sənin məhəbbətindən**
**Gəlmədimi meydana?!**

Yenə də Məhəbbət. Bundan əvvəlki cildlərdə Pənah Göyçə məhəbbəti bir qüvvə kimi ortaya qoymuşdu. Bildirmişdi ki, «dünyanı gözəllik xilas edəcək» fikri tam deyil və yanlışdı. (Mən də bu fikirlərə qoşularaq özümün bəzi mülahizələrimi oxuculara çatdırmışdım.) Çünki gözəllik adlı qüvvə yoxdur. Yalnız iki qüvvə var: məhəbbət və nifrət. Və dünyanı da daim çarpışan bu qüvvədən biri, məhəbbət xilas edə bilər. Yəni Tanrı, - Məhəbbət. Bütün gözəl, səmimi və xoş olan hər bir əməl məhəbbətdən yaranır. Yəni, Tanrının bizə verdiyi o qüvvədən.

Maraqlıdır ki, Pənah Göyçə peyğəmbərimizə yazdığı nətdə Yaradanın məhəbbətinin bir anını, yəni Məhəmməd Peyğəmbərin dünyaya gəlişi anını xüsusi şövq və həvəslə vermişdir. Təbii ki, özündən əvvəlki söz ustadlarının dediklərinə Nizami Zöhrabinin simasında çox yüksək qiymət verərək bildirmişdir:

**Bu gün söz mülkünün dərilib barı,**
**Nizami Zöhrabi seçib onları.**
**Qismət qane etsin gərək insanı,**
**Alıb uralayım yerdə qalanı.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonra isə qadir qələminin qüdrətinə, ilhamına, o ali məhəbbətin qəlbində yaratdığı istiliyin, həlimliyin, mehrin işığına köklənərək buyurmuşdur:

**Doğuldun cahana Günəşlə qoşa,**
**O gün qoşa Günəş verdi baş-başa.**
**Günəş sən Günəşi salamlayırdı,**
**Aləmə sevinclə şəfəq yayırdı.**

**Artmışdı cahanın nuru neçə qat,**
**Füsunkar bir libas geymişdi həyat.**

Həmin an təbiətin nuru, işığı, gözəlliyi neçə qat artmış, məhəbbət bir qədər də çoxalmış, sanki cənnət bir anlıq insanların üzünə açılmışdı:

**Səs-səsə vermişdi nəğməli quşlar,**
**Hər biri eşqini edirdi izhar.**
**Çəmənə gəlmişdi özgə təravət,**
**Nərgizlər, süsənlər sanki bir afət**
**Mehə könül verib rəqs edirdilər;**
**Hər tərəf füsunkar, hər gül təzə, tər.**
**Alışıb yanırdı lalə yanağı,**
**Bütün qönçələrin qaçmış dodağı**
**Deyirdi, möcüzə doğacağam mən,**
**Minbir rəngli idi o səhər çəmən.**

Bu sehri, möcüzəni adi sözlərlə dil təsvir edə bilmir, buna şair qəlbi, rəssam fırçası lazımdır və budur sözlərin yaratdığı tablo:

**Üzürdü səmada tək-tək buludlar,**
**Yerə məhəbbətlə baxırdı onlar,**
**Çiləndi onlardan sevinc yaşları,**
**Rafael o anı çəkəydi barı.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmin anları çəkən o, təbli, coşğulu, qadir şair ürəyindən bunlar arının min bir çiçəkdən süzdüyü bal tək süzülüb gəlir:

**Yuyundu, darandı hər gül, hər çiçək,**
**Oldular daha da təzə-tər, qəşəng.**
**Sənə boylanırdı günəbaxanlar,**
**Varlıq yaşayırdı ən şirin anlar.**
**Cahan görməmişdi belə bir səhər,**
**Sevincdən məst idi yerlər və göylər.**

Ana təbiət sanki öz sevimli balasının pişvazına çıxmışdı:

**Üfüqə enmişdi bir qövsi-qüzeh,**
**Minbir ətirliydi əsən sərin meh.**
**Yatmış gözəlliklər oyandı o gün,**
**Səadət rənginə boyandı o gün.**

Həmin günün eşqinə möcüzə möcüzəyə qarışmışdı:

**Enmişdi dünyaya əmin-amanlıq,**
**İtib yox olmuşdu pislik, yamanlıq.**
**Yox idi qovulan, yox idi əsir,**
**Qoşa dayanmışdı ceyran ilə şir.**
**Cahan yaşayırdı möcüzə bir gün,**
**Hər bir an gəlirdi daha da üstün.**

Həmin gün təbiət öz gözəlliyindən doymamışdı, bütün gözəlliklər Səni salama çıxmışdı, ya Peyğəmbər! O gün hər bir varlıq vurğunuydu gözəlliyin. Sənin eşqin, məhəbbətin ulu Tanrının izniylə onların hər birini möcüzəyə çevirmişdi:

**Batmaq istəmirdi o axşam Günəş;**
**Tək qalmasın deyə yerdəki Ataş.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Doğuldu o axşam ondörd günlük Ay,**
**Başında ulduzlar qurmuşdu halay.**
**Yerə məhəbbətlə baxırdı onlar,**
**Onların hər biri seçdi Səni yar.**
**Sehrlə, əfsunla doluydu hər yan,**
**O gün gecəyə də vuruldu cahan.**

Görəsən Pənah Göyçə təbi, qələmi öz varlığı ilə o mübarək günün təsvirini yazaraq şairlik zirvəsinə qalxa bildimi, ya Peyğəmbər?!

Bu da aydındır ki, insanın imkanı Səni layiqincə tərif etməyə çatmır. Amma şairin təbi ulu Tanrının izniylə çağlayır, onun məhəbbətinə köklənir. Məncə əsl şairlər, cahanda müqəddəs eşq və məhəbbət carçıları, Tanrının ən sevimli bəndələridirdlər...

*****

Əziz oxucu! Əgər diqqət yetirmisinizsə, Pənah Göyçə külliyatının hər nəşrində «Ön söz əvəzi»ni yazarkən bir çox məsələlərə, o cümlədən dünyəvi fikirlərə geniş yer ayırmışdır. İnsanın yaranmasından bu günə qədər keçdiyi təkamülə diqqət ayırmış və bir sıra şəxsi mülahizələrini oxucularla bölüşmüşdür. Hesab edirəm ki, bunlar Pənah Göyçənin qoyulan problemlərə elmi baxışlarıdır və kompleks olaraq elmi praktik əhəmiyyətə malikdir.

Budur, onun bu mövzuda istənilən şerindən birinə nəzər yetirək:

**Həyat nə deməkdir?**
**Budur qısası;**
**Onu qorumaqdır dərin mənası.**
**Odur ki, cahanda canlı nə ki var,**
**Uzun ömr etməyə daim can atar.**
**İstər bitki olsun, istərsə heyvan,**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**Ya da canlıların zirvəsi insan,**
**Hər gün daha yaxşı yaşamaq istər;**
**Bu qızıl qaydadan doğulub bəşər.**

Göründüyü kimi, istənilən canlı hər gün daha yaxşı yaşamaq istəyir və bunun uğrunda çalışır, mübarizə aparır və buna həyat uğrunda mübarizə deyirlər:

**Sanma həyat sakit irəli gedir,**
**Onun baş qanunu mübarizədir.**
**Təbiət amansız töküb tədbiri,**
**Biri məhv olmaqla yaşayıb biri.**
**Hər dəfə sıradan çıxıb zəiflər,**
**Kamillər, güclülər qazanıb zəfər.**
**Həyat deyiləni beləcə hər an,**
**Təbii seçmədir qurub yaradan.**

Bir çox canlılar birləşərək yaşamaq uğrunda mübarizə aparırlar. Amma insanların içində hər dövr üçün daim irəli baxmağı bacaran kamillər yetişib və daim bu proses baş verəcəkdir:

**Zülmətdən işığa gedir kainat,**
**Min-min illər əvvəl, odur ki həyat,**
**Gətirdi dünyaya özgə kəsləri.**
**Tək-tək olsalar da o vaxtdan bəri**
**Özgə bir nəzərlə baxıb cahana**
**Dedilər, qardaşdı insan insana.**

Pənah Göyçə külliyatının hər bir cildində belə ümumbəşər əhəmiyyətə malik olan mövzulara rast gəlirik. Və mən hər dəfə belə mövzulara rast gələndə hələ orta məktəbin son illərində yazdığım bir şer yadıma düşür və həmin şeri Sizin diqqətinizə çatdırmaq istəyi ilə bacarmadım:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Dilərik biz səndən kömək, ya Mədəd,***
***Girlənsin başımız, can gəlsin deyə.***
***Öyrənək sirrini qoca dünyanın,***
***Çözək hər dövrünü an gəlsin deyə.***

***On iki bürcü var əzəl binadan,***
***Hər biri ulduzdan qurub xanədan.***
***On iki ili var, sıra heyvandan***
***İşarə saxlayır san gəlsin deyə.***

***On iki ayımız hökm edir ilə,***
***Yaz qışdan ötüşüb dolanıb gələ.***
***Gündüzə məhəbbət görmədim belə,***
***Əriyir gecələr dan gəlsin deyə.***

***On iki sayının nədir sanbalı,***
***Bu sirri bilənlər eyləsin halı.***
***On iki şəyirdlik İsadan qalı,***
***Dözdü hər əzaba din gəlsin deyə.***

***On iki imam var, islam övladı,***
***Ən dərin hörmətlə çəkilir adı.***
***On iki səslidi bülbül fəryadı,***
***Ələs könül verib şan gəlsin deyə.***

O vaxt on iki rəqəminin sanbalını gördüm və qəribədir ki, bu məndə Aşıq Ələsgərin «On iki şəyirdim işlər hər yana» deyə fəxrlə söylədiklərini oxuduqdan və dünyada on iki iqlim qurşağının olmasını bildikdən sonra yaranmışdı. Və bu məndə səmavi dinlərə açıq gözlə, elmi cəhətdən münasibət göstərməyə fikir oyatdı.

Bu mövzu bu gün də aktualdı. Əgər bu mövzu aktuallığını itirsə, məncə həyatın sonu gələr. Və Pənah Göyçənin belə mövzularla zəngin külliyatı ilə tanış olduqca, onun sənəti ilə insaniyyət kimi ucalığı mərtəbə-mərtəbə fəth etdiyini görürük. Mərtəbə-mərtəbə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dedikdə, yəqin duydunuz ki, zirvələr birdən-birə, təsadüfən yox, böyük zəhmət, enerji sərf etməklə fəth oluna bilər. Pənah Göyçə həm də ona görə sənət zirvəsini, insaniyyətlik mərtəbəsini fəth edib ki, onun əsərləri həm də sadə, başa düşüləcək tərzdə, yəni klassik, xalq ruhunda yazılıb. BİlirƏm ki, xalq ruhu, klassik kimi ifadələrə təhlillərdə çox rast gəlinir. Bu sözləri işlətmədən də kiçik bir eksperimen təhlili apararaq bu məsələyə bir daha aydınlıq gətirmək olar.

Bildiyimiz kimi, şair var ki, yalnız duyduqlarını yaşayır və mürəkkəb ifadələrlə, çətin anlaşılan sözlərlə misralara düzür. Amma şair də var ki, daim öyrənir, tədqiq edir, fikirlərini saflaşdırır və duyduqlarını yaşayaraq səlis, sadə və aydın şəkildə misralara köçürür. Fikir nə qədər sadə və səlis yazılsa, bir o qədər də asan anlaşılan, yadda qalan olur. İllah da ki, həmin sadə, səlis şəkildə çatdırılan fikirlər bəşəri ola, saf ola, bütövlükdə insaniyyətə xidmət edə. Elə, klassiklərin yaradıcılığına diqqət yetirdikdə görürük ki, o fikirlər özünə vətəndaşlıq qazanır ki, onlar bəşəri olur, insaniyyətə xidmət edir və ən ümdəsi, sadə və səlis yazılırlar.

Heç bir savadı olmayan, dili dualı nənələr qatar-qatar bayatı, şerlər, nağıllar bilirlər. Hansı məktəbdir bu, özəlliyi nədir? Sirri nədədir? Hafizə, yaddaş, qabiliyyət, maraq yoxsa nə? Məncə başlıcası odur ki, həmin əsərlər dilin incəliyindən, muncuq kimi sadə, hamının başa düşə biləcəyi tərzdə yaranıblar. Əks təqdirdə ən azı onlar tarix boyu dilin inkişafı zamanı sıradan çıxa bilərdilər.

Əziz poeziya sevərlər, sirr gözümüzün qabağındadır:

**Balama qurban inəklər,**
**Balam nə vaxt iməklər.**

Analar öz məişətimizi dilə gətirərək tariximizi bu misralara köçürmüşlər. İstər göydələndə olsun, istərsə ücqar bir alaçıqda, körpə dilin bu cür şirinliyindən qidalanır, ananın həzin laylasından yalnız sakitləşərək şirin yuxu tapır...

Bu gün də poeziyanın dil məsələsində yeknəsəklik yoxdur. Bu da təbii qarşılanmalıdır. Əgər hamı eyni şəkildə, sadə və aydın yaza bilsə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onda bu cür əsərlərin sayı-hesabı olmaz. Amma təbiət burada da öz işini görür və ağır qavranılan əsərlərlə sadə anlaşılan əsərləri seçim üçün insanlara təqdim edir. Çünki, adətən bir məntəqədən digər məntəqəyə nisbətən asan yol da olur, çətin yol da. Seçim isə dam insanların öhdəsinə buraxılır. Bu da təbii seçmənin yazılmamış qanunlarındandır.

Pənah Göyçə yaradıcılığı üçün unudulmaq problemi yoxdur. Çünki onun yaradıcılığı, sadə, aydın və səlis şəkildə yazılmış təmiz, saf, bəşəri fikirlərlə zəngindir. Təbii ki, məhəbbət baş keyfiyyət, hakim qüvvə olaraq ana xətt təşkil etmişdir.

*****

Bu dəfə kitabda səsləşmələrdən əlavə, yeni bir bölmə, ithaflar bölməsi də özünə yer aldı. Burada şairin müxtəlif vaxtlarda insanlara ithafları verilir. Həmin şerlər konkret simalara ithaf olunsalar da, əslində ümumbəşəri fikirlərlə zəngindirlər. Bu da özu özlüyündə Pənah Göyçənin İnsanlığa, Bəşəriliyə daim diqqətlə yanaşmasını, mövcud problemləri diqqətdə saxlamaq məharətini göstərir. Habil Kamana ithafda oxuyuruq:

**Bəxtiyardı doğan ana,**
**Alqış ona, rəhmət ona.**
**Günəş kimi bu cahana**
**Bol-bol işıq salır Habil.**

Bu cahana bol-bol işıq salır, xalqımızın fəxarəti, ustad Habil Kaman. Məsələnin bu cür qoyulması, Habil Kamanın tək bizə yox, həm də dünyaya işıq salması özü-özlüyündə qlobal bir hadisədir. Həm də ona görə ki, biz bu cür kamil sənətkarları hələ ki, beynəlxalq miqyasda layiqincə təqdim edə bilmirik. Amma məsələnin digər tərəfi isə odur ki, əvvəl-axır əsl sənət öz yerini tutmalıdır.

Ürək ağrısı ilə qeyd etmək istəyirəm ki, bəşəriyyətin ən qüdrətli şairlərindən biri, Səməd Vurğunun yüz illik yubileyi bizim soyuq münasibətimiz üzündən o, nəinki beynəlxalq miqyasda, hətda öz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vətənində də layiqincə qeyd edilmir... Pənah Göyçə problemi isə ayrıca bir dərddir. Kirayənişin yaşaya-yaşaya, yaşının bu çağında özünə yuva qurmaq əvəzinə öz külliyatını çap etdi. Demək olar ki, köməksiz. Özü də necə külliyat. Əvvəllər, sovet dövründə dövri mətbuata yaxın qoyulmadı, «Yazıçı» nəşriyyatında çap olunmaq üçün növbəyə götürülmədi. Əslində belə də olmalı idi. Bütün külliyatı ələk-vələk etsən, bir sətir də məddahlığa rast gəlməzsən, nə dövlətə, nə də başda duranlara bir sətir də mədhiyyə tapa bilməzsən. Əvəzində isə Pənah Göyçə, xalqımızın qonaqsevərliyi, qonaq qarşılamaq mədəniyyəti kimi gözəl keyfiyyətlərini tərənnüm etmişdir:

**Əzəl gündən elimizdə**
**Ən əziz insandı qonaq.**
**Xoş diləkdi dilimizdə,**
**Hər evdə sultandı qonaq.**

**Onunkudu şüx mütəkkə,**
**Yuxarı baş, dadlı tikə.**
**Toxunmasın bir təhlükə,-**
**Candan şirin candı qonaq.**

**Görəndə ki, qoşa gəlir,**
**Ürəyimiz cuşa gəlir.**
**Hər kim olsa xoşa gəlir,**
**Pənah, şərəf-şandı qonaq.**

*****

Əziz oxucu! Pənah Göyçə yaradıcılığı gördüyümüz kimi çox şaxəlidi. Onun poetik dili, poetik fəlsəfəsi sadə və aydın şəkildə oxuculara çatdırılır. Əgər fikir vermisinizsə Pənah Göyçə nə qədər çətin, acı da olsa “hicranı” böyük məmnuniyyətlə qəbul edir. Burada



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qəribə mənzərə yaranır. Belə ki, Pənah Göyçə bildirir ki, hicran, həsrət nə qədər uzun olsa, məhəbbət də bir o qədər güclənər. Məsələn, bildirir ki, Leyli və Məcnun və başqa aşiqlər məhəbbətlərinə tezliklə qovuşsaydılar, onların məhəbbətləri bu qədər güclü olmaz, bu qədər şöhrət tapa bilməzdilər. Və Pənah Göyçə bununla vüsalın əleyhinə çıxmır, əksinə, yalnız və yalnız məhəbbətin daha da güclü olmasını istəyir. Onun yaradıcılığında bu barədə külli miqdarda nümunələrə rast gəlmişik. Mən istərdim ki, bünları əziz oxucuların özləri qiymətləndirsinlər...

İcazənizlə, Pənah Göyçə yaradıcılığının rüşeymi, nüvəsi olan bir mövzudan, daha doğrusu həmin mövzuya həsr etdiyi eyni adlı "Məhəbbət" poemasından danışaq.

Poemanın ərsəyə gəlmə səbəbini, məhəbbət mövzusuna belə geniş müraciət etməsini müəllif bu cür izah edir:

**Dünya yaranandan, bilir hər xilqət,**
**Sənətdə baş mövzu olub məhəbbət.**
**Elə də qalacaq keçsə milyon il,**
**Bu mövzu heç zaman tükənən deyil.**
**Aqil olan kəsə aşkardı, aşkar,**
**Həyat eşq üstündə tutubdu qərar.**
**Bu ucsuz, bucaqsız, sonsuz kainat,**
**Ən kiçik zərrənin sirri neçə qat,**
**Yarandı Tanrının Məhəbbətindən,**
**Lisana sığmayan səxavətindən!**

Bəli, məhəbbət mövzusu nə qədər məhəbbət var, insanlarda Tanrı eşqi var yaşayacaqdır. Bir sözlə, Pənah Göyçə ilhamının şirin dili, yatımlı ifadələri ilə ərz etsək nə xoş olar:

**Nə qədər ki, kainat var**
**Olduğu tək qalacaq eşq.**
**Tanrı özü verib qərar,**
**Olub, vardır, olacaq eşq.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ey bu sözlərin müəllifi Pənah Göyçə, Ulu Tanrı Sizin təbinizlə, ilhamınızla bu sözləri biz bəşərə göndərib. Məncə, Sizin bu aləmdəki şairlik missiyanıza elə təkcə bu sözlərlə o Uca Dərgahda artıq qiymət verilmişdir.

Əziz oxucu! Pənah Göyçənin məhəbbət mövzusundan xüsusi bir poemanın yazmasına necə də məsuliyyətlə, xüsusi məlhəmliklə yanaşdığını yəqin Siz də duydunuz. Bəli, bu mövzu təpədən dırnağa bəşəri olmalıdır, ancaq insanlara saf, təmiz məhəbbətin hansı məqamlardan keçdiyini göstərməlidir...

Nifrətə min lənət, yaşasın məhəbbət hayqırtısı:

**Nifrət səfalətdi, nifrət qaradı,**
**Günəş tək nurludu, ağdı məhəbbət.**

əsərə gözəl, ibrətamiz bir sanbal gətirir, onu daha da ucalığın yeni-yeni zirvələrinə qanadlandırır. İlahi, məhəbbətə verilən qiymətə, tərifə bax:

**Biz ona mütiyik, cana hakimdi.**
**Ruh ona tabedi, qana hakimdi,**
**Hər bir hüceyrədə genə hakimdi,**
**İnsanlığın tacı, taxtı məhəbbət.**

Məhəbbət, eşq, sevgi, vurğunluq, müqəddəs duyğu şer qanadlarında poemanın qədəmlərinə öz ətrinə, əfsununa bülənd olmuş dəstə bağlayıb çələng toxuyur. İnşaallah, insanın varlığını saran o ilahidən gələn qüvvə, cazibə əsərin mövzusuna işıq tutacaq, şəfəq saçacaq. Bu əsər xüsusidir, Pənah Göyçə yaradıcılığının zirvəsidir, Tanrının izniylə sevənlərə pay, ruhlara qidadır. Pənah Göyçə böyük Yaradanın adını yenə də dilə gətirir, ondan pənah diləyir:

**Allahu-əkbəri gətirib dilə,**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Yenə qələmimi almışam ələ.**
**Ey varlığa səbəb, böyük Yaradan,**
**Bütün kainata yeganə Sultan,**
**Özün pənahı ol yenə Pənahın,**
**Uğurlu açılsın ona sabahın.**
**Çağlasın, qəlbində donmasın qanı,**
**Gərəksiz, faydasız ötməsin anı.**
**Halal əməliylə tapsın şərəf, şan,**
**Yol tapa bilməsin qəlbinə şeytan.**

Bəli, əziz oxucu! Gərək biz də bir oxucu kimi bu mövzuya daim diqqətlə yanaşaq, həssas olaq. İnsaniyyətin yüksək keyfiyyətindən söz açmaq üçün yaranıb bu əsər. Əsərin qəhrəmanları Gülcan, Elcan məhəbbətin, Kamal isə şeytan əməli olan nifrətin simalarıdırlar. Burada məhəbbətlə insaniyyət hissi bir vücudda, Elcanda cəmləşmiş, onu ali məqama yetirmişdir. Bununla Pənah Göyçə məhəbbət əyləncədir, o hiss artıq ölmüşdür deyənlərə tutarlı, klassik və yenilməz cavab vermişdir. Diqqət yetirsək görərik ki, əsərin kulminasiyasında Kamalı sıradan çıxarmağa hazır olan Elcan Kamalın həyatı üçün gözlənilməz təhlükə anında tərəddüd etmədən onun köməyinə atılır. Budur insanda məhəbbətlə insaniyyətin vəhdəti. Məncə bu bəşər ədəbiyyatında xüsusi yeri, çəkisi olan, şairliyin əlçatmazlığında pərvəriş tapmış bir məqamdır. Bəli, adətən əsərlərin sonu xeyirin şərə qalib gəlməsi kontekstində müsbət qəhrəmanın yaşaması ilə sonuclanır. Pənah Göyçənin "Məhəbbət" poemasının özəlliyi ondadır ki, Elcanın simasında həm məhəbbət, həm də insanlığa xidmət bir araya gətirilir və müsbət qəhrəman olan Elcan ölümüylə nifrətə qalib gəlir.

Məncə bu əsər hələ çox tədqiqatlar mövzusu olacaq və dünyəvilik, bəşərilik kimi dəyərlər baxımından dünya xalqlarının dillərinə tərcümə olunacaq.

Əziz oxucu! Hər kəsin ürəyindəq çox sözlər keçir, amma, bilirsiniz ki, hamısını demək olmur. Onları ifadə etmək, insanların demək istədiklərini danışmaq əsil sənət, sənətkarlıq tələb edir:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Tam aça bilibmi kimsə qəlbini?**
**Birini deyibsə qalıbdı mini.**
**Onu duymaq asan, danışmaq çətin,**
**Odur baş məqsədi şe'rin, sənətin.**

Odur ki, tam əminəm ki, Sizin hər birinizin ürəyindən keçən sözləri, Sizin yaşadığınız hissləri Pənah Göyçə qələmə ala bilmişdir.

Ey bəşər övladı, bir daha oxuyun, oxuyun bu əsəri və Siz də sevginizə layiq olan kəsə ithaf edin!

*****

Əziz oxucu! Beşinci cild də sona yetdi. Bilirəm ki, külliyatın hər cildi texniki səhvlər və qüsurlardan xali deyil. Buna görə Sizdən üzr istəyirik. Bldiyiniz kimi külliyat qısa bir zamanda ərsəyə gəldi. Buna görə də səhvlər və yanlışlıqlar təbii qarşılanmalıdır. Bildiyimiz kimi, təkcə Tanrı özü qüsurlardan xalidir. Bütün bunlara baxmayaraq belə qısa müddətdə bu qədər sanballı, dəyərli, həmişəyaşar əsərlərin külliyatını ərsəyə gətirmək hər insana nəsib olmur. Bu baxımdan Pənah Göyçə xoşbəxt şairdir. Külliyatın üzərində çalışan hər kəs öz zəhmətini dəyərli oxuculara halal edir və Pənah Göyçə sənətinə qoyulan kiçik bir abidə hesab edir. Hamımızdan isə asılı olan bir şey qalır ki, Pənah Göyçə amallarını həmişə yaşadaq, onun ədəbi irsini daim tədqiq edək.

Onu qeyd edim ki, qabaqkı cildlərin birində Sizə Pənah Göyçə ilə əlaqə saxlamaq üçün onun elektron ünvanını (panahgoyche@mail.ru) təqdim etmişdik. Öz rəy və təkliflərini göndərən bütün oxuculara qabaqcadan öz dərin minnətdarlığımızı bildiririk.

Mən özümü Pənah Göyçə yaradıcılığı qarşısında kiçik xidmətimə görə xoşbəxt hiss edirəm. Əziz oxucu, Sizə isə həyatda xoşbəxtlik arzusu ilə hələlik deyirəm!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ƏLƏSOV RAFAIL**

# KİTABIN İÇİNDƏKİLƏR


| | |
|---|---|
| **Ön söz əvəzi** | 3 |
| **Minacat** | 21 |
| **Nət** | 25 |
| **GƏRAYLILAR** | 28 |
| Yaradınm | 29 |
| Bu can | 30 |
| Yaz gəlir | 31 |
| Şüşədəndi | 32 |
| Can atırıq | 33 |
| Qəlbimdəsən | 34 |
| Keçib | 35 |
| Gedir | 36 |
| Dünya hələ kamil deyil | 37 |
| Ədalətə çatasıyam | 38 |
| Gəlir | 39 |
| Günəş doğasıdı | 40 |
| Unudulmur | 41 |
| Yağıları qıraq | 42 |
| Tökülmə saçım | 43 |
| Köçəsidi | 44 |
| Tarım mənim | 45 |
| Çağla, kaman | 46 |
| Ay mənim ilham pərim | 47 |
| Yazıq | 49 |
| Qonaq | 50 |




Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu çek 51
Vay halına 52
Deyişmə 53
**QOŞMALAR** 55
Məhəbbət 56
Məhəbbət 57
Sönməyək 58
Mənim 59
Anamın 60
Bir dəfə 61
Gözəlləşdirib 62
Nə var 63
Olur, olsun 64
Bildim 65
Bilmirəm 66
Bəxt 67
Qızlar 68
Düşür 69
Düşüb 70
Közə düşdü 71
Ürəyim 72
Daha şirin 73
Ələsgər oldu 74
Baxım, baxmayım 75
Yar yarını anmasa 76
Gəlmisən 77
Var 78
Vətənimə, elimə 79
Gedir 80
Azəri 81
Gərək 82
Onu 83
Mənim 84



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İntiqam 85
Yaxın gəl 86
Tapılmaz 87
Deyil 88
Keçibdi 89
Sənsən, yoxsa mən 90
Nişan üzüyü 91
İnsan 92
Təzələnir 93
Bənzəyir 94
Doymaram 95
Mübarək olsun 96
**TƏCNİSLƏR** 97
Qumrudan 98
Qaralar məni 99
**BEŞLIKLƏR** 100
Xoş gəlibsiniz 101
**MÜXTƏLIF ŞERLƏR** 102
Sonbahar eşqim 103
Dilənçi 104
Görüş 106
Küləklə qoşa 108
Prometey ömrü 109
Əlvida səksən yeddi 112
Yaxın və uzaq səadət 113
Qayıtsan 114
Nə lazımdı bəs sənə 115
Xəyalınla yaşaram 116
Vəfasız demə 117
Bir ömür az deyil 118
Qınama məni 121
Sevdim, ixtiyarım yox 122
Səni seçərdim 123



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | |
|---|---|
| Nəsə qalıbdı | 124 |
| Həsrətin də əzizdi | 125 |
| Gecə | 126 |
| Ah vətən, vətən | 128 |
| Mübarək | 131 |
| Uğurlar ola | 133 |
| **RÜBAILƏR** | 134 |
| **İTHAFLAR** | 164 |
| Ustad | 165 |
| Habil | 168 |
| Bilməz | 170 |
| Ədalət | 170 |
| Ədalətin | 171 |
| Çala-çala | 172 |
| Ədalət | 173 |
| Ədalətin sazı | 173 |
| Ədalətin | 174 |
| Ələsgər | 175 |
| Seyid | 176 |
| Kimi | 177 |
| Qardaş | 177 |
| Olacaqsa | 178 |
| Oldu, oldu | 178 |
| Ağacanı | 180 |
| İnanmaq olmur | 181 |
| Xanlar | 182 |
| Yüz yaşa | 183 |
| Görək | 184 |
| Çal, ay Namiq | 184 |
| Eşq olsun | 186 |
| Balabəydi | 186 |
| Balabəy | 187 |
| Rəmiş | 188 |




Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | |
|---|---|
| Sənin | 189 |
| Ədalət | 190 |
| Samirə xanım | 191 |
| Var | 192 |
| Səni | 193 |
| Unudulmaz hünər | 194 |
| Olsun | 195 |
| Tanıtma | 196 |
| Oldum | 197 |
| Gələsidi | 197 |
| Moskva | 199 |
| Alqış sənə, Tovuz | 200 |
| Şiştəpə | 202 |
| Müqəddəs | 203 |
| Qəmərim | 205 |
| Gözəldi | 206 |
| Sən | 207 |
| Gəl | 208 |
| Mənim Karım | 208 |
| Ağrıma Karım | 209 |
| Xoş gəldin | 210 |
| Kübrə | 212 |
| Qızım | 213 |
| Mastana | 215 |
| Layiqli qız ol | 216 |
| Olsun | 217 |
| Olsun | 218 |
| Mübarək | 219 |
| Arzular | 220 |
| Həyatdan kam al | 222 |
| Olacaqdır | 224 |
| Müşfiq | 225 |
| Darıxma | 226 |
| Biz | 227 |



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ulbrus 227
Qardaş 229
Dəyməz 230
Sənin 231
Səni 232
Doqquz may 233
Bədirxan 234
Qardaş 235
Şəhidlər 236
Dirisiniz 236
Zərifə xannım 237
Zərifəmiz 238
Zərifə xanım 239
Zərifədir 239
Həkim 240
Yetim Mayis 241
**DEYİŞMƏLƏR, SƏSLƏŞMƏLƏR** 242
Görmüşəm 243
Manat 244
Cibimdədi 246
Götür 246
Götürmərəm 247
Bu dünya düzəlsə 248
Dünya 250
Xilqət 251
Dünya 252
Bu dünya 253
Düzələ 253
Ola bilməz 254
Quzu kəsim 256
Qurban olum 256
Yoxdu 257



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yarad bilir 257
Deyil 258
Var 258
Gəl ayrılaq 260
Ayrılaqmı 261
Keçibdi 263
Gözəl 265
Düşdü 257
Nə gözəl çəkir 269
Baş başa düşməz 272
Qocalıqdan bilmə bunu 273
Ulu Tanrım 276
**POEMALAR** 278
Məhəbbət 279
**MƏNSUR ŞERLƏR** 336
Məhəbbətimiz kimi 337
Bir an 341
Ana inamı 346
**Redaktordan son söz əvəzi** 347
**Kitabın içindəkilər** 361




Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional